# Uydurmalar və həqiqət

Coş Makdauell və Bob Hostetler

# Mündəricat

Minnətdarlıq........................................................................3
Müəlliflərdən......................................................................4
Giriş......................................................................................5
Allah haqqında uydurmalar..............................................8
İsa haqqında uydurmalar.................................................16
Müqəddəs Kitab haqqında uydurmalar...........................33
Dirilmə haqqında uydurmalar.........................................57
Məsihçilik və məsihçilər haqqında uydurmalar.............67
Həyat və xoşbəxtlik haqqında uydurmalar...................107

# Minnətdarlıq

İnsanların birgə əməyinin nəticəsi olaraq hər dəfə kitablarımdan biri işıq üzü görəndə, zəhməti keçən hər bir insan qarşısında özümü borclu hesab edirəm. Bu kitab da istisna deyil. Məni həmmüəllifim Bob Hostetlerlə tanış edən, «Word Publishing» nəşriyyatının əməkdaşı Cou Poula, Bobla birlikdə kitabın son şəklini araya-ərsəyə gətirən Deyvu Bellisə, xüsusilə də Bob Hostetlerin şəxsən özünə təşəkkür edirəm. Bob kimi yaradıcı və istedadlı bir insanla işləmək mənim üçün böyük bir şərəf idi. Onun fərasəti, yumor hissi və yazıçılıq ənamı mənə çox kömək etdi. Əminəm ki, sizinlə də belə olacaq. Baxmayaraq ki, bu kitab birgə zəhmətin bəhrəsidir, ancaq Bob xüsusi tərifə layiqdir.

Coş Makdauell

# Müəlliflərdən

Bu kitabda mənim həyatımdan olduğu kimi, Bobun da həyatından nümunələr var. Oxumanı və anlamanı sadələşdirmək məqsədilə qərara aldıq ki, hər dəfə bizlərdən hansımızın bu və ya digər şəraitə düşməsini göstərmək əvəzinə, yaxşısı budur, həmişə birinci şəxsdən yazaq.

Coş Makdauell

# Giriş

Bəlkə də o, Pikasso kimi dahi idi. Lakin fərq onda idi ki, Pikasso şəkillər çəkirdi. Bizim qəhrəman isə saxta pullar. O öz işinin mahir ustası idi. Onun peşəkarlığı haqqında əfsanələr gəzirdi. Saxta pulları möhürləmək üçün mükəmməl vəziyyətdə olan möhür dəstini toplamaq məqsədilə il boyu gərgin əmək sərf etmişdi. Baxmayaraq ki, onun möhürləri indiyədək hazırlananların ən yaxşısı idi.

Ələ keçirilən vaxt bu «sənətkar» onu tutmağa gələn xüsusi xidmət orqanı əməkdaşlarını sınamaq qərarına gəlir. Şəxsən düzəltdiyi 20-lik dollarları əsli ilə eynilik təşkil edən əskinazlarla yanaşı qoyaraq «Mərc gəlirəm ki, siz bu əskinazlar arasındakı fərqi tapa bilməzsiniz» deyir.

Xəzinədar mübahisə etmir.

«Heç bir fərq yoxdur, — deyə o dillənir. — Nümunə üçün götürdüyünüz də saxtadır».

Bu gün əksər yeniyetmə məsihçilər də eyni səhvi təkrarlayır. Onlar valideynlərinin iman etdikləri şeyləri qeyd-şərtsiz qəbul edirlər. Kor-koranə dostlarının fikirlərinə şərik olurlar. Cəmiyyət tərəfindən qəbul edilən dəyərləri mənimsəyirlər. Məbədlərinə gələnlərin xarakterinə uyğun davranışları yamsılayırlar. Lakin bədbəxtçilikdən onların təqlid etdiklərinin əksəriyyəti əslində saxtadır, eynilə uğursuz qəlp pul kəsənlə olduğu kimi.

Enni Müqəddəs Kitabı ümumdünya ədəbiyyatının oxunan kitabları siyahısına salınması təklifinə kollecdə göstərilən münasibətdən heyrətlənmişdi. Bir çoxları «yəqin, sən zarafat edirsən. Əlbəttə, Müqəddəs Kitabda bir neçə heyranedici əsatir və əfsanələr var. Məgər bütün bunları ciddiyə alıb onlara inanmağımızı istəyirsən?» deyə öz fikirlərini bildirmişdilər.

On altı yaşlı Samanta heç düşünmədən «məsihçilər, buddistlər və müsəlmanlar arasında elə də böyük fərq yoxdur. Bütün dinlərin mahiyyəti eynidir: Hamımız cənnətdə olmaq istəyirik. Lakin ora düşmək üçün müxtəlif yollar seçirik» nöqteyi-nəzərdən yayılan fikirlərə şərik çıxır.

Ken gənc oğlan və qızlar arasındakı münasibəti son dərəcədə adi hesab edirdi. Onun fikrincə, gənclər qırılmaz surətdə drekslə əlaqəli olurlar. «Nə qədər ki, bunu etməmisən, kişi deyilsən». Onun üçün seksual həyatın başlanğıcı — oğlanın kişi olmasından ötrü xüsusi həsr olunma ənənəsidir.

Stefaninin valideynləri ilə səmimi söhbəti onun əqidələrindən birinin üstünü açdı. «Nəyin yaxşı, nəyin pis olması barədə düşüncələrinizi zorla mənə qəbul etdirə bilməzsiniz, — deyə o, israr edirdi. Mənim on səkkiz yaşım var. Bəsdir, mənə öyüd verdiniz. Pis hesab etdiyiniz şey, o demək deyil ki, mənim üçün də pisdir».

Bəs həqiqət haradadır? Yalan haradadır? Yeniyetmə və gənclər addımbaşı bu sualla qarşılaşırlar: valideynlər bir söz deyir, dostlar isə tamam başqa şeylərdən bəhs edirlər. Hollivud filmlərinin təbliğ etdiyi həyat tərzini məbəd günah kimi öyrədir. Bəzən bu, həqiqətən də, ədalətli olur. Lakin əksər hallarda bütün bunların əsasında uydurmalar dayanır.

Kitabımızın hər fəsli burada bəhs olunan mövzuya aid kiçik bir tapşırıq və müəyyən problemi açıqlayan Müqəddəs Kitab ayələri ilə yekunlaşır.

Müəlliflər ümid edir ki, kitabın səhifələrində yer alan əsatirlərin cəfəngliyinə əmin olduqdan sonra siz, «Məsihi Rəbb kimi ürəyinizdə müqəddəs tutub, daxilinizdə olan ümid barəsində sizdən hesabat istəyən hər kəsə cavab vermək üçün hazır olacaqsınız» (1Peter 3:15). Bundan başqa qoy sizin imanınız elə inkişaf etsin ki, siz Allah

Kəlamını təhrif edən və ya Ona qarşı olan, başqalarının etiraz niyyətlərinə səbəb olmayan qarşıdurmaya həmişə hazır ola biləsiniz.

# Allah haqqında uydurmalar

## 1. Kosmik polis

Zəhlətökənlər haqqında uydurma (o kəslər ki, Allah yalnız onlarla — başqalarının rahatlığını pozanlarla məşğul olur)

/İşarədəki yazı «Ruhlanma anı» /

Bir çoxları Allahı qalaktikanın mərkəzində dayanaraq nəqliyyatın hərəkətini tənzimləyən və idarə edən kosmik polis kimi təsəvvür edir

«Ey, siz! Bəli, bəli sizinləyəm. Deyəsən, orada əylənməklə məşğulsunuz. Tez olun, yığışdırın bütün bunları».

«Bəs siz, videokassetlilər? Hansı yaş həddindəsiniz? Hələ on altı tamam olmayıb? Tez olun, səssizcə əlinizdəkini mənə verin».

«Bəs bu qaranlıq küncdə öpüşənlər kimdir, görəsən? Aha, bu sənsən, Sindi? Hə, Robert, sən də buradasan? Hm... Başqa kim ola bilər ki? Bir daha bunu görməyim. Heç olmazsa, mən bu bölgədə gözətçi olduğum vaxt».

Allah yalnız başqalarının həyatını zəhərləməklə məşğul olur. Axı bizə lazım olanlar bir qədər nəşələndiricidir. Allah isə beləcə bizdəkiləri məhv etmək üçün səylə çalışır.

İblisi isə əyləncə sevən cin kimi təsəvvür edirik. Yumorist Filipp Uilson belə bir ibarə işlətmişdi: «Cin məni buna vadar etdi». Belə təsəvvür yaranır ki, «dostumuz» iblis yalnız vaxtımızı xoş keçirməkdə bizə yardımçı olmaq haqqında düşünür.

Bu yalandır.

İblis üçün fərqi yoxdur, siz şənsiniz, ya yox. Ölənə kimi onun sizi görməyə gözü yoxdur. O, üstünüzə hücum çəkmək üçün bir fürsət

axtarır. Həvari Peterin dediyi kimi, iblis daim kimisə aşırmaq üçün gəzir.

Turist dəstəsini müşayiət edən, Müqəddəs torpağı ziyarət etmiş bələdçi onlara bu ölkənin özəl xüsusiyyətlərindən bəhs edir: «Siz, yəqin ki, öz ölkənizdə çobanların yollarda, tarlalarda qoyunları qovmasını, sürünün ardınca getməsini görməyə adət etmisiniz. Lakin Fələstində əksinədir. Burada çoban yol göstərərək daim sürünün qarşısında gedir».

İlk qoyun sürüsünü gördükdə isə turistləri gülmək tutdu. Belə ki, bir nəfər sürünün qarşısında yox, onun ardınca gedirdi. Pərt olmuş bələdçi bu adamdan soruşdu: «Nə üçün sürünün arxasınca gedirsən? Həmişə mən elə gəlib ki, Şərqdə çobanlar *sürünü öz ardınca aparır*».

«Tamamilə haqlısınız, — deyə yad adam dilləndi, — Çoban sürüsünü öz arxasınca aparır. Amma mən çoban deyiləm, qəssabam».

Bax belə, iblis qəssabdır. O, heç də sizə sevinc və ya zövq vermək həsrətində deyil. Onun yeganə nail olmaq istədiyi şey — sizi aşırmaqdır.

İsa Məsih hər şeyi yerbəyer etdi və «Oğru (iblis) yalnız qarət etmək, öldürmək və tələf etmək üçün gəlir. Mənsə gəldim ki, onlar həyata, bol həyata malik olsun» (Yəhya 10:10) deməklə bu əsatiri alt-üst etdi.

Sizə yaxşı olub olmamasının İblis üçün heç bir fərqi yoxdur. Onun yeganə istəyi — sizi oğurlamaq, öldürmək və məhv etməkdir.

Allah isə heç də sizin şən əhval-ruhiyyənizi korlamaq niyyətində deyil. O istəyir ki, siz həyatdan tamamilə zövq alasınız. O istəyir ki, siz Məzmur müəllifinin dediyi kimi həyatda bütövlülük, sevinc, «səadət» hiss edəsiniz.

Mənə həyat yolunu öyrədirsən,
Doyunca sevinc Sənin hüzurundadır,

Sağ əlində hər zaman səadət var.

Zəbur 16:11

**Özün əmin ol**

Zəhlətökən haqqında uydurmanın cəfəngliyinə əmin olmaqdan ötrü aşağıdakı tapşırığı yerinə yetir.

Peterin 1-ci məktubunun 5-ci fəslindən 8-ci ayəni oxu. İblis bu ayədə necə təsvir olunur? Nə üçün?

Əyyubun kitabının 2-ci fəslindən 1-8-ci ayələri oxu. İblis Əyyubu sınamaq üçün necə plan hazırladı? Nə üçün?

Zəkəriyyə peyğəmbərin kitabından 3-cü fəslin 1-si ayəsini oxu. İsaya qarşı münasibətdə iblis özünü necə aparır?

Vəhydən 12-ci fəslin 10-cu ayəsini oxu. Bu ayədə iblisdən bəhs olunur. «Gecə və gündüz» o, nə edirdi? Əyyubun və peyğəmbər Zəkəriyyənin kitablarından indicə oxuduğun ayələrə əsaslanaraq «bizim məsləkdaşlarımız» dedikdə söhbətin kimdən getdiyini deyə bilərsənmi? Bu sözün sənə də bir aidiyyəti varmı?

## 2. «Ulduzların müharibəsi»ndən Lyukun Allahı

Allanın simasız güc olması haqqında uydurma

/Gənclərin sözü: Lyuk, gücü tətbiq et/

«Qum insanlar»dan xilas olan Lyuk Skayuolker Tatulin planetində spartalı Obay-van Kenobinin iqamətgahına düşür. Lyuk aydınlaşdırır ki, Obay-van bir vaxtlar maşın müharibəsində atası ilə birgə mübarizə

aparmış həmin ceday[1] cəngavərdir. Obay-van bir vaxtlar Lyukun atasına məxsus olan işıq qılıncını ona verir və söhbət əsnasında sirli «güc» sözünü xatırladır.

«Güc?» — deyə Lyuk soruşur.

Obay-van ona belə cavab verir: «Bilirsən, güc elə bir şeydir ki, cedaylara hakimiyyət verir. Bu bütün canlı varlıqları yaradan energetik sahədir. Bu, bütünlükdə bizi əhatə edir, hətta daxilimizdə belə yerləşir. Bütün qalaktika məhz bu gücün sayəsində saxlanılır».

«Ulduzların müharibəsi» filminin qeyri-adi seriyalarında da bu işin gündəlik ideyasının oxşarlığından bəhs olunur. Allahın hansısa «güc» olması fikrini bir çoxları dəstəkləyir. Beləléri üçün Allah kainatı sirli şəkildə düzüb quran və onu idarə edən simasız və şəkilsiz halda olan «enerjidir».

Lakin bu, mövcud olan uydurmalardan daha birisidir.

Əlbəttə, Allah hər yerdə mövcud olan və kainatı idarə edəndir. Onun hüzuru hər yerdədir. Axı O — Ruhdur. Lakin bu, o demək deyil ki, o, hansısa bir sirli «güc», harada isə mövcud olan hiss edilməyən «enerji»dir. O, «nə isə müəyyən olunmayan» deyil. Allah necə səslənməsindən asılı olmayaraq, Şəxsiyyətdir.

«Məni sevəni Mən sevirəm — Allah deyir — məni axtaran tapır» (Süleymanın Məsəlləri 8:17). Fikir verin, Allah şəxs əvəzliyindən istifadə etməklə Özü haqda nə deyir. «Məni… Mən… Mənə…». Bu, hansısa «kosmik enerji»yə bənzəyirmi?

Müəyyən edilməmiş hansısa simasız güclə əlaqəsi olmayan Allah, Müqəddəs Kitabda Özünü bizə «İbrahimin Allahı, İshaqın Allahı,

---

[1] Cedaylar — "Ulduzların müharibəsi" epopeyasının əsas personajlarıdır, sülhməramlı cəngavərlər — cedayların Ordeninin üzvləridir, Qüvvənin İşıqlı Tərəfinin davamçılarıdır. — *Tərcüm*. qeydi.

Yaqubun Allahı» (Çıxış 3:15) kimi təqdim edir. O Öz adını Musaya açıqlayır. Özünü yeniyetmə Şamuelə göstərir. Yeşaya ilə məbəddə danışır. O, Yeremyaya üz tutub deyir: «Mən sənə ananın bətnində surət verməzdən əvvəl tanıdım» (Yeremya 1:5). Həvari Paul Onu «Mənim Allahım», padşah Davud isə «yetimlərin atası, dulların himayədarı» adlandırır. Eləcə də bütün məsihçilər «oğulluq Ruhu»nu alıblar, buna görə də Allaha «Abba, Ata» deyə nida edə bilirlər (Romalılara 8:15).

Allah həqiqi Allahdır. O səninlə şəxsən maraqlanır. O sənin adını da bilir. «Budur, O, xalqına nida edir — Mən sənin adını ovuclarımda həkk etmişəm» (Yeşaya 49:16). Həvari Peter deyir ki, «O sizin qayğınıza qalır» (1 Peter 5:7). İsa deyir ki, «Sizin başınızdakı saçlar belə sayılıb» (Matta 10:30). Allah vəd verib: «Siz Məni çağıracaqsınız, gəlib Mənə dua edəcəksiniz, Mən də sizi eşidəcəyəm. Məni axtaracaqsınız, əgər bütün qəlbinizlə axtarsanız tapacaqsınız» (Yeremya 29:12-13). Allah şəxsən bu vədi sənə verib.

**Özün əmin ol**

Bu tapşırıq Allahın simasız güc olması haqda uydurmanın cəfəngliyinə əmin olmağınıza kömək edəcək.

Bu fəslin sonunda verilmiş Yeremya peyğəmbərin kitabından 29-cu fəslin 12 və 13-cü ayələrini oxuyun. Bu ayələrdəki bütün şəxs əvəzliklərini seçib ayırın (Siz… Məni... Mənə... Mən… Sizi… və s.).

Yeremya peyğəmbərin kitabından bu fəsildə sitat gətirilən parçanı tap (Yeremya 1:5). Bu kiçik sitatda yer alan şəxs əvəzliyinin altından xətt çəkin.

Musanın İkinci kitabından Musa ilə Allahın görüşməsini oxu (Çıxış 3:1-15). 6-cı ayədə Allah Özünü Musaya necə təqdim edir? 14-cü ayədə O Özünü necə adlandırır? Bu ayələrdə Allah neçə dəfə

«Mən» şəxs əvəzliyini işlədir («Mən» kəlməsi deyilən yerləri sayın və cavabı qeyd edin…)?

## 3. Xeyirxah Şaxta Baba

### Allahın Şaxta Babaya oxşaması haqda uydurma

/Rəsm üzərindəki yazı: Allah, izzət, təhlükəsizlik, zənginlik, xoşbəxtlik, uğur, məhəbbət/

«Hə, nə deyirəm ki, Ya Rəbb. Mövcud olduğunu mənə isbatlamaq üçün Sənə bir şans verirəm».

Yeddi yaşlı Bob çarpayısının qarşısında diz üstə çökmüşdü. O, var qüvvəsi ilə Allaha inanmaq istəyirdi. Buna görə də itaətsiz sarışın başını çarpazlaşmış əllərinin üstünə əyərək davam edirdi.

«Allahım, mən, həqiqətən də, Sənə inanmaq istəyirəm. Bax, səhər yuxudan durduğum vaxt çarpayımın altında milyon dollar görsəm, onda əmin olaram ki, Sən, həqiqətən də, mövcudsan».

O, milyon dolları heç əldə etmədi də.

Ola bilsin ona görə ki, onun üçün pul Allahdan daha üstün idi. Bəlkə də ona görə ki, pulları bir səhərin içində onun çarpayısı altına yerləşdirmək mümkün deyildi. Axı çarpayısı altında onsuz da onun üçün böyük bir əşya yığını vardı: «Monopoliya» oyunu, əsgərcik dağı, maqnitofon, qalaqlanmış çirkli paltarlar, toz basmış dovşan və ayı oyuncaqları.

Lakin hər şeydən əvvəl, o, səhər çarpayısı altında pul görə bilmədi. Ona görə ki, onun Allah haqqında təsəvvürü yanlış idi. Bob Allahı içki satan avtomata bənzədirdi: duanı söyləyirsən, sənin istəyini təsvir

edən düyməciyi basırsan və budur, arzun yerinə yetir. Yaxud da o, Allahı uzaq qarlı çöllərdə oturub onun istəyini reallaşdırmağı gözləyən Şaxta Baba ilə eyniləşdirirdi. Əlbəttə ki, əgər kifayət qədər səylə dua etsə və inansa. Bu şərti yerinə yetirən kimi, yeddiyaşlı bu oğlana ürəyi istəyən hər şeyi Allah ale–op göydən tullayacaqdı.

Hər şeyə rəmən, yeddi yaşlı uşaq üçün bu cür təsəvvürə malik olmaq tamamilə başa düşülən və üzrlüdür. Lakin təəssüf ki, bir çox yaşa dolmuş insanlar hələ də Allahı arzulanan malları satan xüsusi ilahi avtomatla eyniləşdirməkdə davam edirlər. Belələri özlüyündə Allahı Şaxta Baba haqqında olan əsatirin hüdudlarından kənara çıxara bilmirlər.

Allah dualara hazır cavab verir. O deyir: «Məni çağır, sənə cavab verim» (Yeremya 33:3). O, hətta vəd edir: «…Məni çağırmamışdan Mən onlara cavab verəcəyəm, onlar hələ danışarkən Mən eşidəcəyəm» (Yeşaya 65:24).

Lakin dua qəpik deyil ki, istədiyini almaq üçün avtomata atasan, nə də ki, iman üstünə basmaq üçün lazımi düyməcik deyil. Allah bizim nazımız və şıltaqlığımızla oturub durmur. Yeddi yaşlı Bobun milyon dolları əldə etməsindən ötrü necə səylə dua etməsindən və buna var qüvvəsi ilə inanmasından asılı olmayaraq, o, onsuz da ertəsi gün səhər pulları çarpayısının altında tapmayacaqdı. Ona görə yox ki, Allah onu sevmirdi. Ona görə yox ki, Allah dualara cavab vermir. Hətta ona görə də yox ki, çarpayının altında pul üçün yer yox idi. Milyon hələ də peyda olmayıb. Ona görə ki, əslində Bob dua etmirdi. O, sadəcə fikrində arzu tutmuşdu.

### Özün əmin ol

Allahın Şaxta Babaya oxşaması haqda uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Aşağıda göstərilən hər bir ayədə dualara cavab almağın bir şərti göstərilib. Bu şərti bir sözlə ifadə etmək olar. Bu sözü ayənin qarşısındakı sətirdə yaz.

2 Şamuel 7:14

______________________________________________

Yeremya 29:13

______________________________________________

Mark 11:24

______________________________________________

Yaqub 5:16

______________________________________________

1Yəhya 5:14

______________________________________________

Şaxta baba haqqındakı uydurmanın əksinə olaraq, Allah müftə hədiyyə və lütf paylayan səmavi avtomat deyil. O, xırda-xuruş istəklərimizin hamısından üstündür. Axı O, hər şeyə qadir Məhəbbət təcəssüm etdirən Allahdır. O, istəyir ki, övladları Onun onlar üçün izhar etdiyi məhəbbətə cavab versinlər. Belə ki, biz əşyaları deyil, Onu sevək; Allahın tamahkarcasına edilən dualarımıza cavab verməsinə yox, Ona doğru can ataq. O, istəyir ki, biz milyon dollar alacağımıza görə deyil, Onu sevdiyimizə və Onun iradəsinə uyğun yaşayacağımıza görə Ona qarşı itaətli olaq.

Qəribə də olsa, Allahı ürəyimiz istəyən hər şeyi paylayan avtomat, yaxud xeyirxah Şaxta Baba kimi təsəvvür etməkdən vaz keçsək, onda Onun Sözünün vəd etdiyi kimi, «Ondan nə diləyiriksə alırıq, Ona görə ki, Onun əmrlərinə riayət edirik və önündə Ona məqbul olan işlər görürük» (1Yəhya 3:22).

# İsa haqqında uydurmalar

## 4. İsa Peyğəmbər

Xeyirxah müəllim haqqında uydurma

/Lövhədəki yazı: Bir-birinizi sevin!/

«Cinlər, şeytanlar, əcinnələr! Xahiş edirəm, diqqətli olun!»

Uğursuz cəhənnəm mağaralarından birində keçirilən əxlaqsız mələklərin günahkar toplantısı açıq elan edildi.

«Onun qəddar böyüklüyünün sədrliyi altında keçirilən bu toplantı insani şəxsiyyətin düşmən ordugahımızı keçməsinin qarşısını almaq üçün hazırlanan strategiyanın müzakirəsinə həsr olunub. Mənfurun irəli sürdüyü təklifi müzakirə etməyi təklif edirəm».

İyrənc görünüşlü, hər yerini ziyil basmış cin irəli çıxıb iblis yığıncağına üz tutdu.

«Mənim nifrət dolu həmkarlarım, — deyə Mənfur sözünə başladı. — Mən təklif edirəm ki, bilavasitə okkultizm və bütün mümkün təriqətlərin təşkili nəzəriyyəsini yaymaqla məşğul olan alimlər Düşmənimizin Oğlunun «xeyirxah müəllim» olması fikrini genişləndirmək istiqamətində səylərini artıraraq qaranlıq padşahlığımızı işıqlandırsınlar.

«Ay səni görüm... Mənfur!» — deyə sağ tərəfindəki opponenti dırnaqları üstündə duraraq ona acıqlandı. Düşmənimizin Oğlu ilə dostluq münasibəti güdən bu təklifinə görə səni tikə-tikə etmək lazımdır». Mənfurun yanında dayanan bir neçə iblis ləzzətlə kor-kobud dodaqlarını yaladılar.

«Necə də səfehsən, — deyə Mənfur etiraz etdi. — Mənim təklifimdə heç bir dostluq münasibətindən söhbət belə gedə bilməz, — deyib qürurla çiyinlərini dartdı. — Mənim təklifim şeytani məharət tələb edir».

Daha bir cin ayağa qalxdı.

«Belə bir adi planı sən necə şeytani məharətlə hazırlanmış adlandıra bilərsən?»

«Sadəcə ona görə ki, — deyə Mənfur cavab verdi, — Oğulu daha bir «xeyirxah müəllim» adlandırmaqla Onu Musa, Zərdüşt və Məhəmmədlə bir sıraya qoymuş oluruq… Beləcə, bu, tərif şəklində lənət olacaq».

İzdiham mənfurun şeytani məharətlə hazırlanmış təklifinin mahiyyətini anlayıb sakitləşdi.

«Ay sizi axmaqlar… Məgər başa düşmürsünüz ki, insanlar Onun yalnız «xeyirxah müəllim» olmasına inansalar, onda bilməyəcəklər ki, O — Rəbdir, Onun təbiəti — İlahidəndir.

«Yox bir… — deyingən adlı cin etirazını bildirdi. Onlar heç vaxt buna inanmazlar. Əslində Kim olduğunu O, hamıya açıqcasına başa salıb».

«Deyingən haqlıdır — deyə başqaları səs-küy salmağa başladılar. İnsanlarda Kitab var. Onlar Onun Özü haqda nə dediyindən xəbərdardırlar: «İbrahim olmazdan qabaq Var Olan Mənəm» (Yəhya 8:58). Onlar Onun hələ dünya yaranmazdan əvvəl Atası ilə bölüşdürdüyü izzət haqqında oxuyublar.

«Elədir ki, var, gicbəsər, — Deyingən əlavə etdi. İnsanlar bilir ki, O, insanların düşüncələrini və ürəklərinin dərinliklərində baş verənlərdən xəbərdar olmaq, eyni zamanda günahları bağışlamaq səlahiyyətinə malik olmasını elan edib. O Özü şəxsən onlara deyib: «Mən göydən gəlmişəm». Onlar yaxşı bilir ki, O, ölülərdən dirilmək səlahiyyətinə malik olduğunu elan edib və Onun ölülərdən

dirilməsinin şahidləri də var idi. Onlar bir o qədər də axmaq deyillər ki, hansısa adi bir insan, «xeyirxah müəllim» bu cür səlahiyyətə malik olsun».

«Bundan başqa, — təntənəli şəkildə Deyingən sözünə davam etdi, — əgər onlar Onun Özü haqda dediklərinin yalan olduğuna inansalar, onda O, «yaxşı müəllim» deyil… Onda O, ya yalançı, ya da ki, dəlidir.

Zalda gurultu qopdu. Mənfurla yanaşı dayanmış iblislər yenidən ağızları sulanmış halda səbirsizliklə məhkəmə hökmünün yerinə yetirilməsini gözlədilər. Lakin o, heç əzmini pozmadı.

«Nifrətə layiq dostlarımın diqqətinə tez-tez istədiyimizə nail olmağa imkan verən bir insani xüsusiyyəti çatdırmaq istəyirəm. Ölümə məhkum olunmuşlar həqiqəti bildikləri halda belə tez-tez yalanı seçirlər. Oğul Özü nitqində belə demişdir: «Əgər Musanı və peyğəmbərləri eşitmədilərsə, onlardan hansısa ölülərdən dirilsə belə inanmayacaqlar».

Mənfur yerinə keçib özündən razı halda gülümsədi. Onu əhatəyə alan ac yalavac iblislər ümidsiz halda bir-birlərinə baxdılar.

«Mənfurun təklifi, — deyə sədr bağırdı, — iblis yığıncağı tərəfindən bəyənildi. Bu andan etibarən «xeyirxah müəllim» haqda əsatirin yayılması cəhənnəmin rəsmi strategiyası kimi qəbul edilir».

## Özün əmin ol

Xeyirxah müəllim haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün İncildəki ayələrdən İsanın Özü haqda dediyi sözləri sitat gətirməklə növbəti tapşırığı yerinə yetir.

**A.** Yəhya 10:18 «Onu (canımı) verməyə səlahiyyətim var; və onu yenidən almağa da səlahiyyətim var».

**B.** Mark 13:23 «…Budur, sizə hər şeyi əvvəlcədən söylədim».

**C.** Yəhya 8:51«… Doğrusunu, doğrusunu sizə deyirəm: kim Mənim sözümə riayət edərsə, heç vaxt ölüm görməyəcək».

**D.** Mark 13:26 «…İnsan Oğlunun buludlar içində böyük qüdrət və izzətlə gəldiyini görəcəklər».

**E.** Mark 2:28 «Buna görə İnsan Oğlu şənbə gününə də hakimdir».

**F.** Yəhya 4:25 «Qadın Ona dedi: «Bilirəm ki, Xristos adlanan Məsih gələcəkdir… İsa ona dedi: Səninlə danışan Mən, Oyam».

**G.** Yəhya 5:21 «Oğul da istədiyi kimsələrə həyat verir».

**H.** Luka 12:9 «Amma insanlar önündə Məni inkar edən özü də Allahın mələkləri önündə inkar olunacaq».

**I.** Yəhya 11:25 «Dirilmə və Həyat Mənəm; Mənə iman edən ölsə də, yaşayar».

**J.** Mark 2:10 «…İnsan Oğlunun yer üzündə günahları bağışlamağa səlahiyyəti olduğunu biləsiniz».

**K.** Matta 5:17«Mən pozmaq üçün deyil, icra etmək üçün gəldim».

**L.** Luka 22:70 «Onların hamısı dedi: «Deməli, Sən Allahın Oğlusan?» İsa onlara cavab verdi: «Sizin dediyiniz kimi O Mənəm».

## 5. İsa — məşhur insandır, vəssalam

Super ulduz haqqında uydurma

/Budka üzərindəki yazı: telefon/

XX əsrin 70-ci illərində səhnəyə qoyulan Endryu Lyuda Veberin «İsa Məsih super ulduzdur» operası böyük hay-küyə səbəb olmuşdu. Bəziləri bunu «küfr», digərləri isə «şah əsər» adlandırmışdı.

Tamaşanın gedişatında Məcdəlli Məryəm İsa haqqında mahnı oxuyurdu. Sonralar bütün radiostansiyaların xitinə çevrilən bu mahnı «Heç bilmirəm, Onu necə sevim» adlanırdı.

Bu mahnıda Məcdəlli Məryəmin İsaya olan ehtiraslı romantik məhəbbəti (baxmayaraq ki, Müqəddəs Kitabda bu haqda heç bir işarə və ya eyham belə yoxdur) təsvir olunur. Hələ bu azmış kimi, mahnının sözlərində İsa haqqında yayılan əsatirə zidd olaraq, Məryəmin dilindən «O — insandır. O, *ancaq* insandır» səsləndirilirdi.

Bu əsatirdir.

İsa, həqiqətən də, insandır. O, qadından, mal-qara üçün nəzərdə tutulan tövlədə doğulmuşdu. Əgər sizlərdən kimsə tövlədə olubsa, onda İsanın bu dünyaya göz açdığı vaxt necə bir qoxunun əhatəsində olduğunu təsəvvür etmək yəqin ki, onun üçün çətin olmaz. O, bu dünyaya məhz bu cür kəskin qoxunun içində göz açmışdı.

Lakin super ulduz haqqında uydurmanın əksinə olaraq, insani təbiət İsanın təbiətinin yalnız bir hissəsidir. Müqəddəs Kitab Onun təbiətinin ikiliyi haqqında açıq — aydın deyir: «Məsih İsa necə düşündü, siz də elə düşünün. Allah surətində olduğu halda O Özünü Allaha bərabər tutmağı bir haqq saymadı. Lakin Özünü heç etdi və qul surətinə salıb insanlara oxşar oldu» (Filipililərə 2:5-7).

Əsrlər boyu insanlar İsanın təbiətinin ikiliyini dərindən anlamaq üçün ciddi səy göstəriblər. Çox vaxt məsihçilər (məsihçilərlə yanaşı Lyuda Veber kimi istedadlılar) İsanın insanlığına böyük önəm verdiklərindən Onun ilahiliyini kölgələmiş olurlar. Bəziləri isə əksinə, Onun insani təbiətini heçə endirirlər. Nəticədə, əksər insanlarda İsa Məsih haqqında məhdud təsəvvür formalaşır. Allahın Kəlamı isə heç bir şübhə yeri qoymur. «O — Allahdır» (Matta 1:23), eyni zamanda bu sözün tam mənasında «O, İnsan olan İsa Məsihdir» (Timoteyə 2:5).

Klassik ərəb nağılı «Min bir gecə»də bəhs olunur ki, Bağdadın xəlifəsi xalqının dolanışığını əlüstü öyrənmək üçün tez-tez kəndli paltarı geyinib şəhərin küçələrini gəzərmiş. İsa isə bu xəlifənin elədiyi ilə müqayisəyə gəlməyəcək dərəcədə böyük şey etdi. O Öz şahlıq mövqeyini müvəqqəti olaraq qurban etmədi. O, «qul surətini aldı». O, göydən yerə enən Allah, şahların şahıdır.

Müəllimi ilə bərabər tozlu yollarda irəliləyən, Onun kimi kasıbsayağı yeməklərlə, balıq və çörəklə qarnını doyduran İsanın şagirdi Yəhya insan kimi tanıdığı Şəxs haqqında belə yazır:

Başlanğıcda Kəlam (İsa) var idi. Kəlam (Kəlam — Allahın Öz qulları ilə ünsiyyət yaratdığı, Özünü onlara tanıtdığı Vasitə) Allahla birlikdə idi. Kəlam Allah idi.

Yəhya 1:1.

Müjdəsinə bu məşhur kəlmələrlə başlayan Yəhya «Kəlam» adı altında kimi nəzərdə tutduğuna dair heç kəsdə şübhə buraxmır.

Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı; biz də Onun ehtişamını — Atadan gələn vahid Oğulun ehtişamını gördük.

Yəhya 1:14

**Özün əmin ol**

Super ulduz haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün bu tapşırığı yerinə yetir.

İsa və şagirdləri bəşəri sitayişə kimin layiq olmasını yaxşı bilən yəhudilər idilər. Müqəddəs Kəlamdan verilmiş açıqlamaları oxuyub qarşısında bu ayələrə istinad edərək kimə sitayiş etmək lazım olduğunu yaz.

Çıxış 20:3

Qanunun təkrarı 6:14-15

Luka 4:8

İndi isə Müqəddəs Kitabdan sitat gətirilən bu ayələri oxuyub kimə sitayiş etmək lazım gəldiyini göstərin.

Matta 2:2,11

Matta 28:17

İbranilərə 1:6

Beləliklə, Müqəddəs Yazı yalnız Allaha sitayiş etmək haqda dəqiqliklə deyir. Bəs sənin fikrincə, İsa haqqında deyilən ayələrə istinad edərək hansı nəticəni çıxarmaq olar?

## 6. İncə təbiətli İsa

Mülayim və rəhimli İsa haqqında uydurma

Əgər siz İsanın iradəcə zəif olduğunu və mülayim səslə danışdığını, yaxud çox vaxt rəssamların öz əsərlərində təsvir etdiyi kimi, zərif, incə əllərə malik təsəvvür edirsinizsə, onda yanılırsınız.

Düzdür, O, göydəki quşları, tarlalardakı zanbaqları gözəl vəsf edən şair idi. O, həm də çörək bişirən qadın, tor atan balıqçılar haqqında

hekayələr qoşan gözəl Rəvayətçi idi. Düzdür, O, körpələri dizləri üstə yellədən, onları şənləndirən mehriban Nazaretli idi. O, qanunşünasların önündə heç bir söz söyləmədən dayanaraq acı təhqirlərə tab gətirən həqiqi dinməz Əsir idi. Bununla belə, İsa əsl kişi idi. Qabar əlli dülgər idi. Səhralarda uzun müddət sərgərdan gəzməyə adət etmiş səyyah idi. Dövrünün rüşvətxor qanunşünaslarına kobudcasına fikrini deyərək onları «bəzədilmiş qəbirlər», «kor bələdçilər», «gürzələr» adlandırmağı bacaran cəsarətli bir kişi idi. Müqəddəs Kitab tədqiqatçısı C. B. Filips demişdi:

> *Çox təəssüf ki, məbəd üçün layiqli bir himn yazmaq üçün «uşaq» sözü ilə qafiyə təşkil edən çox az söz tapmaq olur. Əks halda, əksəriyyətimizə hələ uşaq ikən öyrəndiyimiz mahnının nəqarətini belə tez-tez eşitmək lazım gəlməzdi.*
> *Xeyirxah İsa körpə uşağa baxır,*
> *Mülayim və həlimliklə baxır.*
> *Görünür, biz qəsdən — heç tərəddüd etmədən dövrünün din adamlarının ikiüzlüyünü ifşa edərək meydan oxuyan insani baxışları xarakterizə etməkdən ötrü; azğınlaşmış izdihamın arasından sağ-salamat qurtulmağa cəsarəti çatan insana; Hakimiyyət nümayəndələri tərəfindən cəmiyyət üçün təhlükəli göründüyü hesab edilən çox dəyərli bir insana; Ona yaxşılıqlar diləyən dostlarının yalvarışlarına əhəmiyyət verməyərək bilərəkdən Onun üçün ölüm kəsb edən şeyə qəsdən üz tutan bu qədər cəsarətli bir insana «həlim» sözünü şamil edirik.*

Bir çoxlarının İsaya qarşı adət etdiyi zəif, həssas və arvadsifət kimi təsəvvürləri növbəti uydurmadan başqa bir şey deyildir. O, həqiqətən də, xeyirxah olub. O, sadə olub. Lakin Onun xeyirxahlığı və sadəliyi zəifliyinin göstəricisi deyil. Əslində isə bu, nəzarətdə olan gücün əlamətidir.

Müjdəyə əsasən, İsa Yerusəlimdə Allahın məbədinə girərkən orada gördüklərindən bərk qəzəblənmişdi və tacirləri qovaraq onları məbəddən uzaqlaşdırmışdı (ola bilsin, bu, yeganə hadisə deyildi). Onlardan bir kimsə nə üsyan, nə də ki, bu ədalətli qəzəbin partlayışını dəf etməyə cürət etmədi. Baxmayaraq ki, bu hərəkəti Onun yerinə bir başqası etmiş olsaydı, çox sərt şəkildə cəzalandırılardı. Markın Müjdəsində də deyildiyi kimi, İsa nəinki öyrətməkdən ötrü, həm də ticarətçilərin geri qayıtmasının qarşısını almaqdan ötrü məbəddə qaldı. İsa pisliyə qarşı həlimliklə davranmadı. O, ikiüzlülərə qarşı mülayim olmadı. O, pisliklərin qarşılığında rahatlıqla gülümsəmədi.

Əlbəttə, İsa körpələri sevən və onları böyük məmnuniyyətlə dizləri üstə saxlayan insandır, lakin eyni zamanda düşmənlərinin üzünə təmkinlə baxan Kəsdir.

**Özün əmin ol**

İsanın mülayim və rəhimli olması haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Lukanın Müjdəsindən 13-cü fəslin 31-33-cü ayələrini oxu. Onun həyatı üçün təhlükə olduğunu söyləyən fariseylərə İsa necə cavab verir? O, Hirodu necə adlandırır? Bu hadisə İsanın çox güclü bir xarakterə malik olmasından xəbər vermirmi?

Mattanın Müjdəsindən 23-cü fəslin 1-39-cu ayələrini oxu. Fariseylər və qanunşünaslar haqqında danışarkən İsanın sözlərinin gücünə və qərəzsizliyinə diqqət yetir. İsanın onlara verdiyi ləqəbləri sadala.

13-cü ayə

---

16-cı ayə

17-ci ayə

19-cu ayə

33-cü ayə

## 7. Xəyalpərəst İsa

Göylərdə uçan İsa haqqında uydurma

/Adam deyir: «Ey dost, bu vücudla hara belə?»/

«Qulaq as, cavan oğlan, — deyə Den məni süzə-süzə dilləndi, — iki min il öncə yaşayan və vaxtının çox hissəsini ağ libasda ətraf aləmdə veyllənməklə və insanlara lətifələr danışmaqla keçirən bir kimsənin mənim həyatımı dəyişə biləcəyi haqda uydurma rəvayətlərinlə zəhləmi tökdüyün bəsdir». O, əlini boğazına aparıb bütün bunların onu necə bezdirdiyini göstərdi.

«Mənim belə cəfəngiyata qulaq asmağa heç vaxtım yoxdur, — deyə o, davam etdi. Demək istəyirəm ki, İsa haqqında bütün bu əhvalatlar müxtəlif təmsilləri dinləməyi sevən arvad və uşaqların xoşuna gələ bilər, hətta onların işinə də yarayar. Amma mənə çətin ki... Bir maşının təcili nasazlığını ayırd edən, digərinin mühərrikini təmir edən bir gənclə İsanın heç bir əlaqəsi yoxdur».

Den bu gün bir çoxlarının İsa haqqında düşündüklərini təkrarlayırdı. Onlar üçün İsa eynilə avtomobilin cihazlar panelində yerləşdirilən, başı üzərində nur olan ağ libaslı gülümsəyən plastik

fiqurlardan biri kimidir. Belələri deyir ki, «İsa göylərdə uçanlar üçündür. Lakin Onun universitetdə fizika öyrənənlərlə, fabrikdə işləyənlərlə və uşağının dişləri üçün plastin lazım olanlarla heç bir əlaqəsi yoxdur». İsanın müasir dünya ilə münasibəti Sanki oyuncaq raketlərin kosmosa uçuşu kimidir.

Bu uydurmadır.

Həqiqət isə odur ki, belələri ömürlərini xəyal və dalğınlıq içərisində keçirən konfusiçilik və buddizm kimi qeyri-məsihi dinlərin baniləridir.

İsa isə zəhmətkeş olub. O, dülgər idi. Özlüyümdə Onun emalatxanasını təsəvvür edirəm: qapısı Nazaretin tozlu küçələrindən birinə açılır. Girişdə isə «Yusifin oğlu — Dülgər İsa» yazılıb. Mən Onun dülgər dəzgahına sıxılmış sidr ağacından olan lövhənin üzərinə əyildiyin görürəm. Əynində dəridən önlük, alnında isə tər damcıları parıldayır. O, bıçağın ardınca dartınır, sonra isə taxta çəkici götürür. Emalatxananı döşəməyə səpilən sidr ağacının yonqarlarının iyi bürüyüb.

Nazaretli İsa on səkkiz ildən artıq bir vaxt dülgər işləməklə bu işin ağırlığını hiss etmişdi. Onun əlləri qüvvətli əzələlərə malik idi, ovuclarında isə döyənəklər əmələ gəlmişdi. O, həm də iş qurmaq istəyənlərə — smeta tərtib etmək, sifariş qəbul etmək, qiymət təyin etməkdə də bir nümunə idi.

O, ailə qayğısı çəkməyin nə olduğunu da yaxşı bilirdi. Yusifin ölümündən sonra Onun himayəsində azyaşlı bacı və qardaşları qalmışdı. Heç şübhəsiz, O, uşaqları geyimlə təmin etməyi və ya bazarda malın qiymətini aşağı salmağı da bacarırdı.

Nazaretli İsa hansısa xəyalpərəst müqəddəs deyildi. Onun dünyası da bizimki kimi, tozlu və çox vaxt yaman qarışıqlı olurdu. Əlləri çirkli olurdu. Çox vaxt quru torpağın üstündə yatmalı olurdu. Bu dünyadakı ömrü başa çatanda isə O, əzabverici bir ölümə məhkum olundu. Bu

mənada İsa ilə sənin həyatın arasında böyük fərq var. Onun həyatı və ölümü «Ona iman edənlərə» (Yəhya 3:16) bağışlanma və xilas gətirdi.

**Özün əmin ol**

İsanın göylərdə uçan bir xəyalpərəst odluğu haqda uydurmanın cəfəngliyinə əmin olmaqdan ötrü aşağıdakı tapşırığı yerinə yetir. Markın Müjdəsindən 6-cı fəslin 1-6-cı ayələrini oxu. İsanın Nazaretdən olan həmyerliləri Onu necə görməyə adət etmişdilər? O onlar üçün

- ✓ Tərki-dünya
- ✓ Xəyalpərəst
- ✓ Müqəddəs rahib
- ✓ Zəhmətkeş bir insan idimi?

Verilən bu parçadan İsanın bacı və qardaşları haqqında deyilən yerləri qeyd et (Eyni zamanda paralel olaraq Mattanın Müjdəsi 13:53-83-də qeyd et). Onların İsadan yaşca kiçik olduğunu söyləmək olarmı? Verilən bu parçada onların İsadan kiçik olmasını və əvvəlki kimi Nazaretdə evlərində yaşamasını təsdiqləyən daha bir söz varmı?

## 8. Ağdərili İsa

İrqi cəhətdən üstünlük haqqında uydurma

/Lövhə üzərindəki yazı: yalnız ağdərililər üçün/.

Amerikalıların və avropalıların böyük əksəriyyəti Nazaretli İsanı Çarlton Hestona və ya Uilyam Defoya bənzər təsəvvür edirlər. Şabalıdı saçlı və qonur gözlü yaraşıqlı kimi…

Ən əsası isə əlbəttə ki, ağdərili olmaqla… Şərq üslublu. Bəlkə də bir az gündən qaralıb, amma ağdərili olması lap yəqindir. Bu cür «ağ» növlərə Kaliforniyada, yaxud Minneapolisdə və yaxud da Pioriidə (İllinoys ştatı) rast gəlmək mümkündür.

Lakin bu, uydurmadır. Bu uydurmanı yaymaqdan ötrü bir çox insanlar və hərəkatlar sıx birləşmişlər. Ku-kluks-klan ağdərili protestantların qaradərili və yəhudilər, ümumiyyətlə, digərləri üzərində üstünlüyə malik olduğunu təlqin edir. Onlardan bəziləri lovğalanır ki, İsa onların tərəfindədir, çünki O da onlar kimi ağdərili olub.

Hitler nasist hərəkatı yenicə yarandığı vaxtlar xalqı yəhudilərə qarşı qaldırmaqdan ötrü İsanın ölümündən əsas arqument kimi istifadə edirdi. Nasistlərin «Müjdəsi» ağ arilərin başqalarının üzərində üstünlük təşkil etmələrinin səbəblərini təfsilatı ilə izah edirdi. Əlbəttə, onlar da özlüyündə İsanın onlar tərəfində olmasını təsəvvür edirdilər. Axı sonunda O da «ağ» olmuşdu, elə deyilmi?

Səlib (Xaç) yürüşləri. İnkvizisiya. Çar Rusiyası dövründəki qırğınlar. Əsirlərin yeni dünyaya gətirilməsi. İrqi üstünlüklər haqqında əsatirlər tarixdə bir çox iyrənc cinayətlərin və vəhşiliklərin səbəbinə çevrilmişdi.

İrqi üstünlüklər haqqındakı uydurmalar bu gün də mövcuddur. İnsanlar əvvəlki tək İsanı ingilis-sakson cizgililərin xilaskarı kimi təsəvvür edirlər. Onlar Onu zərif çəhrayı rəngli dəridə təsvir edirlər. Onlar İsanın zahiri görünüşünü, üstünlük dərəcəsini və avro-amerika təsəvvürlərini təlqin edən ənənələrini Onunla əlaqələndirirlər. Lakin İsa ağdərili və orta təbəqəyə mənsub deyildi.

Ehtimallara görə, orta Amerika və avropalılara nisbətdə İsanın dərisinin rəngi daha tünd idi. O, yəhudi kimi doğuldu, yəhudi kimi yaşadı və ömrünün sonuna kimi yəhudi kimi də qaldı. Bütün Orta Şərq xalqlarının nümayəndələri kimi, Onun qarabuğdayı dərisi bəlkə də Pilatın və ağdərili romalıların qarşısında dayananda daha da qaralmış görsənirdi.

Baxmayaraq ki, İsa dünyamıza müəyyən olunmuş yerdə, müəyyən olunmuş vaxtda gəlmişdi və müəyyən olunmuş irqi əlamətlərə sahib idi, (amerikalıların irqi xüsusiyyətləri Hollivud filmlərində göstərilməsi qəbul edilənlərdən daha çox fərqlənir) O, sözün əsl mənasında irqi hüdudlardan yüksəkdə dururdu.

O, yəhudi idi, lakin eyni zamanda samariyalı qadınla sərbəst və çox hörmətlə danışırdı.

Adət ənənələr yəhudilərə başqa dindən olanların evlərinə getməyi qadağan edirdi. Bununla belə, romalı yüzbaşı gəlib ağır vəziyyətdə evində xəstə yatan quluna şəfa verməsi üçün İsaya yalvaranda, O, «Mən gəlib onu sağaldaram» dedi (Matta 8:7).

Qızını sağaltmasından ötrü İsaya yalvararaq Onun arxasınca düşən qadına (hələ qədim vaxtlardan kənanlılarla yəhudilər düşmən idilər) O, bu qadının nə qədər böyük imana malik olmasını demiş və onun qızını sağaltmışdı.

İsa Özü də irqi ayrı-seçkiliyin qurbanı olurdu. Bir dəfə Onun yolu samariyalıların kəndlərindən keçməli idi, lakin samariyalılar israilli olduğunu bilib Onu qəbul etməmişdilər.

İsanın insan kimi düşdüyü cəmiyyətdə insanlar üç əsas əlamətə görə fərqləndirilirdilər. Onların hüquqları, imtiyazları və vəziyyətləri milli xüsusiyyətləri (yəhudi və ya qeyri-yəhudi olması ilə), təbəqələri (qul və ya azad insan) və cinsi xüsusiyyətləri ilə müəyyənləşdirilirdi. Lakin buna baxmayaraq, İsa keçmişin mənfi rəyləri ilə radikal uyğunsuzluğu göstərən Xoş Müjdə xəbərini gətirdi. Paul bu fikri

aydın şifahi formada ifadə edərək yazırdı: «Siz hamınız Məsih İsaya olan iman vasitəsilə Allahın övladlarısınız. Çünki vəftizdə Məsihlə birləşən hamınız Məsihə bürünmüsünüz. Artıq Yəhudi ilə Yunan, qulla azad, kişi ilə qadın arasında fərq yoxdur. Çünki hamınız Məsih İsada hamınız birsiniz» (Qalatiyalılara 3:26-28).

İsanın ardıcılları dərisinin rənginə və ya hansısa fiziki əlamətində olan oxşarlığa görə deyil, insanları onların cinsindən, mövqeyindən, irqindən asılı olmayaraq qəbul edərək sevməkdə Onun kimi olmalıdırlar.

Bu gün bizim üçün doğulan Körpəni —
Ağ oğlan ağ görür.
İsanı zanbaq kimi,
Qardan da ağ görür.

Məryəmin oğlu balaca Məsihi,
Qara oğlan qara görür.
Dünyanı göz yaşlarından
Xilas edəni qara görür.

Dar və tüstü kimi tünd gözləri ilə,
Sarı oğlan İsanı sarı görür.
Duada qarşısında əyilərək
Sarı oğlan İsanı sarı görür.

Göylərdən enmiş Xilaskarı,
Qırmızı oğlan qırmızı görür.
Müjdə xəbəri oxuyur mələklər,
İsanı qırmızı oğlan qırmızı görür.

Dünyanın müxtəlif rəngli uşaqlarına
Bu şəkil belə görünür:
Onlara oxşar sima — axurda yatan İsa
Onun təbəssümündə xoşbəxtlik, rahatlıq var.

Atanın məhəbbətini bizlərə Açan,
Bet-Lexemdə gecə doğulan Şəxsə
Məhəbbətlə ürəklərimizi gətirib
Problemlərdən azad ola

«Onu uşaqlar görür», sözləri Uaylı Hatson, musiqisi Alfred Bertanındır. TRO müəllif hüququ, 1954 (bərpa edilmişdi), 1957 (bərpa edilmişdi), Hollis Musik, İnc., New York, N. Y. Used bu permission

**Özün əmin ol**

İrqi üstünlük haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Müqəddəs Kitab ayələrindən verilmiş aşağıdakı sitatlar bu fəsildə xatırladılan Əhdi-Cədid ayələrinə və ya epizodlarına aiddir. Hər bir fəsli oxu. Bu yer üçün ayrılmış əsas fikri və bu fəslin kənarında Müqəddəs Kitaba uyğun sitatları qısaca yaz.

Luka 9:51-56

______________________________________________

Yəhya 4:1-26

______________________________________________

Qalatiyalılara 3:26-28

Matta 8:5-13

Matta 15:21-28

# Müqəddəs Kitab haqqında uydurmalar

## 9. Tək yeganə

Müqəddəs Kitabın sadəcə yeganə möhtəşəm kitab olması haqqında uydurma

/Şəkildəki kitabların adları: (yuxarıdan aşağıya, soldan sağa) İnsanın təkamülü, Humanizm, İslamın mahiyyəti, Astrologiya, Sintoizm, Keşiş inək (hindlərin stolüstü kitabı), Yunan əsatirləri, Numerologiya, Platon, Talmud, Həqiqi buddizm, Mormonların kitabı, Müqəddəs Kitab, Quran, Tövrat, Nostradamus, Marsda həyat varmı? Unitarların birliyi, Adi su kəməri işçisi deyil, Hindli necə olmaq olar? Psixologiya, İslam, Satanizm (şeytanpərəstlik), Sayentologiya.

Yəqin ki, siz bu sözləri eşitmisiniz. Bəlkə də bir neçə dəfə… Adətən insanlar ruhi xəstələrlə məhz bu cür danışırlar: «Siz müntəzəm olaraq Müqəddəs Kitab oxuyursunuz? Çox maraqlıdır».

Başqa bir vaxt isə kimsə çiyninizə vuraraq (adətən, onu bəyəndiyini bildirməkdən ötrü küçüyü belə vururlar) deyəcək: «Hə… Müqəddəs Kitab… Bu yaxşıdır. O, «İliada» və «Odissey»dən daha faydalıdır.

Əlbəttə, zaman keçdikcə siz kitab rəfində Müqəddəs Kitabın Sinodal tərcümə variantı üçün yer ayırması ilə öyünən professor və müəllimlərlə qarşılaşacaqsınız. Əslində isə bu, bir dəfə də ələ götürülməyən toz basmış nüsxədir. Lakin bununla belə, o, orada Platonun «Dövlət»i, Vergilinin «Eneida»sı və Şekspirin əsərlərinin tam külliyyatı ilə yanaşı durur. Bütün kitablar öz yerindədir və onların

arasında ədəbiyyatın «ən böyük» şah əsərlərindən biri olan Müqəddəs Kitab da var.

Bu uydurmadır.

Müqəddəs Kitab — şah əsərlərdən biri deyil. Belə bir kitab artıq mövcud deyil. O, yeganə, tək kitabdır. Əgər sizin ədəbiyyat müəlliminiz bu kitabı digər kitablarla birlikdə eyni rəfdə, eyni cərgədə yerləşdirmək istəyirsə, onda yaxşı olar ki, müəlliminizə Müqəddəs Kitab üçün yeni bir kitab şkafı almasını məsləhət edəsiniz. Bu kitabı şkafın ən yüksək rəfinə qoysun ki, o, orada tək və yeganə olaraq qalsın.

Müqəddəs Kitab nadir kitabdır.

Sidni Kollet özünün «Müqəddəs Kitab» haqqında hər şey» kitabında qırx iki il ərzində şərq ədəbiyyatını öyrədən professor Montiro-Uliyamsdan sitat gətirir. O demişdir: «Əlbəttə, əgər çox istəsəniz, bu kitabları stolunuzun sol küncünə qoya bilərsiniz. Amma sağ küncü Müqəddəs Kitabınız üçün saxlayın. Onu digərlərindən kənar bir yerdə saxlayın. Beləcə… Onu və Şərqin müqəddəs kitab adlandırdıqlarını digərlərindən heç bir kitaba xas olmayan çox böyük ziddiyyətlər ayırır».

Müqəddəs Kitab — ədəbi yaradıcılığın zirvəsidir. Bəzi kitablar həyatda baş verənləri yazır; Müqəddəs Kitabda baş verənləri yazmaqdan ötrü isə on altı əsr vaxt lazım olmuşdu. Bəzi kitablar alimlər qrupunun birgə zəhmətinin bəhrəsidir; Müqəddəs Kitab isə müxtəlif peşədən və təbəqədən olan 40-dan artıq müəllifin zəhmətinin bəhrəsidir. Onu şahlar, kəndlilər, filosoflar, balıqçılar, dövlət xadimləri və alimlər yazmışdır. Onu səhrada və yerin altında, saraylarda, təqib, hərb və sülh vaxtlarında yazmışlar.

Müqəddəs Kitab üç qitədə araya ərsəyə gəlmiş və üç dildə yazılmışdı. Onda yüzlərlə müxtəlif mövzudan bəhs edilir. Onda səmimi poetik sətirlər, tarixi hadisələrin təfərrüatları, sox maraqlı

tərcümeyi-hallar, məktublar, xatirələr və peyğəmbərliklər yer alıb. Bununla belə, müxtəlif kitabların ayrı-ayrı hissələrə parçalanmaması çox təəccüblüdür. Belə bir tamlıq birinci səhifədən sonuncuyadək eyni bir hadisənin inkişafı sayəsində əldə edilir. Bu, Allah tərəfindən insanın satınalınması prosesidir.

Bir dəfə yanıma «Qərbin böyük kitabları» başlığı altında silsilə kitab buraxan nəşriyyatın nümayəndəsi gəlmişdi. O, bu silsilədən olan kitabları satmaq üçün satıcı axtarırdı və onlar haqqında mənə danışmaqdan ötrü beş dəqiqə vaxt itirdi. O, qurtaran kimi mən ona düz yarım saat dünyanın ən böyük kitabı haqqında danışdım.

Mən ona kiçik bir tapşırıq verdim: bu silsilədən eyni təbəqəyə, nəslə, dövrə məxsus olan, eyni ölkədə yaşayıb yaradan, eyni dildə danışan, eyni xasiyyətə malik olan, böyük mübahisələrə səbəb olmuş oxşar mövzular yazan on müəllifin adını açıqlamasını istədim.

Sonra ondan soruşdum: «Bir məsələyə dair müəlliflərin baxışları üst-üstə düşərmi?»

Kişi bir qədər yubanmış halda «Xeyr!» dedi.

Belə olan halda, mən soruşdum: «Belə isə onların kitabı nəyə bənzəyərdi?»

Bu dəfə fikirləşmədən «Müxtəlif mətnlərin yığımına!» deyə cavab verdi.

İki gündən sonra bu insan öz həyatını Məsihlə birləşdirdi. Çünki o, Müqəddəs Kitabda yazılanları və onların unikallığını dərk etmişdi.

## Özün əmin ol

Müqəddəs Kitabın sadəcə yalnız möhtəşəm kitab olması haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün aşağıda göstərilən ayələri oxu. Bu ayələrdə Müqəddəs Kitab kitablarla deyil, hansısa əzəmətli bir qüvvə ilə müqayisə olunur. Hər ayəni diqqətlə oxu. Sonra

Müqəddəs Kitabı nə ilə müqayisə etmək mümkün odluğunu yaz. Belə bir müqayisənin hansı əsasla etmək mümkün olduğu haqda fikirləş. Bundan başqa, belə bir müqayisəni hansısa başqa bir kitabla etmək mümkün olduğunu qeyd et.

Yeremya 5:14

______________________________________________

Yeremya 23:29

______________________________________________

Romalılara 1:16

______________________________________________

Efeslilərə 6:17

______________________________________________

İbranilərə 4:12

______________________________________________

## 10. Müqəddəs Kitab və İsveç pendiri

Müqəddəs Kitabda nəzərdə tutulan sanki aydın olmayan və dumanlı yerlər haqqında uydurma

Bir çox insanlar fərqində olsalar da, olmasalar da Müqəddəs Kitaba İsveç pendiri kimi baxırlar: orada faydalı olan çox şey var, eyni zamanda «dəliklər» də az deyil.

«Əlbəttə, Müqəddəs Kitab faydalı və ruhlandırıcı kitabdır— deyə onlar qeyd edirlər. — Xüsusilə Zəbur 24 kimi məzmurları çox sevirəm. Onlar qeyri-adi dərəcədə gözəldirlər.

Lakin əgər onların Müqəddəs Kitaba münasibətləri bir qədər ciddi şəkildə soruşulsa, sonda onlar etiraf edəcəklər: «Sözsüz ki, Müqəddəs Kitabda hər şey o qədər də qüsursuz deyil. Mən orada səhvləri və buna bənzər olanları nəzərdə tuturam. Lakin bu, məni təşvişə salmır. Necə də olsa, onu tarix dərsliyi olmaq üçün yazmayıblar. İman və təlim məsələlərində isə qanunda olduğu kimi, dəqiqdir».

Bu uydurmadır.

Tez-tez buna bənzər bəyanat verənlər danışdıqları «səhvlər»dən uzaq təsəvvürlərə malik olurlar. Əslində isə Müqəddəs Kitabda heç bir «dəlik» yoxdur və O, səhvləri rəngbərəng etmir. Bu, qırxa yaxın müxtəlif müəllifin min altı yüz il ərzində fövqəladə vəziyyətdə yazdıqları Allahın ruhlandırıcı Sözüdür. O, mirzələrin ağır əməyi və alimlərin dəqiqliyi sayəsində fövqəladə halda bu günümüzədək qorunub saxlanmışdır. Əhdi-Ətiq və Əhdi-Cədid qədim zamanlardan bu günümüzədək gəlib çatan daha dəqiq və etibarlı sənəddir.

İsanın ardıcılları Onun Özünün Yazının dəqiqliyinə inanması faktına laqeyd yanaşa bilməzdilər. O demişdir: «Müqəddəs Yazılar pozula bilməz» (Yəhya 10:35). O, Yunusun başına gələnləri danılmaz fakt kimi qəbul edirdi. Hətta səhrada iblisə qarşı mübarizə aparanda, Yazıdan sitat gətirmişdi. İnsanları öyrətdiyi vaxt dəfələrlə Yazıya istinad edirdi. Bununla da O, həm elmə, həm də Əhdi–Ətiqdəki tarixi faktlara və hadisələrə dürüst yanaşmışdı.

Əhdi-Cədidi yazanların hamısı İsa kimi, bütün Yazının dürüstlüyünü təsdiqləyirdi. Həvari Paul deyirdi: «Bütün Müqəddəs Yazılar Allahdan ilham almış və təlim, təkzib, islah, salehlik tərbiyəsi üçün faydalıdır» (2Timoteyə 3:16). Digər həvarilər kimi o da Əhdi-Cədidin Allahdan ilham almasını etiraf edərək demişdir: «…qoy bilsin ki, sizə yazdıqlarım Rəbbin əmridir» (1Korinflilərə 14:37).

Həqiqətən, Müqəddəs Kitabda eyni bir hadisənin müxtəlif nöqteyi-nəzərdən təsvirinə rast gəlmək mümkündür. Belə ki, hekayədə baş

verənləri müxtəlif aksentlərdə və görünənlərin uyğunsuzluqda yerləşdirilməsi nəzərə alınır. Həqiqətən, mətnin orijinal dildən — yunan və yəhudi dilindən tərcüməsi çətin idi. Həqiqətən, küllü miqdarda düzgün olmayan Müqəddəs Kitab şərhləri var idi. Lakin bütün bunlara rəmən, XX əsrin məsihçiləri Müqəddəs Kitabı açanda, Allahdan ilham almış dürüst, dəqiqliklə qorunub saxlanılmış Allah Sözünü oxuyurlar. «Ot quruyar, çiçək solar, amma Allahımızın Sözü əbədi qalar» (Yeşaya 40:8).

**Özün əmin ol**

Müqəddəs Kitabın bütünlükdə «dəlik»lərdən ibarət olması haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Mattanın Müjdəsi 4-cü fəsildən 1-11-ci ayələri oxu. İsa iblisin aldadıcı nitqinə Yazıdan sitat gətirərək cavab verir. İsanın Müqəddəs Yazıdan sitat gətirdiyi yerləri müəyyənləşdir, sonra aşağıda ona istinad edərək yaz:

4-cü ayə

____________________________________________

7-ci ayə

____________________________________________

10-cu ayə

____________________________________________

Sonra oxu

Mattanın Müjdəsi 12-ci fəsildən 38-41-ci ayələr. Burada İsa Yunus Peyğəmbərin Kitabında yer alan və peyğəmbərlərdən birinin başına gələn əhvalata istinad edir.

Markın Müjdəsi 2-ci fəsildən 23-26-cı ayələr. Burada İsa Birinci Şamuel Kitabının 21-ci fəslinin 6 və 7-ci ayələrində təsvir edilmiş hadisəni xatırladır.

Yəhyanın Müjdəsi 3-cü fəsildən 14-cü və 15-ci ayələr. Burada İsa Saylar Kitabının 21-ci fəslində təfsilatı ilə verilən hadisəyə istinad edir.

İndi qərar ver: İsa bu insanların və ya hadisələrin mövcudluğunun həqiqiliyini şübhə altına alır, yoxsa ki, onları real fakt kimi qəbul edir. Bütün bunlardan özün üçün hansı nəticəni çıxarırsan?

## 11. Müqəddəs Kitab və xarab olmuş telefon oyunu

Müqəddəs Kitabın şübhə doğurması haqqında uydurma

/ Biri-digərinə deyir: Allah bizə yazmağı əmr etmişdir/

Xarab olmuş telefon oyunu oynamaq nəinki bir neçə illər ərzində məşhurlaşmış, eyni zamanda məlumat ötürülməsində dəqiqliyin nə qədər vacib rol oynadığını başa düşməyə kömək edir.

Xatırlayırsınızsa, bu oyunda dairə şəklində oturan bir qrup insan iştirak edir. Adamlardan biri yanındakının qulağına bir söz deyir. O biri bu sözü öz qonşusunun qulağına pıçıldayır və beləcə, söz onu birinci deyən adama çatana qədər dairə üzrə ötürülür.

Çox vaxt bu ifadə onu birinci deyənə qayıdana qədər o dərəcədə fərqlənir ki, nəticədə gülməli alınır. Məsələn, «Əgər idmanla məşğul

olmasan, şişman olarsan» ifadəsi, sonda «Şişman Stasın tortunu yedilər» kimi bir ifadə ilə nəticələnir.

Bir çoxları elə zənn edir ki, xarab olmuş telefon oyununun başlanğıc frazasında baş verənlər bizə gəlib çatan Müqəddəs Kitabla da baş verib. Onlar hesab edir ki, 2 cild arasında olan (çox vaxt adlar cildin üzərində qızıl hərflərlə həkk olunur) mətn, min il bundan əvvəl yazılandan o qədər uzaqdır ki, heç kim, heç olmazsa, bir az sağlam düşüncəli insan onun gerçəkliyinə inanmayacaq.

Bu uydurmadı.

İlk növbədə Əhdi-Ətiq böyük mükəmməlliklə yazılıb. Belə ki, o hazır olduğu vaxt artıq bütün manuskript (qədim əl yazısı) hərfbəhərf yazılıb qurtarmışdır. Əgər mirzələrdən biri səhv etsəydi, onda manuskript məhv edilirdi.

Bundan başqa, Müqəddəs Kitabı ivrit dilində yazan ibranilərin üzərinə ciddi öhdəliklərə əməl etmək məsuliyyəti qoyulmuşdu.

- Hər bir surət onun üçün təyin edilmiş və xüsusi üsulla hazırlanmış yeni səthdə edilməli idi;
- Hər bir surət müəyyən sayda sütunlardan ibarət olmalıdır. Hər sütunda da müəyyən sayda sətir və hər sətirdə eninə 30 hərf olmalıdır.
- Hər bir surət müəyyən rəngdə və keyfiyyətdə olan mürəkkəblə yerinə yetirilməlidir.
- Hər bir surət həqiqiliyi təsis olunan orijinaldan yerinə yetirilməli idi.
- Heç bir hərf yaddaşdan yazılmamalı idi. Hər bir hərf orijinaldan olduğu kimi, dəqiq yazılmalı idi.
- Heç bir hərf digəri ilə qarışmamalı, ya da onun içinə girməməlidir. Hərflər arasında tük və ya sap yoğunluğunda məsafə saxlanılmalı idi.

- Hər kitabda, hər səhifədə olan hərflər sayılmalı və onların sayı orijinalla eyni olmalı idi. Kitabda rast gəlinən hər hərifin sayı orijinalla hesablanmalı və yoxlanılmalıdır. Musanın beş kitabı və ivrit dilində yazılan Müqəddəs Kitabın bütün kitablarının mərkəzində dayanan sözün hərfləri sayılmalı və mətndə qeyd olunmalı idi. Əgər kiçik bir ziddiyyət hiss olunsaydı, surət yararsız hala salınardı.

Əhdi-Ətiqin üzü köçürülən zaman bu cür ciddi qaydalara riayət olunmalı idi. Əgər söhbət Əhdi-Cədiddən gedirsə, onda o, şübhəsiz ki, qədim dünyanın ən gerçək və dəqiq sənədidir.

Məktəbdə Platonun əsərlərini öyrənərkən müəllim onun «Dövlət» traktatının gerçəkliyinə dair öz şübhələrini büruzə veribmi?

Qədim dünya tarixi üzrə müəlliminiz Katullanın şerlərini və ya Qay Yuli Sezarın «Qal müharibəsi haqda qeydlər»ini ucadan oxuyarkən bu əsərlərin gerçəkliyinə dair hansısa şübhə olduğunu sizə deyibmi?

Müəllimləriniz yunan tarixçisi Fukididin, filosof Aristotelin, faciə müəllifi Sofoklun yaxud da Evripidin əsərlərini şübhə doğuran məqamlara, yaxud da fikir ayrılığı yaradan problemlərə səbəb olduğuna görə dərs proqramından çıxardıblarmı?

Çox güman ki, yox. Lakin onların arasında bir çoxları Müqəddəs Kitabı gerçək sənəd kimi qəbul etməyi mümkün saymırlar. Hərçənd ki, sadaladığımız kitabların heç biri Əhdi-Cədidin mətninin gerçəkliyi ilə müqayisəyə gəlməz.

İstənilən tarixi sənədin gerçəkliyini dəqiqləşdirmək üçün, adətən, iki əsas amil nəzərə alınır: mövcud olan manuskriptlərin sayı və orijinalın yazıldığı vaxtdan ilk surətin yazıldığı vaxta qədər keçən müddət.

Əgər siz Əhdi-Cədidi qədim dövrün kitabları ilə müqayisə etsəniz, onda onun gerçəkliyi dərhal aydınlaşar.

| MÜƏLLİF | YAZILMA TARİXİ | İLK SURƏTLƏR | NEÇƏ MÜDDƏT KEÇİB | SURƏT-LƏRİN SAYI |
|---|---|---|---|---|
| Sezar | b.e.ə. 100-44 il | b.e.ə. 900 il | 1000 il | 10 |
| Platon (tetralogiya) | b.e.ə. 427-347 il | b.e.ə. 900 il | 1200 il | 7 |
| Fukidid | b.e.ə 460-400 il | b.e.ə 900 il | 1300 il | 8 |
| Sofokl | b.e.ə 496-406 il | b.e.ə 1000 il | 1400 il | 100 |
| Katull | b.e.ə 54 il | b.ə.ə 1500 il | 1600 il | 3 |
| Evripid | b.e.ə 480-406 il | b.e.ə 1100 il | 1500 il | 9 |

İndi isə Əhdi-Cədidi bu antik müəlliflərin işləri ilə müqayisə edin:

| MÜƏLLİF | YAZILMA TARİXİ | İLK SURƏTLƏR | NEÇƏ MÜDDƏT KEÇİB | SURƏT-LƏRİN SAYI |
|---|---|---|---|---|
| Əhdi-Cədid | b.e.ə 40-100 il | b.e.ə. 125 il | 25 il | 24000 + |

Antik dövrün sənədlərindən heç birini Əhdi-Cədidlə yanaşı belə qoymaq olmaz. Gerçəkliyinə görə Onu yalnız Homerin «İliada»sı ilə yanaşı qoymaq olar. Belə ki, bu poemanın əlyazmasının 643 surəti qorunub saxlanılmışdır. Yazıldığı ilk vaxtdan ilk surətinin yazılmasına qədər isə 500 il keçmişdir.

Müqəddəs Kitaba inanmaq mümkündürmü? Antik dövrdən bu günümüzədək gəlib çıxan heç bir kitab gerçəklik baxımından Müqəddəs Kitabla müqayisə edilə bilməz.

**Özün əmin ol**

Müqəddəs Kitabın şübhə doğurması haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir. Buraxılmış ayələri Müqəddəs Kitabdan taparaq yerinə qoy.

«_______, Rəbb, Sözün əbədidir, göylərdədir və dəyişməzdir (Zəbur 119:89).

«Öyüdlərini lap əvvəldən öyrənirəm, ________deyə öyüdlərini verdin» (Zəbur 119:152).

«Ot ______, çiçək ______, amma Allahımızın Sözü _________» (Yeşaya 40:8).

«Çünki Sizə doğrusunu deyirəm: Göy və Yer keçib getmədən, hər şey icra olmadan, Qanundan Ən kiçik bir ___________və ya bir_________ belə yox olmayacaqdır» (Matta 5:18).

Bu ayələr Müqəddəs Kitabın gerçəkliyini təsdiqləyirmi? Əgər təsdiqləyirsə, onda necə?

## 12. Həqiqət, yoxsa ki, əfsanə

Müqəddəs Kitabın bütünlükdə əsatir və əfsanələrdən ibarət olması haqqında uydurma

/Milli Xəbərlər qəzetində/

**Bir nəfər üç gün qəbirdə keçirdikdən sonra dirildi.**

Dost-tanışı gördüklərinə inanmadılar.

**Böyük toy ziyafəti içki məclisi ilə qurtardı.**

Dülgər suyu şəraba çevirdi.

**Qalileyalı su üzərində gəzir.**

**Daxilində cin olan donuzlar suda boğuldular.**

Donuz saxlayan fermerlər bərk qəzəbləndilər.

Enni təhsil aldığı kollecdə Müqəddəs Kitabı ümumdünya oxunan kitabları siyahısına salınması təklifi üzərində dayananda, böyük bir emosiya fırtınasına səbəb olmuşdu.

«Yəqin, sən zarafat edirsən! — kimsə demişdi. — Müqəddəs Kitabın bura nə dəxli var?»

Başqa birisi isə demişdir: «Amma demə ki, Yunus və nəhəng balıq haqqında yazılan cəfəngiyatlara inanırsan? Yaxud da su üzərində gəzmə əhvalatlarına! Boşla görək, sən Allah, göydən yerə en!»

«Yaxşısı budur, sağlam əqidəyə etibar edək, — deyə digəri təsdiqlədi. — Əlbəttə, Müqəddəs Kitab yalnız və yalnız imanlılar üçün mühüm əhəmiyyət kəsb edir. Bu kitabda xeyli sayda qeyri-adi əsatir və əfsanələr var, bu həqiqətdir. Amma bunları ciddiyə almamı məndən istəmə».

Son vaxtlar bir çoxları məhz bu cür düşünməyə başlayıblar. Hətta bəzi bibliyaçılara görə Müqəddəs Kitaba dini folklorun və əfsanələrin külliyyatı kimi yanaşmaq daha məqsədəuyğundur. Başqa sözlə desək, onlar faktları uydurma kimi təqdim etməyə çalışırlar.

Düzdür, Müqəddəs Kitabda kifayət qədər qeyri-adi əhvalatlar var ki, onlar tarixi faktlardan daha çox bayağı mətbuatın sərlövhələrinə oxşayır.

İNSAN SUYUN ÜZƏRİ İLƏ İRƏLİLƏYİR.

OĞLAN BİR BAĞLAMA LANÇLA MİNLƏRLƏ İNSANI DOYUZDURDU.

BİR ƏL İŞARƏSİ İLƏ SU ŞƏRABA DÖNDÜ.

## QALİYELALI MÜƏLLİM ÖLÜLƏRDƏN DİRİLDİ.

Müqəddəs Kitabda təsvir edilən hadisələrin inanılmaz görünməsindən asılı olmayaraq, onları yazan insanlar bu hadisələrin əfsanə kimi deyil, fakt kimi qəbul ediləcəyini ehtimal ediblər.

Bundan başqa, Əhdi-Cədidi tərtib edən insanlar bu dərəcədə inanılmaz əhvalatlar yazmaqla həyatları ilə risk etmələri barədə özlərinə hesabat verirdilər.

Hansısa əfsanədən imtina etmədiyinə görə dustaqxanaya, hətta ölümə belə getməyə hazır olan çoxmu insan tanıyırsınız?

Bundan başqa, Əhdi-Cədidi yazanlar ölülərdən dirilən ravvin və ya beş min adamın beş çörək və iki balıqla doyuzdurulması haqqındakı əhvalatlarla digər şahidlərin iştirakı olmadan özləri üçün dəlixanaya yol açmış olurlar.

Məhz bu səbəbdən Həvari Paul hökmdar Aqrippa və Roma idarəçisi Festin qarşısında Müjdənin həqiqiliyini vəz edərkən şahidlərə istinad edirdi. Müqəddəs Kitabda yazıldığı kimi, Paul Məsihin dirilməsi haqqında danışan zaman:

…Fest bərkdən dedi: «Paul, dəlilik edirsən, çox oxumaqdan başın xarab olub». Paul isə dedi: «Hörmətli Fest, mən dəlilik etmirəm, həqiqəti və ağla batan sözləri danışıram. Padşahın bu barədə məlumatı olduğu üçün onunla cəsarətlə danışıram. Əminəm ki, olanların heç biri padşahın nəzərindən qaçmayıb. Çünki *bu işlər künc-bucaqda görülən işlər deyil*. Həvariləri işləri 26:24-26 (kursiv müəlliflərindi).

Əsatir, əfsanə və antik dövrün sirli imanına bürünmüş əhvalatların tam əksinə olaraq, Müqəddəs Kitabda yazılanlar «künc-bucaqda görülən işlər deyil». Böyük bir insan kütləsi bunların necə baş verdiyini görmüşdür. Etibar qazanmış insanlar hadisələrin həqiqiliyinə yazılı surətdə şahidlik edir və öz ifadələrini qanları ilə

təsdiqləyirdilər. Təkzib edilmək və etibardan salınmaq əvəzinə isə həmin sənədlər yoxlamaya tab gətirdi və gerçəkliyi etiraf etmiş oldu.

Həvari Peterin özü Müqəddəs Kitabda çoxlu əsatir və əfsanələrin olması haqqında uydurmanın mövcudluğuna qarşı çıxaraq yazırdı ki «Çünki biz hiyləgərcəsinə uydurulmuş nağıllara uymadıq, ancaq Rəbbimiz İsa Məsihin ehtişamının şahidləri olaraq, sizə Onun qüdrətini və zühurunu bildirdik» (2 Peter 1:16).

## Özün əmin ol

Müqəddəs Kitabın bütünlüklə əsatir və əfsanələrdən ibarət olması haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Lukanın Müjdəsi 1-ci fəsildən 1-3-cü ayələri oxu. Bu sətirləri kim yazıb? «Bizim aramızda məşhur olan» hadisələri müəllifə kim danışıb? Müəllif Teofil üçün bu hadisələri nağıl etməzdən qabaq nə etmişdir?

Yəhyanın Birinci Məktubunun 1-ci fəslindən 3-cü ayəni oxuyun. Bu sözləri kim yazır? O, baş verən hadisələrə şəxsən şahidlik etdiyini israr edirmi? Şəxsən gördüklərini və eşitdiklərini hansı məqsədlə danışırdı?

Həvarilərin İşləri kitabının 2-ci fəslindən 22-ci ayəni oxu. Bu sözləri kim deyir? Bu sözlər kimə ünvanlanmışdır? «Özünüz bildiyiniz kimi» nə deməkdir?

Yəhyanın Müjdəsinin 19-cu fəslindən 35-ci ayəni oxu. Bu ayənin müəllifi kimdir? O, yazdıqlarının şahidi olubmu? O, sözlərinin uydurma kimi qiymətləndirilməsini istərdimi? «İnandığınızdan ötrü» sətrinə fikir verin.

Əhdi-Cədidi yazan insanların şəhadətçilikləri haqqında dua edərkən bir qədər fikirləş. Müjdəçi Yəhyanın istədiyi kimi, bu şəhadətlərə inandığın barədə qərar qəbul et.

## 13. Həkim Luka və haradan götürüldüyü məlum olmayan «Politarx» sözü

Səhvsiz arxeologiya haqqında uydurma

/Daşın üzərində yazılmışdı: bizim eranın 27-ci ilində burada bir tülkücüyə olmuşdur. Kitabın üstündə yazılıb: Lukanın Müjdəsi»/

Şişman bədənli bir kişi pillələrlə Beyker Strit №221-B ünvanında yerləşən mənzilə qalxdı. Sonra onu böyük xəfiyyənin oturduğu otağa dəvət etdilər.

«Axır ki, sizi gördüm, həkim. Sabahınız xeyir! — kreslonun söykənəcəyinə əyilmiş halda xəfiyyə dilləndi. — Deyəsən, neçə gündür, yuxusuz gecələr keçirirsiniz».

«Təəssüf ki, siz haqlısınız. Dayanın görüm, bunu haradan bildiniz? Necə bildiniz ki, mən həkiməm?»

«Çox sadə. Bildiyimə görə, siz yazıçısınız və uzaqdan gəlmisiniz. Lakin əslində bunların heç bir əhəmiyyəti yoxdur. Yaxşısı budur, sizi narahat edənlərdən danışın».

Gələn adam güc-bəla ilə həyəcanını boğaraq sözə başladı:

«Mənim adım Lukadır, həkiməm — deyə o özünü təqdim etdi. — Bundan başqa, mənim dövrümdə baş verən hadisələrdən bəhs edən iki bestseller kitabın müəllifiyəm. Daha dəqiq desəm, Məsih dövrünün ilk əsrində…».

Xəfiyyə Şerlok Holms barmaqlarının ucunu bir-birinə yaxınlaşdıraraq özünü diqqətlə qulaq asmağa hazırlaşdırdı.

«Son vaxtlar, — həkim Luka öz hekayəsini davam etdirdi, — mənim nüfuzum şiddətə məruz qalmışdı. Mənim bacarığım və savadım sual altına düşmüşdü.

Başa düşürsünüz, mən Həvarilərin İşləri Kitabında Konya şəhərinin Likaoniya adlanan əyalətə daxil olmadığını göstərmişəm. Bəzi arxeoloqlar hansısa başqa sənədlərə əsaslanaraq belə bir nəticəyə gəliblər ki, Konya Likaoniya şəhəri olmuşdur. Belə bir əsasla da onlar mənim kitabımı etibarsız mənbə elan ediblər».

«Bu, hələ hamısı deyil, — deyə Luka Holmsın onu tez inciyən biri zənn edəcəyindən ehtiyatlanaraq tələsik halda davam etdi, — mən müjdəmdə b.e.ə. 27-ci ildə vəftizçi Yəhyanın xidmətinin başlanğıcı haqda məlumat verərək, Abileniyada dördüncü hakimiyyət olan Lisaniya adlı adamı xatırlatmışdım. Lakin məni faktları təhrif etməkdə günahlandırırlar. Belə ki, arxeoloqlara b.e.ə. 36-cı ildə öldürülən Lisaniya adlı bir nəfər məlumdur. Bundan başqa, mən Paulun Korinfdəki xidmətini nağıl edən Qalliyonu «vali» adlandırmışam. Özlərini alim adlandıran bu adamlar dedilər ki, mən yazdıqlarımın mahiyyətini dərk etmirəm. Çünki Qalliyo kimi mövqedə olan adam «vali» adlandırılmır.

Lakin bu «alimlər»in mənə qarşı səsləndirdikləri ittihamlar onunla nəticələnir ki, mən Salonik şəhərinin rəislərini yunan dilində «politarxlar» adlandırmışam. Bildiyiniz kimi, bu sözə heç bir klassik əsərlərdə rast gəlinmir. Arxeoloqlar və tənqidçilər isə buna əsaslanaraq: Luka səhv edib, bu isə o deməkdir ki, onun yazdıqlarına və buna bənzər şeylərə inanmaq lazım deyil» deməklə buna işarə edirlər. Məni nüfuzdan salmaq üçün istifadə etdikləri bir neçə xırdalıqlar da var.

Həkim Luka sözünü bitirəndə, Holms gözləri yumulu halda rahatlıqla nəfəs alırdı. Nəhayət, gözlərini açıb, hər şeyin ona aydın olduğunu bildirmək üçün ayağa qalxdı.

«Üzr istəyirəm, həkim, mən heç cürə sizə kömək edə bilməyəcəm, — deyə dilləndi».

Həkim ayağa qalxıb, sakitcə məşhur xəfiyyəyə baxdı.

«Sizi düzmü başa düşdüm, — deyə Holms soruşdu, — siz yazdığınız faktların həqiqiliyinə əminsinizmi?»

«Yüz faiz! –Həkim Luka çiyinlərin dartıb cavab verdi.— Axı mən tarixçiyəm.

«Onda sizə yalnız gözləmək qalır — məşhur tarixçini qapıya ötürə-ötürə Holms dedi. Elə bir gün gələcək ki, sizin tərəfinizdən yazılan dəqiq şəhadətlərin hamısı öz təsdiqini tapacaq. Ancaq indi isə, — gələn adamın arxasınca qapını bağlamamışdan öncə dedi, — mənim sevimli həkimim, sizə gözləməkdən başqa bir şey qalmır. Lakin əmin olun ki, bütün məlumatlar təsdiqlənəndə, hər şey öz yerini tutacaq.»

Bizim eranın birinci əsrinin tarixçisi ilə uydurma xəfiyyə arasında belə bir dialoq heç vaxt olmamışdı. Lakin buna qədər Lukanın danışdıqlarının hamısı doğru idi. Ötən müddət ərzində ona qara yaxmaq üçün çoxlu cəhdlər olmuşdur. Hərçənd, belə bir görüş baş vermiş olsaydı, onda bizim hekayəmizdə Şerlok Holmsın həkim Lukaya sonda verdiyi məsləhət yüz faiz həqiqətə çevrilərdi.

Baxmayaraq ki, alimlər və arxeoloqlar durmadan müjdəçi Lukanı diqqətsizlikdə və faktların yanlışlığında ittiham edirlər, həmin arxeologiya dəfələrlə onun yazdığını təsdiqləmişdi.

Müasir arxeologiya elminin Müqəddəs Kitabın bir neçə yerində səhv olmasını «isbat etməsi» bəziləri tərəfindən rəğbətlə qarşılanır. Amma əslində belə deyil. Məsələn, müjdəçinin Şerloka etdiyi ilk şikayətə diqqət yetirək. Onun bildirdiyinə görə alimlər onu Konya şəhərinin yerləşdiyi vilayəti düzgün göstərməməkdə ittiham edirdilər.

1910-cu ildə arxeoloq Uilyam Remsey Konyanın Frigiya şəhəri olduğunu isbatlayan abidə tapmışdı. Daha sonralar verilən açıqlamalar da Lukanın göstərdiyi dəlillərin gerçəkliyini təsdiqləyirdi. Dəməşq şəhəri yaxınlığında aşkarlanan arxeoloji tapıntı «Lisaniyanın dörd hakimiyyətliliyini» sübut etdi. Onun tarixi b.e.ə. 14-29-cu illərə aid edilir. Beləliklə də Lukanın sözləri təsdiqlənmiş olur.

Onun Qalliyo haqqında xatırlatmalarına gəldikdə isə aşkar edilən bir kitabədə yazılan «Mənim dostum, Axayya valisi Lusiy Yuniy Qalliyo» ifadəsi ilə təsdiqini tapmışdır.

«Politarx» sözünün haradan götürüldüyü məlum olmadığına görə, Lukanın məlumatsızlıqda günahlandırılması məsələsi də öz həllini tapdı. Bu yaxınlarda aparılan qazıntı işləri zamanı bu qədim yunan tituluna təsadüf edilən bir düjünə yaxın əlyazma tapılıb.

Arxeologiya Müqəddəs Kitabda göstərilən faktları nəinki köhnəldiyinə görə, həm də bunun növbəti əsatir olduğuna görə təkzib edir. Arxeoloq Uilyam F. Olbraytın dediyi kimi:

Müqəddəs Kitaba münasibətdə həddindən artıq tənqidi yanaşan və XVIII-XIX əsrlərdə fəaliyyət göstərən nüfuzlu tarix məktəbləri tədricən etibardan düşməyə başladı (bu məktəblərdə formalaşan ideyalar bu günədək vaxtaşırı üzə çıxmaqdadır). Günbəgün alınan yeni açıqlamalar Müqəddəs Kitabın bəhs etdiyi hadisələrin dəqiqliyini saysız-hesabsız faktlarla təsdiqlədi. Bu faktlar Müqəddəs Kitaba dəyərli bir tarixi mənbə kimi istinad etməyə əsas verir.

Qısası, Şerlok Holms düzgün məsləhət vermişdir.

## Özün əmin ol

Arxeologiyanın səhv etməməsi haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün Müqəddəs Kitabdan verilən yerləri oxu. Vaxtilə

Müqəddəs Kitabda adları verilən və nəhayət, arxeoloji tapıntılarla təsdiqini tapan həmin adamların buraxılmış adlarını qeyd edin.

Daniel 5:30. Son tədqiqatlar nəticəsində müəyyənləşdi ki, Nəbu-Nəiddin oğlu ________, atası ilə hakimiyyəti şərikli idarə etmişdi, halbuki bir vaxtlar bu fakt ciddi səhv kimi güman edilirdi (Gil lövhəcikləri üzərindəki yazılara əsasən, Nəbu-Nəid Babilin son hökmdarı hesab olunurdu).

Romalılara 16:23. 1929-cu ildə aparılan qazıntı işləri Korinf cəmiyyətində ictimai idarəetmədə bu adda ________ adamın olduğunu təsdiqləyir.

Matta 27:1-2. 1961-ci ildə Aralıq dənizinin Qeysəriyyə limanında aşkarlanan tapıntı bütün dünyaya — ____________ işarə edən 2x3 ölçüsündə əlyazma təqdim etdi.

## 14. Həqiqi peyğəmbərlik, yaxud gözlənilməyən növbəti təsadüflər?

Müqəddəs Kitab peyğəmbərliklərinin sadəcə bir təsadüf olması haqqında uydurma

Natan sürətlə mətbəxə qaçdı və az qala anasının ayağını sındıracaqdı.

«Natan! — deyə anası narazılıqla onu saxladı.

«Üzr istəyirəm, ana, — dedi, — lakin sənə təcili Toddun verdiyi kitabı görmək lazımdır». O, bir qalaq dərsliyi masanın üstünə tökdü və onun içindən birini götürdü. «Burada gələcəyə dair nə qədər istəsən

xəbər var. Bu kitab Nostril… yaxud necədir onun adı… qocanın gələcəyə dair yazdıqlarından bəhs edir».

«Nostradamusmu demək istəyirsən?»

«Elədir ki, var, — deyə Natan cavab verdi. — Sən artıq onun haqqında eşitmisən?»

«Necə deyim…»

«Onun yazdıqları doğrudanmı çox təəccüblüdür? O, bir çox hadisələr — Hitler və İkinci Dünya Müharibəsi, Kennedinin ölümü haqqında əvvəlcədən məlumat verib Todd deyir ki, kitabda Em Si Hammer barəsində də nələrsə var.

«Elə bu cür də dedi?»

Natan susaraq şübhə ilə anasının üzünə baxdı.

«Yaxşı görək, ana. Nə olub ki? Mən bu baxışların mənasını yaxşı anlayıram».

«Heç elə-belə. Sadəcə mənə maraqlıdır, onun «peyğəmbərliyini» sən özün tapmısan? Demək istəyirəm ki, onları özün tapdın, yoxsa ki, kimsə sənə göstərib? Ümumiyyətlə, onlara necə rast gəldin?»

«Əlbəttə ki, onları mənə Todd göstərib».

«Bəs onlar sənə nəsə qeyri-müəyyən görünmür ki? Belə ki, bir çox hadisələrə uyğun gəlsə də, onları müxtəlif cür izah etmək mümkündür?»

Natan fikirli halda çiyinlərini çəkdi: «Belə də ola bilər».

«Mənə qəribə gələn odur ki, Nostradamus kimi şübhə doğuran bir peyğəmbər bu qədər insanı cəlb edə bilir. Halbuki Müqəddəs Kitabda Allah tərəfindən ilhamlanmış və dəqiqliklə icra olunmuş peyğəmbərliklərə insanlar bu qədər laqeyd yanaşırlar».

Natanı maraq bürüdü. O, Nostradamusun kitabını bir kənara qoyub soruşdu: «Məsələn?»

«Məsələn? — anası suala sualla cavab verdi. — Sən məni təəccübləndirirsən, Natan. Məsələn, İsa Bet-Lexemdə doğulacaq.

Bunu Mikeya peyğəmbər əvvəlcədən xəbər vermişdi. Zəkəriyyə peyğəmbər isə demişdir ki, Məsih Yerusəlimə əzəmətli atın yox, eşşəyin üstündə gələcəkdir».

«Doğrudan? — Natan dilləndi. — O, İsanın ələ veriləcəyini də qabaqcadan xəbər vermişdi? Bu da belədir?»

«Elədir ki, var. Başqasına 30 gümüşə satılacaq. Onun əllərini və ayaqlarını deşəcəklər, amma heç bir sümüyü sınmayacaq. Görürsən, Natan, o, hər şeyi qabaqcadan xırdalığına kimi xəbər vermişdi. Bu, adi ümumi sözlər və qeyri-müəyyən eyhamlar deyildi. Yüz faiz dəqiqliklə yerinə yetirilən müəyyən edilmiş və gələcəkdən verilən xəbərlərdir. Biz ancaq Məsihin həyatı ilə bağlı olan peyğəmbərlikləri xatırladıq. Eyni şeyləri Müqəddəs Kitabda təsvir edilən şəhər və xalqların aqibəti haqqında edilən peyğəmbərliklər barəsində də demək olar».

«Bütün bunlardan sonra Nostradamusun gələcək haqqında verdiyi xəbərlər öz əhəmiyyətini itirir, — deyə Natan söhbətə yekun vurdu.

«Suda batmış adama oxşayır, — deyə anası təbəssümlə cavab verdi.

Natanın anası haqlı idi. Müqəddəs Kitabdakı peyğəmbərliklər yəhudi və məsihçilərin Müqəddəs Yazılarının gerçəkliyini və nadirliyini əsaslı şəkildə təsdiqləyir.

Hətta Məsihlə əlaqədar ən sadə peyğəmbərlik haqqındakı xəbərdarlıq belə Müqəddəs Kitabın qabaqcadan hasil olmuş fikrə yanlış olaraq əsaslanan oxucularını Onun həqiqiliyinə inandırmış olmalıdır.

Lakin zəngin təsəvvürə malik bəzi adamlar elə zənn edirlər ki, Müqəddəs Kitabın gələcək haqqında xəbərlərinin yerinə yetməsi təsadüflərdir. Başqaları isə deyəcək ki, «bu peyğəmbərliklərdən bəziləri prezident Kennedinin və ya Martin Lyuter Kinqin taleyinə uyğun gəlir».

Elə bir insan tapmaq olarmı ki, Müqəddəs Kitabda Məsih haqqında edilən qırx səkkiz əsas peyğəmbərliyin hamısı onun həyatında baş vermiş olsun? Belə birini axtarmağa dəyməz. Çünki belə bir adam yoxdur.

Piter Stounin «Elmi yanaşma» əsrində yazdığı kimi, bu hadisələrin təsadüf olma mümkünlüyü 157 mərhələdə 1:10 kimidir. Bu qədər böyük rəqəmi və ya bu qədər kiçik ehtimalı təsəvvür etmək belə çətindir.

Bu cür astronomik uyğunsuzluqlar Müqəddəs Kitab peyğəmbərliklərinin adi bir təsadüf olmadığını aydın şəkildə təsdiqləyir. Həvari Paul demişdir: «çünki peyğəmbərlik heç vaxt insan iradəsi ilə gəlməmişdi. Lakin Allahın müqəddəs insanları Müqəddəs Ruh tərəfindən hərəkətə gətirilərək danışırdılar» (2Peter 1:21).

**Özün əmin ol**

Şübhələr haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti suala cavab ver. Aşağıda verilən Müqəddəs Kitab peyğəmbərliklərini onları söyləyən peyğəmbərlərlə, ya da ki, onların daxil olduğu kitablarla əlaqələndirmək olar.

Peyğəmbərlərin və Kitabların adları bunlardır.

A. Yaradılış

B. Zəbur

C. Yeşaya

Ç. Yeremya

D. Mikeya

E. Zəkəriyyə

Yerinə yetən Müqəddəs Kitab peyğəmbərlikləri:

1. İsa bakirədən doğulacaq (Matta 1:18-25).
2. Yəhudi qəbiləsindən (Luka 3:23, 33).
3. O, Yessey nəslindən olacaq (Luka 3:32).
4. Davudun nəslindən (Luka 3:31).
5. O, Bet-Lexemdə doğulacaq (Matta 2:1).
6. Ondan əvvəl müjdəçi gələcək (Matta 3:1, 2).
7. O, Yerusəlimə sıpanın belində girəcək (Luka 19:35-37).
8. Sonra isə Onu dostu ələ verəcək (Matta 26:48-50).
9. Otuz gümüş pula (Matta 26:15).
10. O Onu ittiham edənlərin qarşısında susacaq (Matta 27:12).
11. Onun əllərini və ayaqlarını mıxlayacaqlar (Luka 23:33; Yəhya 20:25).
12. O, üsyankarlara tay tutulacaq (Matta 27:38).
13. Üsyankarlardan ötrü yalvaracaq (Luka 23:34).
14. Onun paltarlarını bölüşdürəcəklər (Yəhya 19:23).
15. Onun haqqında püşk atılacaq (Yəhya 19:24).
16. Ona öd və sirkə verəcəklər (Matta 27:34).
17. Onun bir sümüyü də qırılmayacaq (Yəhya 19:34).
18. Lakin Onun bədəni deşiləcək (Yəhya 19:34).
19. Sonra isə O, zəngin adamın qəbrində dəfn olunacaq (Matta 27:57-60).
20. O diriləcək (Həvarilərin İşləri 2:31).

Cavablar:

1. C (Yeşaya 7:14)
2. A (Yaradılış 49:10)
3. C (Yeşaya 11:1)
4. Ç (Yeremya 23:5)

5. D (Mikeya 5:2)
6. C (Yeşaya 40:3)
7. E (Zəkəriyyə 9:9)
8. B (Zəbur 41:9)
9. E (Zəkəriyyə 11:12)
10. C (Yeşaya 53:7)
11. B (Zəbur 22:16)
12. C (Yeşaya 53:12)
13. C (Yeşaya 53:12)
14. B (Zəbur 22:18)
15. B (Zəbur 22:18)
16. B (Zəbur 69:21)
17. B (Zəbur 34:20)
18. E (Zəkəriyyə 12:10)
19. C (Yeşaya 53:9)
20. B (Zəbur 16:10)

# Dirilmə haqqında uydurmalar

## 15. Yalandan özünü ölülüyə vurmaq?

İsanın ölməməsi, özündən getməsi haqqında uydurma

Gənc yaşlarımda qarşıma belə bir məqsəd qoymuşdum ki, məsihçiliyin əsassızlığını, onda ciddi bir şeyin olmadığını isbat edim. Lakin çox sadə bir səbəb üzündən bunu isbatlamaq mənə müyəssər olmadı. Tarixdə yer alan bir faktı — İsanın dirilməsini təkzib edə bilmədim.

Dirilmə — məsihçilik təliminin əsasını təşkil edir. Maykl Qrin özünün «Canlı insan» əsərində qeyd etdiyi kimi «məsihçilikdə dirilmə qəbul edilməli olan ehkamlardan biri deyil. Dirilməsiz məsihçi imanının mövcudluğu mümkün belə olmazdı. Bunsuz isə Məsihçi imanlı cəmiyyəti öz mövcudluğunu başlaya bilməzdi. İsanın xidməti sayəsində meydana gələn hərəkat O, çarmıxa çəkiləndən sonra tüstü kimi yox olub gedərdi. Məsihçiliyin taleyi tamamilə İsanın ölüb dirilməsinə olan imandan asılıdır. Bu həqiqəti təkzib etməklə, məsihçiliyi məhv etmiş olursunuz.

Şübhəsiz, məhz bu səbəbdən bir çox insanlar dirilmə faktını tənqid etməyə çalışır və ya onu tamamilə inkar edirdilər.

1960-cı illərdə meydana çıxan Doktor Hyu Şonfildin «Pasxa sui-qəsdi» kitabı bir çox mübahisələrə səbəb olmuşdu. Böyük səs-küyə səbəb olan bu kitabda müəllif İsa Məsihin dirilməsini «izah edən» köhnə bir «bayılma» nəzəriyyəsini yenidən gündəmə gətirmişdi.

Bayılma nəzəriyyəsi bir neçə əsr bundan öncə Venturini adlı bir şəxsin sayəsində məşhur olub. Onun dediklərinə əsasən, İsa çarmıxda ölməyib. O, sadəcə olaraq, zəiflikdən və qan itkisindən huşunu itirib

(yaxud «Bayılıb»). Nəzəriyyənin qeyd etdiyi kimi, hamı onun öldüyünü zənn edib, amma əslində bir neçə vaxtdan sonra özünə gəlib. Şagirdləri də Onun ölülərdən dirildiyini zənn ediblər.

Şonfild bu nəzəriyyəni daha da inkişaf etdirərək belə bir nəticəyə gəlir ki, İsa Özü məhkəməni, həbsi və çarmıxı əvvəlcədən planlaşdırıbmış. Belə ki, Özünü daha asan ölülüyə vurmaq üçün uyuşturucu ilə bihuş edilməsini təşkil edibmiş. Beləliklə də döyülmədən, işgəncələrdən, aldığı zədələrdən, qan itkisindən sağalmaq Onun üçün rahat başa gələcəkdi.

Bütünlükdə bu bayılma nəzəriyyəsi başdan ayağa uydurmadır.

İsa ən ağır işgəncələrə tab gətirdi. Onu qurbanların bədənini tikələrə parçalayan dəhşətli işgəncə alətləri ilə qamçılayırdılar. Bəzən dustaqlar edam gününədək salamat qalmırdılar. Çünki belə qamçılanmaya tab gətirə bilmirdilər.

Bu cür amansız işgəncələrə tab gətirdikdən sonra İsa Öz yolunu edam yerindən başladı. Lakin Onun iztirabları o qədər dəhşətli idi ki, O Özü bunlara təkbaşına sinə gərə bilmədi. Müjdəçi Matta və Lukanın yazdıqlarına əsasən, İsa əldən düşdüyünə görə, Kirenalı Şimon çarmıxı daşımalı olmuşdu. Markın «Onu Qolqota deyilən yerə gətirdilər» (Matta 15:21) deməsi düşünməyə əsas verir ki, Onun artıq irəliləməyə gücü qalmamışdı.

Daha sonra İsa ölüm adlanan və təsvir edilməyən şeydən keçdi. Frederik Farrer kimi bəzi yazıçılar o anı öz sözləri ilə təsvir etməyə cəhd ediblər:

Çarmıxdakı ölüm özündə ağrı və ölüm daşıyan hər cür kədəri və dəhşəti birləşdirir. Baş gicəllənmə, qıcolma, yanğı, aclıq, yuxusuzluq, alınan xəsarətlərdən yaranan hərarət, donuxma, biabırçılıq və alçaldılma, ölçüyə gəlməyəcək dərəcədə əzab-əziyyət, qarşıdakı dəhşət, bədənin şikəst olmuş hissələrinin qıc olması— bütün bu məşəqqətlər elə bir həddə gəlib çatır ki, artıq ona tab gətirmək

dözülməz olur. Bütün bu əzab əziyyət o vaxta kimi davam edir ki, əzab çəkən insan huşunu itirmiş olur.

Bədənin anormal vəziyyəti ani hərəkəti belə ağrılı edir. Arası kəsilməyən əzablardan kəsilmiş damarlar və gərilmiş vətərlər vurur. İltihablanmış, heç nə ilə örtülməyən damarlar tədricən toxumaların keyləşməsinə gətirib çıxarır. Arteriyalar, xüsusilə başda və qarında olanlar qanla dolduğuna görə daha çox şişir. Yalnız təsəvvür edilməsi mümkün olan bu əzablar getdikcə artırılmağa başlayır. Bu əzabların üzərinə daha ağır yanğı və hərarət ağrısı artırılır. Bütün bu fiziki əzablar isə daxili həyəcanı və təlaşı artırmış olur.

Bu, intizarla gözlənilən və xoş təsir bağışlayan ölümə, insanın daha çox qorxduğu naməlum düşmənə gətirib çıxarır.

Bir neçə saat belə bir işgəncədən sonra İsanı çarmıxdan götürdülər. Yalnız Roma yüzbaşısı Nazaretli İsanın ölməsini yanılmadan Roma hakimiyyətinə elan edə bilərdi.

Belə zənn etsək ki, bu cür işgəncələrə tab gətirərək, Yəhudeya və Qalileyada beş yüzdən çox adamın qarşısında Özünü ölüm üzərində Qalib gələn və həyatın Hakimi kimi təqdim edən bir insanın əhvalatı tarixçiləri tarixi yenidən yazmağa vadar edər və sadə bir həqiqəti «…Müqəddəs Yazılara uyğun olaraq, Məsih günahlarımız üçün öldü, dəfn olundu və Müqəddəs Yazılara uyğun olaraq üçüncü gün dirildi» (1Korinflilərə 15:3, 4) inkar etmələrinə səbəb olardı.

### Özün əmin ol

Bayılma haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Yəhyanın Müjdəsi 19-cu fəsildən 30-35-ci ayələri oxu. Nə üçün əsgərlər İsanın baldırını qırmadılar? İsanın öldüyünü neçə Roma

əsgəri (ən azı) bildi? 35-ci ayədə söhbət kimdən gedir? Sizin inanmağınız üçün o, hansı həqiqətdən danışır?

Markın Müjdəsinin 15-ci fəslindən 42-47-ci ayələri oxu. Bu ayələrdə İsanın ölməsini görən neçə nəfərin adı çəkilir?

Mattanın Müjdəsinin 27-ci fəslindən 62-66-cı ayələri oxu. İsanın öldüyünə əmin olan baş kahin və fariseylər vardımı? 63-cü ayəyə diqqət yetir — onlar İsanın dirilmə haqqındakı vədini necə öyrəndilər? Ola bilərmi ki, Onu çarmıxdan diri halda endiriblər?

Yuxarıda oxuduğun neçə bədxah insan İsanın ölümünün şahidi olmuşdur (Onun ardınca gedənləri və dostlarını hesaba almadan)?

## 16. Gözbağlıca oyunu?

Qəbrin dəyişik salınması haqqında uydurma

/Göstəricidəki yazılar: «İsanın qəbri» «Boş qəbir». Plakat üzərindəki yazı: «O dirilib!»/

«Hə Lizzi … Mən sənə başımıza gələn dəhşətlərin hamısını danışacağam. Deməli, mən və bir də başqa bir Məryəm… daha kim idi görən… qoy yadıma salım görüm… Hə Salomiya… e... yadımdan çıxdı… indi yadıma salaram».

«Sən axır nəsə bir söz deyəcəksən, ya yox?» — deyə Elizabet onu tələsdirdi.

«Bir səbir elə… İndi hamısını bircə-bircə danışacağam. Gərək ardıcıllıqla danışam. Demək, gün çıxandan dərhal sonra qəbirə yollandıq. Düzdür, hələ hər yer qaranlıq idi. Özün bilirsən də, paltarının ətəyini tapdalamamaq, ya da hörümçək toruna ilişməmək üçün gərək diqqətlə ayağının altına baxasan».

Elizabet əsəbi halda gözlərini oynatdı.

«Hə… yaxşı görüm… — Məryəm dedi.— Dediyim kimi, qəbirə tərəf yollandıq, amma o boş idi. Lakin axşamtərəfi İsa orada idi. Başa düşürsən, Lizzi? Qəbir bombalamboş idi! Orada heç kim yox idi. Heç kim!»

Elizabet gözlərini rəfiqəsinə zilləyərək soruşdu: «Əminsən ki, qəbri səhv salmamısınız?»

«Buna əminəm, ya yox. Ay səni Lizzi. Heç bilirsənmi nə haqda soruşursan? Əminəm ki, qəbri dəyişik salmamışıq, ya yox? Nədir, zərrə qədər də olsun mənə inanmırsan? Axı mən orada tək deyildim, yanımda adamlar da vardı. Bir də ki, həm mən, həm də Məryəm axşamtərəfi orada olmuşduq. Əgər qəbri dəyişik salmış olsaq belə, məgər bizlərdən kimsə bunu başa düşmədi? Məgər sən bizi bu qədər axmaq hesab edirsən?

Hətta yolumuzu azmış olsaydıq belə, bəs onda mələk necə olsun? Mən sənə mələk haqqında hələ danışmamışam, axı. Elə deyilmi? Deməк, boş qəbirin içərisində şimşək tək şəfəq saçan bir mələk oturmuşdu. O bizə söylədi ki, qorxmayaq və İsanın dirilməsini bildirdi. Səncə, mələk də bizim kimi qəbri səhv salıbmış və İsanı qoyduğumuz yerə gəlməyibmiş?

«Heç də elə fikirləşmirəm… Sadəcə mən…»

«Eybi yox… Əgər sən məni bu qədər sadəlövh hesab edirsənsə, onda hesab et ki, Yəhya ilə Peter də məndən geri qalmayıblar. Çünki mən o andaca onların yanına qaçıb xəbər vermişdim. Onlar da məhz həmin boş qəbirə doğru qaçdılar. Mən isə güclə özümü onlara çatdırdım.

Bundan başqa, xanım sən əminmisən qəbiri dəyişik salmamısınız, Yerusəlimdə Romalıların möhürünün izləri olan çoxmu qəbir var?»

«Bəli. Mən şəxsən…»

«Yaxşı. Bəs baş kahin və mühafizəçilər barəsində nə deyə bilərsən? Onlar məgər İsanın hansı qəbirdə olduğunu bilmirdilər? Hətta biz o qəbirə getməmişiksə də, məgər onlardamı lazım olan yerə düz getməyiblər? Elə isə deməzdilər ki, «Aha! Biz sizi ifşa etdik. Cəsəd olduğu yerdədir» səncə, onlar bunu etməzdilər?»

Elizabet əllərini yelləyərək «Hə, yaxşı, bağışla məni. Belə axmaqlığı təsəvvür etmək heç mənim ağlıma belə gəlmirdi».

Təəssüf ki, Elizabet bu cür fərziyyələr edən yeganə insan deyil. Kirsopp Leyk hamıya İsanın cəsədinin itməsindən danışan qadınlar haqqında «onlar qəbri dəyişik salmışdılar» deyə bir nəzəriyyə işləyib hazırlamışdı. Lakin Məryəmi Elizabetə əminliklə bildirdiyi kimi, Baş kahinini saraydan, yaxud Yerusəlimdəki Roma məbədindən qəbirə qədər on beşdəqiqəlik gəzintisi dirilmə haqqında hər cür söz-söhbətə bir andaca son qoya bilərdi.

Lakin bu, əlbəttə ki, baş vermədi. Axı arvadların tapdığı qəbir, həqiqətən də, İsanın qəbri idi və o, boş idi.

**Özün əmin ol**

Qəbiri dəyişik salma haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Mattanın Müjdəsindən olan açıqlamanı oxu (27:57 — 28:15). Qəbrin yerləşdiyi yerin dəqiq olaraq kimin bilməli olduğunu göstər.

Matta 27:59, 60

__________________________________________________

Matta 27:61

____________ və ____________________________________

Matta 27:62-66

__________________________________________________

Matta 28:2-4,11

---

Yəhya İsanın dəfn olduğu yeri dəqiqliklə bilməli olan daha bir nəfərin adını xatırladır? (Yəhya 19:38-41). Bu adam kimdir?

Matta da, Mark da Luka da yazır ki, qadınlar İsanın necə dəfn olunduğunu görmüşdülər. Buna diqqət yetir (Matta 27:61, Mark 15:47, Luka 23:55). Nə üçün onların hər üçü bunu qeyd ediblər?

## 17. Gizlənqaç oyunu?

Cəsədin oğurlanması haqqında uydurma

Cəsədin oğurlanması haqqında uydurma elə ən birinci Müqəddəs Kitabda xatırladılır. Qəbri mühafizə edən bir neçə keşikçi dirilmədən sonra baş kahinin yanına gəlib baş verənləri danışırlar. Matta yazır:

Onlar ağsaqqallarla toplaşıb müşavirə keçirdikdən sonra, əsgərlərə çoxlu pul verib dedilər: «Deyərsiniz ki, şagirdləri gecə biz yatanda gəlib Onu oğurlayıblar. Əgər bu barədə xəbər valiyə gedib çatsa, biz onu inandırarıq, sizi də bəladan qurtararıq». Onlar da pulu alıb əmr edildiyi kimi etdilər; və bu söz bu günə kimi yəhudilər arasında yayılmışdı.

Matta 28:12-15

Əhdi-Cədidin özündə belə cəsədin oğurlanması haqqında uydurmanın mövcudluğuna baxmayaraq, insanların bəziləri bu gün də elə güman edirlər ki, şagirdlər İsanın cəsədi ilə gizlənqaç oynayaraq kiçik bir hoqqabazlıq ediblər.

Bu hadisəyə bir çox səbəblərdən inanmaq mümkün deyil. Məsələn, İsanı dəfn etdikdən sonra qəbrinin ağzına qoyulan daş insanların

gölün üzərinə atdığı və suyun üzərində asanlıqla sürüşən daşlardan xeyli fərqlənirdi.

Mətnin verdiyi və Corciya texniki kollecinin iki professorunun apardığı hesablamalara əsasən, daşın çevrəsi beş fut və iki ton ağırlığında idi. Qəbri hazırlayarkən, ola bilsin, bir qrup işçi daşı lazımi yerə dirək olaraq quraşdırmışdılar ki, müvəqqəti olaraq qəbrin girişinə aparan dərinliklərə yuvarlanmasın. İsanı dəfn etdikləri vaxt dirəyi götürdülər və cazibə qüvvəsi öz işini gördü: Daş diyirlənib qəbrin ağzını elə möhkəm bağladı ki, onu yalnız qolu qüvvəli bir qrup kişi çox böyük cəhdlə yerindən diyirlədə bilərdi. Məhz buna görə də pasxa səhəri sübh tezdən qəbirə yollanan qadınlar öz-özlərinə soruşmuşdular: «…qəbrin qapısındakı daşı bizim üçün kim yuvarlayacaq?...» (Mark 16:3)

Bundan əlavə, baş kahinlər İsanın cəsədinin oğurlanmasının qarşısını almağa çalışaraq Roma hökmdarı Pilatdan qəbirə keşikçilər göndərməsinə icazə almağa nail olmuşdular. Romalı keşikçilər dəstəsi on dörd və yaxud on altı nəfərdən ibarət olurdu. Hər keşikçi öz ətrafında altı futa yaxın bir ərazini qorumaq üçün təlim keçmişdi. On altı nəfər bir qayda olaraq, hər tərəfə dörd nəfər olmaqla kvadrat əmələ gətirirdilər. Onlar on altı yardlıq məsafədə böyük bir batalyonun hücumuna davam gətirməli idilər.

Gecə gəlib çatanda qorumalı olduqları şeyin qarşısında yerbəyer olurdular. Yerdə qalan on iki nəfər isə keşikçi obyektinin yanında başları dairənin mərkəzinə doğru yarımdairə yaradaraq uzanıb yata bilərdilər. Odur ki, qorunulan şeyi oğurlamaq üçün oğrular öncə yatanların yanından keçməli idilər (təbii ki, oyaq qalan dörd nəfərin gözü qarşısında). Hər dörd saatdan bir yatanlardan dörd nəfər yeni qüvvə ilə növbə çəkənləri əvəz edir, xidmətini yerinə yetirənlərsə, istirahət edirdilər. Onlar sutka ərzində beləcə bir-birilərini əvəz edirdilər.

Qeyd etməliyik ki, bu keşikçilər heç də nəzakətli ekskursiya rəhbərlərinə bənzəmirdilər. Onlar təhlükəli mübarizə üçün təyin edilmiş canlı maşınlar idi. T.C. Taker özünün «Roma dünyasında Neron və həvari Paulun həyatı» kitabında belə əsgərlərdən birinin təsvirini verir:

Onun sinəsini və çiyinlərini lay-lay, yaxud kiçik pulcuqlar yerləşdirilən dəmir və ya tunc təbəqələrlə örtülmüş enli dəri kəmər örtmüşdü. Başında yastı mühafizəedici dəmir dəbilqə var idi.

Sağ əlində məşhur Roma nizəsini saxlayırdı. Bu, taxta saplağa bərkidilmiş iti dəmir uclu, uzunluğu altı futdan çox olan möhkəm bir alətdir. Sıravi əsgər onu süngü kimi batıra, yaxud nizə kimi ata bilərdi. Bundan başqa onda yaxından döyüş üçün qılınc da var idi.

Sol əlində isə nəinki əldə aparıla bilən, həm də sağ çiynindəki kəmərdən asmaq üçün qalxan vardı. Əsgər qalxanla sərbəst davranmaq üçün üç fut uzunluğundakı qılıncını sağ çiyni üzərindən aşırdaraq kəmərindən asırdı. Əsgərin sol böyürdən isə xəncər asılmışdı. Cəsədin oğurlanması haqqında uydurmanı dəstəkləyənlər yəqin fikirləşirlər ki, bu hadisə yazılmamışdan bir gün öncə qorxaq dovşan kimi qaçan bir neçə şagird romalı əsgərlərlə döyüşdə bərkimiş, yaxşı silahlanmış dəstə ilə döyüşə girməyi qərara alıbmış. Onlar ya keşikçilərə qalib gəlmiş, ya da yatdıqları vaxt səssizcə yanlarından ötüb keçərək heç bir keşikçini oyatmadan yuxarıya meylli iki ton ağırlığında daşı yuvarlada bilmişdilər. Sonra isə şəklin tam olmasından ötrü şagirdlər İsanın cəsədini sürüyərək haradasa gizlətdilər və bu yalanı bütün dünyada yaymaqdan ötrü bir neçə onilliklər ərzində edilən istehzalara tab gətirdilər, işgəncələrə və əzab əziyyətlərə dözdülər. Axı onlar bilirdilər ki, bu, bütün dünya üçün yalan olardı.

Bütün bunlara inanmaq isə çox çətindir. Hüquq üzrə ixtisaslaşan və uzun müddət şəhadətçilik şahidliyini təkzib etmək haqqında

mühazirə oxuyan, şəhadətçinin doğru və ya yalan danışdığını müəyyən edən Harvard Universitetinin professoru Saymon Qrinlifin dediyi kimi «Onlar bu fakta bu qədər əmin olmasaydılar heç vaxt həqiqəti söylədiklərini və İsanın ölülərdən dirilməsini bu qədər israr edə bilməzdilər».

Bu gün həqiqəti axtaran hər bir şəxs ilk məsihçilər kimi əmin ola bilərlər ki, məsihçi imanı hansısa əsatir və əfsanələrlə yox, qəbrin boş olması və Məsihin dirilməsi möhkəm tarixi faktlarla əsaslandırılıb.

**Özün əmin ol**

İsanın cəsədinin oğurlanması haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir:

Korinflilərə 1-ci məktubun 15-ci fəslindən 1-8-ci ayələri oxu. Paul hansı üç hadisəni vacib hesab edirdi?

__________________________________________________

__________________________________________________

__________________________________________________

Paulun sözlərinə görə Məsihin dirilməsini neçə insan (ən azı) görüb?

Beş yüz qardaşın əksəriyyətinin (6) hələ də sağ olması haqqında Paulun sözünün nə kimi əhəmiyyəti var?

Bu beş yüz şahidin hər birinə cəmisi beş dəqiqə vaxt verilsəydi, onların hamısının şəhadətini dinləmək üçün qırx iki saat vaxt lazım olardı. Əksər məhkəmə prosesində isə şahidlik etmək üçün bir və ya iki nəfər dinlənilir.

# Məsihçilik və məsihçilər haqqında uydurmalar

## 18. Ruslar üçün yaxşı olan almanlarda ölümə bərabərdir.

Bu dünyada hər şeyin nisbi olması haqqında uydurma

«Nəyin yaxşı, nəyin pis olması barədə düşüncələrinizi zorla mənə qəbul etdirə bilməzsiniz, — deyə Stefani israr edirdi. Mənim on səkkiz yaşım var. Bəsdir, mənə öyüd verdiniz. Pis hesab etdiyiniz şey, o demək deyil ki, mənim üçün də pisdir». Stefani özlüyündə nəyin «yaxşı», nəyin «pis» olması haqqında nəticə çıxarması üçün valideynləri ilə tez-tez münasibətlərinə belə coşqun qarşıdurma səviyyəsində aydınlıq gətirməyə çalışırdı.

Belə olan halda, o, iblisin «Doğrudur və ya yalandır, yaxşıdır, ya pisdir — bunlar hamısı nisbi anlayışlardır… Ən əsası sənin üçün nəyin düz olduğunu başa düşmək və şəxsi mənafeyini qurmaqdır» şəklində səslənən yalanının qurbanına çevrilirdi.

Əlbəttə, Stefani tək deyil. Bir çox insanlar elə güman edirlər ki, özlərinin şəxsi mənafeyinə uyğun qanunlar çıxara bilər və onlar üçün nəyin yaxşı, nəyin pis olduğunu sərbəst müəyyən edərək özlərinə haqq qazandıra bilərlər.

Alan Blum özünün «Amerikan düşüncəsinin məhdudiyyəti» kitabında yazır ki, «istənilən professor bir şeyə əmin ola bilər ki, universitetə daxil olan hər bir tələbə həqiqətin nisbi olduğunu güman edir»

Əslində, bu uydurmadır. Əxlaq nisbi anlayış deyil. «Doğrudur» və «doğru deyil» anlayışı müzakirə edilməməlidir. K. S. Lyuis özünün

«Adi məsihçilik» kitabında iddia edir ki, hər dəfə «doğrudur» və «doğru deyil» anlayışını qəbul etmədiyini deyən insanla rastlaşdığınız vaxt əmin olun ki, bir dəqiqədən sonra o özü belə bəyanatdan imtina edəcək. O sizə verdiyi sözün üstündə durmaya da bilər. Lakin əgər siz belə bir şeyə cəhd etsəniz, onda gözlərinizi yummağa macal tapmamış onun «siz necə də ləyaqətsiz bir hərəkət edirsiniz» deyə bağırdığının şahidi olarsınız.

Belə olan halda, biz «doğrudur» və «doğru deyil» anlayışının, həqiqətən, mövcud olmasını etiraf etməyə məcburuq. Bəzən insanlar hesabda yanıldıqları kimi, onları dəyişik sala bilərlər. Lakin istənilən halda bu anlayışlar heç cürə kiminsə zövqü və ya üstünlüyü ilə bağlı deyil.

Ən təəccüblüsü isə odur ki, pisi yaxşıdan ayıra bilməniz üçün fəlsəfi təhsilə malik olmağınız mütləq deyil. Həvari Paul on əmr haqqında, hətta heç vaxt eşitməyənlərə buyurmuşdu ki, «qanunun tələbləri onların ürəklərində yazılmışdı. Vicdanları buna şahiddir və düşüncələri onları gah ittiham, gah da müdafiə edir» (Romalılara 2:15). Bir daha Lyuisin sözləri ilə desək, «Nəyin doğru, nəyinsə yanlış olması haqqında Qanun və ya Qanunlar külliyyatını əvvəllər «təbiət qanunları» adlandırırdılar… çünki insanlar fikirləşirdilər ki, hamı onu təbiətindən tanıyır və heç kimə bunu öyrətmək lazım deyil».

Bununla belə, sizə pis olan şeylərin onlar üçün pis olmayacağını israr edənlər də var. Lakin kimsəni aldatmaq onlara nəsib olmayacaq. Öz hərəkətlərinə haqq qazandırmaq cəhdləri, yaxud hər şeyin nisbi olduğunu uydurma vasitəsilə izah etmək istəyi yalnız onu təsdiqləyir ki, onlar qəlbinin dərinliklərində nəyin yaxşı, nəyin pis olmasından xəbərdardırlar. Beləcə onlar məşhur «Həqiqət nədir?» (Yəhya 18:38) sualını verən Ponti Pilata bənzəməyə başlayırlar. Bu sualın acı həqiqəti ondan ibarətdir ki, həmin an Həqiqətin Özü onların qarşısında dayanmışdı. Pilatın axtardığı sualın cavabı Özünü «Yol,

həyat və həqiqət» kimi açan İsada ifadə olunmuşdu. Lakin Roma hökmdarı təcəssüm olunmuş həqiqəti etiraf etmək iqtidarında deyildi.

**Özün əmin ol**

Hər şeyin nisbi olması haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Hakimlər kitabının 17-ci fəslindən 6-cı ayəni oxu. Demək olar ki, bu kitabda yazılan əsatir həmin dövrdə geniş yayılmışdı. Çünki hamı o şeyi edirdi, ona görə ki, ____________________

Süleymanın Məsəlləri kitabının 14-cü fəslindən 12-ci ayəni oxu. Həmin kitabın 16-cı fəslinin 25-ci ayəsində də təkrar olunan «insana düz görünən» yol haqqındakı bu ayədə nə deyilir? Bu yollar insanı hara aparır? Sənin fikrincə, bu məsəlin mənası nədir?

Yeşaya Peyğəmbərin kitabının 45-ci fəslindən 19-cu ayəni oxu. Düzgünlüyü asan və həqiqəti bəyan edən bu ayə ilə kim razıdır?

Huşə peyğəmbərin kitabının 14-cü fəslindən 10-cu ayəni oxu. Son iki sətirdə hansı iki qrup insandan bəhs edilir? Özünü onlardan hansına aid edirsən? Başqa sözlə desək, Rəbbin yolu ilə gedirsən, yoxsa ki, onlara tərəf yıxılırsan?

Yəhyanın Müjdəsi 8-ci fəsildən 31, 32-ci ayələri oxu. Görəsən, İsa nəyinsə düzgün olub olmadığını düşünür, yoxsa ki, Onun sözləri nəsə başqa bir şey haqqında danışır? Onun sözlərinə görə həqiqətin dərk edilməsinin nəticəsi nə olacaqdır?

## 19. Hər şey müqayisə nəticəsində dərk edilir

Allahın hər şeyi ortaq məxrəcə gətirməsi haqqında uydurma

/Lövhədəki yazı: sinfin orta balı «4». Hamı imtahan verdi/.

«Bəlkə də mən bu dünyanın ən yaxşı adamı deyiləm, amma onun kimi pis insan da deyiləm. Qulaq asın, mən bu oğlan haqqında sizə çox şey danışa bilərəm. Biz bir-birimizdən çox da uzaqda yaşamırdıq. Küçə boyunca birgə çənə vura-vura dolaşırdıq. Onun barəsində mənə çox şey məlumdur.

O, həmişə kobud və özündən razı idi. Mən isə çox vaxt suyun lal axını, adamın yerə baxanı olurdum.

Bir dəfə onu polisə apardılar. Axı mən həmişə həvəslə hökumət nümayəndələrinə kömək etmişəm.

Onu bir neçə dəfə həbsxanaya salıblar. Mən isə bir dəfə də olsun, qanuna zidd hərəkətə yol verməmişəm.

Bir dəfə o, düz keşikçinin gözü qarşısında bir nəfərə hücum etmişdir!

Dediyim kimi, mən bu mənada heç də müqəddəs biri deyiləm. Lakin mütləq bir şeyi qeyd etməliyəm: Yəhuda İskaryotun Şimon Peterdən üstünlüyü nədədir?

Əlbəttə, deyə bilərsiniz ki, böyük ehtimalla Yəhuda heç vaxt özü haqqında bu cür mühakimələr etməzdi. Lakin bizim onun üçün söylədiklərimizin hamısı doğrudur. Bu əhvalatın sonu hamıya yaxşı bəllidir. Yəhuda İsanı ələ verəndən sonra özünü asaraq həyatına son qoydu. Peter isə baxmayaraq ki, Rəbbi inkar etmişdi, tövbə etməklə bağışlanıldı. O, cəmiyyətin məşhur liderlərindən birinə çevrildi. Bununla belə, Yəhudanın dilindən dediyimiz sözlər bu gün bir çox insanın hiss etdiklərini dəqiqliklə ifadə etmiş olur.

«Ola bilsin bir neçə dəfə spirtli içki dilimə dəyib, — deyə belələri bildirir, — amma dostlarımdan biri kimi heç vaxt lülqənbər olmamışam».

Yaxud da: «Bəli, mən ideal deyiləm, amma onun kimi şayiələr də yaymıram».

Çox vaxt bu, belə səslənir: «Qoy, mən müqəddəs olmayım. Əgər onun kimisi məsihçi hesab olunursa, onda mən yüz faiz çoxdan göylərdə olacağam.

Lakin əslində hamı belə deyil.

Orta məktəbdə müəllimin əvvəlcədən orta balla qiymətləndirməsi hamımızın xoşuna gəlir. Axı belə olan halda, o, bütün balları yazır, onları toplayır, sinifdə uşaqların sayına görə bölür, orta bal çıxarır. Nəticədə alınan ortaq məxrəc sənin ballarının sayını artırır (əlbəttə, həmişə kiməsə görə, babat şagirddəkindən orta səviyyədə əhəmiyyətli dərəcədə yüksək alınan hansısa Eynşteyn tapılacaq). Bu sistemdə ən qəribəsi odur ki, hələ də işləri tamamilə pis olan kimsə var, sən isə bu arada gərginləşməyə bilərsən. Hər halda, bu cür imtahan vermək yaxşıdır.

Bəzi insanlar bu təcrübəni özləri üçün nümunə götürərək onun əsasında özlərinin həyat, Allah və salehlik haqqında təsəvvürlərini yaradırlar. Amma Allahın hər şeyi ortaq məxrəcdə birləşdirməsi təsəvvürü bir uydurmadır.

Müqəddəs Kitabı oxuyanda aydın olur ki, Allah nəticə çıxarmaqdan ötrü Syuzi və Connini müqayisə etməyəcək: «Hə, Syuzi. Sən onun kimi elə də pis deyilsən. Ona görə də cənnətə xoş gəlmisən. Səni isə Conni üç saylı qapının arxasında gözləyirlər».

Heç də hər şey belə deyil. Bir dəfə Nikodim adlı bir nəfər İsanın yanına gəldi. O, yəhudi ağsaqqallar şurasının üzvü və hər şeyə düzgün əməl etməsi ilə yəni, düz danışıb, düzgün iman etməsi ilə cəmiyyətdə məşhur idi. Lakin İsa ona demədi: «Ey, Nik, göylərə gedəcək biri varsa o da sənsən!» Bunun əvəzində isə «doğrusunu, doğrusunu sənə deyirəm, bir kimsə yenidən doğulmasa, Allahın səltənətinə girə bilməz» (Yəhya 3:3) demişdi.

Sizin Cenni Mayersdən daha yaxşı olmağınız və ya Eyb Landersdən az içki qəbul etməyiniz, yaxud da Skott Ceksondan daha tez-tez kilsəyə getməyiniz heç bir əhəmiyyət kəsb etmir. İsanın sözlərinə əsasən, vacib olan odur ki, siz «göylərdən doğulasınız».

**Özün əmin ol**

Allahın hər şeyi ortaq məxrəcə gətirməsi haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Aşağıda yazılanları oxu. Müqəddəs Kitabda olmayan frazaların üstündən xətt çək.

A. Bir kimsə göylərdən doğulmasa, Allahın Səltənətini görə bilməz.

B. Heç Kim öz mənafeyini güdməməli, əvəzində isə başqalarına xeyirxahlıq etməyə çalışmalıdır.

C. Mən həqiqi döyüşdə qalib gəldim, öz yolumu başa çatdırdım və tanıdıqlarımın hamısından yaxşı həyat yaşadım.

Ç. Cəmiyyətin yığıncaqlarını buraxma, çünki sən yalnız orada xilas olursan.

D. Dostlarının sənə təklif etdiyi yoldan uzaqlaşma.

E. Hər şeydən çox mənim qanunlarımı qoruyub saxlayın və beləliklə də Allahın səltənətini görərsiniz.

Ə. Rəbb İsaya iman edin və ondabirlərinizin ətrafınızdakıların gətirdiyindən qat-qat çox olmasının qayğısına qalın, bununla həm siz, həm də eviniz xilas olacaq.

F. Tövbə etməsəniz, məhv olacaqsınız.

(Cavablar: A (Yəhya 3:3) və F (Luka 13:3)-dan başqa hamısının üstündən xətt çəkin).

## 20. Səmavi yoxlamada hamı olacaq

Ümumi xilas haqqında uydurma

/Rəbbin cənnətinə xoş gəlmisiniz/

Bazar günü məktəbinin dərslərindən birində on altı yaşlı Samantanın dedikləri hamını təəccübləndirmişdi: «Mənə belə gəlir ki, məsihçilər, buddistlər və müsəlmanlar arasında elə də böyük fərq yoxdur. Bütün dinlərin mahiyyəti eynidir: Hamımız cənnətdə olmaq istəyirik. Lakin ora düşmək üçün müxtəlif yollar seçirik».

Samanta heç özü də bilmir ki, bir çox insanlar da elə onun kimi düşünür. Baxmayaraq ki, onların heç də hamısı çıxıb bunu deməyi lazım bilmirlər. Lakin onlar universalizmə meyl göstərirlər, məqsəd ondadır ki, istənilən dinin ardıcılları bu və ya başqa şəkildə cənnətdə olacaqlar. Hətta buna oxşar ideyaları təlqin edən «universalist məbəd»lər də var. Hərçənd, şüurlu surətdə buna meyl göstərənlərin bir çoxu (məsələn, Samanta kimiləri) məsihçi imanında tərbiyə olunublar.

Lakin bu, uydurmadır.

Bu, Müqəddəs Kitabın öyrətdikləri ilə üst-üstə düşmür. İsa deyirdi: «Dar qapıdan girin; çünki həlaka aparan qapı geniş və yol enlidir; və ondan girənlər çoxdur. Çünki həyata aparan qapı dar və yol ensizdir və onu tapanlar azdır» (Matta 7:13,14).

Ancaq fikirləşin: Allah insan olub əzab-əziyyət çəkdi, işgəncələrlə çarmıxda öldü ki, insanlar bağışlansın və göylərdə əbədi həyata nail ola bilsinlər. İndi isə təsəvvürünüzdə uzun illər Onun məhəbbətini qəbul edən və rədd edən insanları canlandırın. Sonra isə daxili

nəzərlərinizi İsanın satınalınma qurbanına iman etdiyinə görə sürgünlərə, işgəncələrə və əzabverici ölümə məhkum olunan insanlara yönəldin. Nəhayət, bütün bəşəriyyətin Allah qarşısında dayanacağı son vaxtı təsəvvürünüzə gətirin. Allah nəzərlərini öncə İsanın qurbanlıq sevgisini qəbul edənlərə, daha sonra isə Onu rədd edən izdihama doğru yönəldir. Daha sonra belə bir şəkli təsəvvürünüzdə canlandırın: Allah çiyinlərin çəkərək deyir: «Burada araşdırmalı heç nə yoxdur. Hamınız içəri gəlin!»

Bu, baş verməyəcək! Ona görə yox ki, Allah kiminsə əbədiyyəti cəhənnəmdə keçirtməsini istəyir. Əksinə, Müqəddəs Kitab deyir ki, «Allah bizə səbir edir və istəyir ki, hamı tövbəyə gəlsin və kimsə həlak olmasın» (2Peter 3:9).

Universalistlər belə bir nəticəyə gəlirlər: «Mən başa düşə bilmirəm ki, Sevən Allah kimisə cəhənnəmə necə göndərə bilər?» Lakin Allah insanları cəhənnəmə göndərməyə çalışmır. O, əzablara dözmək və Ona iman edənlərə əbədi həyat verməkdən ötrü gəlmişdi. İndi isə hər şey əksinədir, insanlar özləri əbədiyyəti harada keçirməyi seçə bilərlər. Müqəddəs Kitabda açıq-aydın göstərilib ki, bir çoxları inadla Allahın sevgisini inkar etməklə əbədiyyən cəhənnəmi seçmiş olurlar.

Məhz bu səbəbdən Məsihçi mütləq İsa Məsihin əmrlərin yerinə yetirməlidir: «…gedin, bütün xalqları şagirdim edin» (Matta 28:19), çünki Müqəddəs Kitaba əsasən, bir gün tövbə etmək üçün imkan olmayacaq.

### Özün əmin ol

Ümumi xilas haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün aşağıdakı tapşırığı yerinə yetir.

Yəhyanın müjdəsi 6-cı fəsildən 68-ci ayəni oxu. İsanın ardınca gedənlər Onu tərk etdikləri vaxt, O, Şimon Peterə və digər

şagirdlərinə dedi: «Yoxsa, siz də getmək istəyirsiniz?» Peter nə cavab verdi? Onun «Kimin yanına gedək?» sualı nə deməkdir? Peter bu ayədə neçə yolu əbədi həyat adlandırır?

Yəhyanın müjdəsi 14-cü fəsildən 6-cı ayəni oxu. İsa Özü burada göylərə necə düşmək haqqında danışır. İsa bu ayədə Allaha aparan neçə yol göstərir? Bu ayədəki «yalnız Mənim vasitəmlə» sözü nə deməkdir?

Vəhy kitabının 20-ci fəslindən 12-15-ci ayələri oxu. Müqəddəs Kitabda Hökm günü nələrin baş verəcəyi haqqında açıq-aydın peyğəmbərlik var. Bu ayələrə əsaslanaraq hamının göylərə düşəcəyini demək olarmı? Həyat kitabında adları olmayanlarla (həyatda etdikləri şəxsi seçimlərinə görə) nə baş verəcək?

Sakitcə dua etmək, Korinflilərə ikinci məktubun 13-cü fəslinin 5-ci ayəsində verilənləri yerinə yetirmək və bu ayədə suala cavab vermək üçün bir neçə dəqiqə vaxt ayır.

## 21. Nəyi bildiyiniz yox, kimi tanımağınız mühümdür

Məsihçiliyin ideologiya olması haqqında uydurma

/Kişi deyir: həqiqi Məsih, zəhmət olmasa, ayağa qalxın/

Nüfuzlu qərb universitetlərindən birinin tələbələri olan Mayk və Brendon tətildən sonra görüşərkən sevimli müəllimlərini müzakirə edirdilər.

«Təsəvvür edirsən, Qərb sivilizasiyası üzrə kursu yenə də Stendiş tədris edəcək! — deyə Mayk təəssüfünü bildirdi. Bu oğlan lap

nasistdir! Yeganə sevindirici hal odur ki, heç olmasa İngiltərə tarixi üzrə kursu Nilon keçəcək».

«Hə-ə-ə… Məndə isə yenə də Kristosdur», — Brendon dedi.

«Nə danışırsan? Hansı fəndən?»

«Hamısından».

«Hamısından?»

«Bəli».

«O da çoxlu yoxlama işləri verir?»

«Əlbəttə ki, yox!»

«Bəs siz onun tədris etdiklərinin hamısını öyrənməlisiniz?» — deyə Maykl soruşdu.

«Yox, Əşi», — Brendon cavab verdi.

«Yaxşı, bəs o sizi nəsə bir şeyə məcbur edirmi?»

«Ümumiyyətlə, ancaq onu daha yaxşı tanımağa. O istəyir ki, biz onunla tanış olaq, onun necə bir insan olduğunu öyrənək və onunla münasibətlərimizi inkişaf etdirək».

Özlüyündə belə bir müəllim təsəvvür etmək çətindir. Elə deyilmi? Lakin belə birisi mövcuddur.

İnsanların əksəriyyəti elə hesab edirlər ki, məsihçilik də demək olar ki, başqa dünya dinləri kimi, əsasən etiqad sistemlərindən, nəzəriyyə komplektlərindən və ya əxlaq, fəlsəfə, ideologiya külliyyatından ibarətdir.

Lakin bu uydurmadır.

Məsihçilik heç də buddizmə, islama və ya konfusiçiliyə bənzəmir. Son üç dinin baniləri demişdi: «Mən filan və filan şeyləri öyrədirəm. Mənim təlimimə iman gətirin. Mənim fəlsəfəmin ardınca gəlin». İsa isə deyirdi «Ardımca gəl» (Matta 9:9).

Dünya dinlərinin liderləri soruşurdular: «Mənim təlimim haqqında siz nə fikirləşirsiniz?» İsa demişdir: «Bəs siz *Məni* Kim hesab edirsiniz?» (Luka 9:20, kursiv müəlliflərindi).

Bu və ya digər dinlərin tərəfdarları özlərinə sual verməlidir: «Mən hansı ideologiyanın tərəfdarı olmalıyam? Potensial məsihçi özündən soruşmalıdır: «Elə isə Məsih deyilən İsaya nə edim?» (Matta 27:22).

Məsihçilik din deyil. Bu, qarşılıqlı münasibətdir.

Məsihçilik etiqad sistemi, yaxud nəzəriyyə toplusu deyil. Burada başlıca olan — Şəxsiyyətdir.

Məhz buna görə İsanın üzərindəki hökm özlüyündə yeganədir. Axı əksər məhkəmə proseslərində ittiham təqsirləndirilən şəxsin törətdiyi cinayətin üzərində qurulur. İsanı isə *Kim olmasına* görə məhkum etmişdilər.

Müjdəçi Mark İsanın Ali Şurası qarşısında məhkum edilməsini yazarkən göstərir ki, məhkəmədə bir neçə yalançı şahidlər iştirak edirdi. Lakin onların ifadələri ziddiyyətli və əsassız səslənirdi. Sonra Mark yazır: «…baş kahin Ondan (İsadan) soruşur: «Xeyir-dua Sahibi Olanın Oğlu Məsih Sənsənmi?»»

Bu vaxt İsa yəhudilər üçün birbaşa Allaha işarə edən «Xeyir-dualı» ifadəsinə «Mənəm» dedi.

Bu zaman baş kahin Ali Şuranın hökm çıxarmasını gözləməyərək öz paltarını cırdı və beləliklə də anlatdı ki, İsa küfr edərək Özünü Allah elan edir.

Beləliklə, İsanın şəxsiyyəti məhkəmədə fikir ayrılığına gətirib çıxartdı — axı kimdir O? Məhz bu, məsihçiliyi fərqləndirən başlıca əlamətdir. Bu, ideologiya deyil. Məsihçilik Məsihin şəxsiyyətinə əsaslanmışdır və Onunla qarşılıqlı münasibət tələb edir.

Məsihçi imanının gerçəkliyi onunla təsdiqlənir ki, İsa Məsih, Allahın Oğludur. Bu səbəbdən İsa ilə fariseylər arasında münaqişə yaranmışdı. Fariseylər düşünürdülər ki, ən mühümü Müqəddəs Kitabın prinsipləri əsasında Qanuna əməl etməkdir. İsa isə əslinə baxanda demişdir: «Xeyr, bu, belə deyil. Qanunlara əməl etmək Mənimlə şəxsi münasibətin təzahürü olmalıdır. Mənim təlimimə əməl

etmək sizi məsihçi etməyəcəkdi. Bu, yalnız məhəbbətə əsaslanan mənimlə qarşılıqlı münasibət sayəsində mümkündür».

### Özün əmin ol

Məsihçiliyin ideologiya olması haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Mattanın Müjdəsi 26-cı fəsildən 63-65-ci ayələri oxu. Baş kahin O, nə etdiyini və Onun Kim olduğunu soruşdu. İsa cavabında nə dedi? Baş kahin buna necə reaksiya Verdi?

Markın Müjdəsi 15-ci fəsildən 37-39-cu ayələri oxu. İsanın çarmıxdakı ölümünün şahidi olan yüzbaşı nə dedi? Yüzbaşının sözləri İsanın təlimi, yoxsa ki, Onun Özü haqqında idi?

Mattanın Müjdəsi 27-ci fəsildən 41-43-cü ayələri oxu. İsa Onu ələ salanların sözlərinə əsaslanaraq *Özü* haqqında nə dedi?

## 22. İntellektuallara giriş qadağandır

Ağıllı insanın məsihçi ola bilməməsi haqqında uydurma

Valdo fikirli halda tələsmədən küçə ilə gedirdi. Onun yolu məbədə doğru uzanırdı. O, qərara aldı ki, uzun müddətdir, Allahdan qaçır və buna nöqtə qoymağın artıq vaxtı çatıb.

«Artıq belə davam edə bilməz, — deyə o düşünürdü. — Mən daha bu günahımı, həyatımda nəyinsə çatışmadığını dərk edə-edə daşıya bilmirəm».

Beləcə o, uzun mili və qülləsi göyə yönələn küncdəki kilsəyə tərəf addımladı.

«Gözəl binadır, — öz-özünə dedi. — Yoxsa ki, hələ də tikilə-tikilə gedən uca şüşəli evlər kimi…»

Bir neçə məhəllə keçdikdən sonra məbədə gəlib çatdı. Özünü sakitləşdirməyə çalışaraq böyük taxta qapının qarşısında dayandı. Nəhayət, dərindən nəfəs alıb, pilləkənlərlə yuxarıya doğru qalxdı və içəriyə daxil oldu.

Günəş işığından sonra məbədin sönük işıqlandırılmış zalına gözlərinin alışmasından ötrü qapının girişində bir az ləngidi.

«Gəlmək istəyirsiniz?»

Valdo səsdən diksindi. O, həmin an qadını görməmişdi və ona görə də səs gələn tərəfə döndü. Onun qarşısında balaca, bir az beli bükülmüş, ağ saçlarını boynunun arxasına yığmış bir qadın dayanmışdı.

«Siz içəri keçmək istəyirsiniz?» — deyə o, bir daha təkrarladı.

«Hə, hə — Valdo dilləndi. — İstəyirəm».

«Elə isə, zəhmət olmasa, ağlınızı təqdim edin».

Valdoya elə gəldi ki, nəsə səhv eşitdi. Lakin qadın dediklərini bir də təkrarladı və bu dəfə onlar olduqca aydın səslənirdi.

«Zəhmət olmasa, ağlınızı təqdim edin».

«Mənim ağlımı?»

«Bəli. Axı siz məbədə girirsiniz».

Valdo başını yırğaladı.

«Siz Məsihin ardıcılı olmaq qərarına gəlmisiniz? Məsihçi olmaq istəyirsiniz?»

«Bəli — deyə o, cavab verdi».

«Elə isə siz ağlınızı burada qoymalısınız. O, bir daha sizə lazım olmayacaq. Biz onun üzərində sizin adınızı yazacağıq. O, burada olduğu kimi qalacaq. Narahat olmayın, həmişə belə edirlər. Əgər siz məsihçi olmağa qərar vermisinizsə, gərək ağlınızdan imtina edəsiniz».

Əlbəttə, Valdo ilə olan bu əhvalat başdan-ayağa uydurmadır. Lakin bu əhvalat bizə bir çox insanların məsihçi olmağın nə demək olduğu

haqda adət etdiyi düşüncə tərzini göstərməyə kömək edir. Onlar elə güman edirlər ki, məsihçiliyə üz tutmaq üçün ağlından imtina etməlisən, başqa sözlə desək, öz intellektini qurban verməli və səmərəli şəkildə düşünməkdən vaz keçməlisən.

Bu əsatirdir.

Bəşəriyyət tarixində məsihçi olan bir çox dahilər olublar. Onların arasında Paul, Avqustin, Martin Lyuter, Con Kalvin, Con Benyan, Ditrih Bonhoffer, Fransis Şeffer kimlərin adları var.

Məsihçi olmaq heç də öz intellektinlə daim ziddiyyətdə olmaq demək deyil. Bu, o deməkdir ki, onu daha mükəmməl, bütöv edə bilərsən. İnsan məsihçi olduğu vaxt ilk növbədə onu əhatə edən ətraf aləmin eyni bir harmoniyada birləşən, bir-biri ilə əlaqəsi olmayan hissələrin qeyri-adi yığımının şahidi olur.

K.S. Lyuis özünün tərcümeyi-halında göstərir ki, yetkin bir gənc kimi məsihçiliyi intellektualsız sistem hesab etdiyindən Müjdədən qaçır və var qüvvəsi ilə ona müqavimət göstərirdi. Lakin bir dəfə bu maneə dağıldı və o «sevincindən heyrətləndi».

O gördü ki, bu müraciət onun təsəvvürünün canlanmasına və yaradıcı qüvvə almasına səbəb oldu.

Ədəbi zəhməti sayəsində qələmə aldığı «Balamutun məktubları» və hamının sevdiyi altı hissədən ibarət «Narniya Salnamələri» kimi əsərləri ilə məşhurlaşdı.

Lyu Uolles qeyri-adi intellektual və yaradıcılıq qabiliyyətini işə salaraq məsihçiliyin əsassız olduğunu sübut etməyi qərara almışdı. Lakin Xoş xəbərin gücü klassik «Ben Qur» əsərini yazan müəllifi imana gətirdi.

Britaniyalı hüquqşünas Frenk Morison İsa Məsihin dirilməsi faktını təkzib edən bir kitab yazmaq niyyətində idi. O, qarşısına qoyduğu məqsədə nail olmaq üçün fədakarlıqla əsaslı araşdırmalar apardı, tarixi dəlillər topladı. Nəticədə, Onun intellekti və əməyi

qaçılmaz sonluğa gətirdi — İsa Məsih, həqiqətən də, ölülərdən dirilmişdir. Beləcə, Frenk məsihçi oldu.

Müjdə sizdən öz intellekt qabiliyyətinizdən imtina etməyi tələb etmir. Əksinə, o, tələb edir ki, həvari Paula əminliklə deyə bilməyincəyə qədər, siz öz ağlınızdan tamlığı ilə istifadə edəsiniz: «…mən Müjdədən utanmıram, O, iman edən hər kəsin, ilk əvvəl yəhudinin, sonra isə yunanın xilası üçün Allahın qüdrətidir» (Romalılara 1:16).

**Özün əmin ol**

Ağıllı insanın məsihçi olmasının qeyri-mümkünlüyü haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün bu tapşırığı yerinə yetir.

Yəhyanın müjdəsinin 8-ci fəslindən 32-ci ayəni, Peterə birinci məktubun 3-cü fəslindən 15-ci ayəni, Həvarilərin İşləri kitabının 17-ci fəslindən 2-4-cü ayələri oxu.

Həmçinin həmin kitabdan epikürçü və daha səbatlı filosof, Areopaq mütəfəkkirlərlə qarşılaşan Paulun Afinaya gəlişi haqqında nəql edilən 17-ci fəslin 16-34-cü ayələrini oxu. 23-cü ayəyə diqqətlə fikir ver. Paul afinalıdan öz ağıllı düşüncələrini tərk etməyi xahiş edirmi? O onlara öz biliklərini təlimlərində çatışmayan şeylərlə doldurmağı təklif edirmi?

Afinada iman edənlər arasında Areopaqın üzvü, məşhur bir mütəfəkkir var idi (34-cü ayə). O, kim idi?

## 23. Ceff və professor

Kor iman haqqında uydurma

/Lövhə üzərindəki yazı: «Gözbağlıca oyunu»/

«Deməli, siz məsihçisiniz?» — professor saqqalını sığallaya-sığallaya üstünlük görünüşü aldı.

Birinci kurs tələbəsi Ceff elə dərindən udqundu ki… Ona elə gəldi ki, bunu bütün auditoriya eşitdi.

«Onda mənə deyin görüm, siz İsanın ölülərdən dirilməsini yüz faiz əminliklə sübut edə bilərsinizmi?» –deyə professor soruşdu.

Ceff boğazını arıtmağa çalışdı, amma onun cavabı siçan civiltisinə bənzər alındı: «Hm… Xeyr».

«Görürsünüzmü?» — deyə professor dilləndi. — Kor iman. Avam, ağılsız hər cür məntiqdən uzaq». O, yazı taxtasına tərəf döndü, alçaldılmış Ceff isə fasiləyə qədər tamamilə qıpqırmızı kədər içində oturdu.

Gənclik vaxtımda bu cavan oğlanın yerində olsaydım, onda professorla tamamilə razılaşardım. O, vaxtlar mənə elə gəlirdi ki, məsihçi imanı kor imandır. Onun əsassızlığını sübut etmək məqsədilə məsihçiliyi öyrənməyə qərar verdim. Lakin nə qədər çox məsihçiliyi tarixi və müqəddəs Kitab mövqeyindən araşdırırdım, bir o qədər əmin olurdum ki, bu, ağıllı, məntiqə əsaslanan imandır.

İsa Onun ardınca gələnlərə deyirdi: «Siz həqiqəti dərk edəcəksiniz və həqiqət sizi azad edəcəkdir» (Yəhya 8:32). O, demədi ki, «Siz həqiqətə etinasızlıq göstərməlisiniz». O demədi ki, «Hətta həqiqətə görə narahat da olmayın». O demədi ki, «Siz həqiqətin ziddiyyətinə inanmalısınız». O dedi: «Siz həqiqəti dərk edəcəksiniz və həqiqət sizi azad edəcəkdir».

İsa bizi Ona Rəbb və Xilaskar kimi etibar edərək, intellekt cəhətdən özümüzə qəsd etməyə çağırmır. O bizim düşünmədən iman etməyimizi istəmir. Məsihçi imanı faktlara əsaslanmalıdır.

Ceffin imanına atmaca atan professor güman edirdi ki, əgər nəyi isə yüz faiz əminliklə sübut edə bilmirsənsə, demək, onda nə səmərə, nə də ki, həqiqət var. O, eyni zamanda hesab edirdi ki, İsanın dirilməsini və ilahiliyini yüz faiz sübut etmək mümkün olmadığı üçün məsihçi imanı kortəbiidir.

Bu uydurmadır.

Biz elə bir dünyada yaşayırıq ki, hadisələrin inkişafı haqqında çox çətinliklə nəsə demək mümkündür. Bu isə o deməkdir ki, riyazi sahə istisnalıq təşkil etməklə, nəyi isə yüz faiz sübut etmək praktik cəhətdən mümkün deyil.

Avtomobil istehsalçıları yüz faiz əminliklə sübut edə bilməzlər ki, onların yeni modeli tamamilə təhlükəsizdir. Lakin maşınların saysız-hesabsız ağır sınaqlardan keçməsi faktı tamamilə inandırıcıdır.

Vəkil yüz faiz əminliklə sübut edə bilməz ki, şübhə altına alınan şəxs bu cinayəti törədib. Hətta onlar onun səmimi etirafına malik olsalar belə, gözlənilməyən şərait həmişə mövcud olur. Məsələn, kimisə müdafiə etməkdən ötrü, o, yalan danışa bilər, yaxud, bu etirafı etməyə onu məcbur edərlər. Lakin vəkillər «hər cür şübhədən uca olacaq» nəticəni çıxartmaq üçün faktları ölçüb-biçirlər.

Eynilə də nə Məsihin dirilməsi, nə də Onun ilahiliyi yüz faiz əminliklə sübut edilə bilməz. Bu o demək deyil ki, məsihçi imanı kortəbii imandır. O, kifayət qədər fakta malikdir. Onlar zəruri faktlar deyil, əks halda yüz faiz əminlik verə bilərdi. Lakin onlar kifayət qədərdir.

Həvari Yəhya Müjdədə yazırdı: «İsa Öz şagirdləri qarşısında bir çox möcüzələr göstərdi ki, bu kitaba yazılmamışdır» (Yəhya 20:30). O, bununla nə demək istəyir? O demək istəyir ki, İsa Müqəddəs Kitabda oxuya biləcəklərimizdən daha çox möcüzələr göstərmişdi və onlar Onun ilahiliyini təsdiqləyir. Yəhyanın göstərdiyi fakt həqiqi sübut deyil. Bununla bərabər, o, növbəti ayədə yazır ki, «amma İsanın

Allahın Oğlu Məsih olduğuna iman edəsiniz və iman etməklə Onun Adı ilə sizdə həyat olsun deyə, bunlar yazılmışdı» (Yəhya 20:31). Əslində Yəhya bu ayələrdə (30 və 31) deyir ki, şahidlik həqiqi sübut demək deyil, lakin onlar kifayət qədərdir.

Fransız riyaziyyatçısı, filosof və alim Blez Paskal demişdir ki, məsihçi imanı ona qarşı çıxmayan istənilən insanı inandırmaq üçün kifayət qədər faktlara və şəhadətlərə malikdir. Belə ki, əgər bir kimsə özü istəmədən Allaha yaxınlaşmırsa, onda heç bir sübut kifayət etməyəcək.

**Özün əmin ol**

Kortəbii imanın cəfəngiyat olmasını sübut etmək üçün növbəti tapşırığı yerinə yetir.

Yəhyanın müjdəsi 20-ci fəsildən 30 və 31-ci ayələri oxu. Yəhya nə üçün İsanın «Allah Oğlu, Məsih» olduğuna dair şəhadətlər yazır? «Onun ismi naminə» həyata necə nail olmaq olar? Nəyə və ya kimə iman vasitəsilə?

Lukanın Müjdəsi 1-ci fəsildən 1-4-cü ayələri oxu. Müjdəni necə yazdığını bildirmək üçün İsa hansı sözdən istifadə etmişdir? (3-cü ayə). Luka öz Müjdəsini Teofil adlı bir nəfərə ünvanlayır. İsa Məsihin həyatı və təlimi haqqında yazdığı «nizamla təsvir»dən Luka hansı nəticəni gözləyir?

Bu şəhadətlər sənin qarşına «öyrəndiyin şeyləri doğru olduğunu bilməyindən ötrü» dərin araşdırma aparmaq məqsədi qoyubmu?

## 24. Avraam Linkoln və səhər saat 10-a təyin edilmiş tarix imtahanı

Elmi sübutların vacibliyi haqqında uydurma

«Bir dəqiqə, ser».

Yüksək səviyyəli amerikan universitetlərindən birində mühazirəni deyib qurtarandan sonra dinlənilən materiala aid bir kimsənin sualı olub olmadığını soruşurdum ki, auditoriyanın arxa cərgəsindən səslər eşidildi.

«Mən aspirantam və elmi işlə məşğulam, — deyə bir cavan oğlan dilləndi, — odur ki, elmi cəhətdən sübut olunmayan bir şeyi imanla qəbul edə bilmərəm. Siz İsa Məsihin dirilmə faktını elmi nöqteyi-nəzərdən əsaslandıra bilərsiniz?»

«Xeyr» — deyə mən cavab verdim.

Aspirant özündən razı halda gülümsədi.

«Əlbəttə, — deyə mən davam etdim, — axı siz şəxsi iddialarınızın elmi həqiqiliyini təsdiqləyə bilməzsiniz.

Elmi sübutlar eyni bir hərəkətin nəzarət altında dəfələrlə təkrar edilməsi, izlənilməsi, dəlillərin qeyd edilməsi və bunun əsasında nəticə çıxarılması sayəsində yaranır. Elmi sübutlar — təcrübə və müşahidələrin nəticəsidir.

Məsələn, elmi təcrübə bu cür qurula bilər. Ağ xalatlı kişi və qadın, qadın əlində qovluq və qələm, kişi isə balaca ağ mətin vücudlu yonma ilə təcrübə otağına girirlər. Kişi ağ rəngli cismi kran suyu ilə dolu şüşə həcmin içinə batırır. Cism o dəqiqə suyun səthinə çıxır. Qadın vərəqdə nəticəni qeyd edərək nə isə yazır.

O, yenidən cismi həcmin dibinə batırır. Cism yenidən suyun səthində üzür. Qadın yenə də nə isə yazır.

O, cismi lap dibə batırır. Cisim yenə də suyun səthinə qalxır. Qadın qeyd edir.

O batırır. Cisim suyun səthinə qalxır. Qadın qeyd edir.

Bu təcrübənin müşahidə və nəticələrin qeyd edilməsinə nəzarət şəraitində dəfələrlə yerinə yetirilməsindən sonra alimlər belə bir nəticəyə gəlirlər ki, fil sümüyündən olan sabun suyun səthində qalır. Bunu elmi cəhətdən sübut olunmuş hesab etmək olar.

Təəssüf ki, bir çox insanlar fərz edirlər ki, əgər siz nəyisə elmi cəhətdən sübut edə bilmirsinizsə, onda bu, əsassızdır, yaxud inanılmazdı.

Lakin bu uydurmadır.

Nəyisə sübut etmək üçün elmi metod yeganə vasitə deyil. Əgər belə olsaydı, onda Avraam Linkolun nə vaxtsa Birləşmiş Ştatların prezidenti olduğunu sübut edə bilməzsən, çünki bu hadisə bir daha təkrarlana bilməz. O, yalnız keçmişdə mövcud olub.

Eləcə də keçən cümə səhər saat 10-da tarixdən çətin bir imtahan verdiyinizi elmi yolla isbatlaya bilməzsiniz. Siz bunu müşahidələr aparılan, məlumatlar qeyd edilən nəzarət altında bir neçə dəfə təkrarlaya bilməzsiniz. Bu, bir dəfə baş verir. Bu tarixdir.

Lakin Avraam Linkolnun mövcudluğunu və ya sizin keçən həftənin beşinci günü tarix fənnindən imtahan vermək faktını isbatlamaq mümkün deyilsə, bu, o demək deyil ki, bu hadisələr baş verməyib. Keçmişdə müəyyən yerdə baş verən hadisələri sübut etmək mümkündür. Onların mövcudluğunu isbatlamaq üçün istifadə olunan üsul «tarixi faktların hüquqi üsulla sübut edilməsi», yaxud «şahid ifadələrinə əsaslanan metod» adlanır.

Hər hansı bir hadisənin şahid ifadələri əsasında sübut olunması 3 yolla nəzərdən keçirilir: şifahi şəhadətçilik, yazılı şəhadətçilik və maddi sübutlar. Bu baxımdan hər gün bütün dünyada istənilən tarixi hadisənin reallığını isbatlamaq üçün məhkəmələrdə «dəlillər» yeganə sübut etmə rolunu oynayır.

Məsələn, Avraam Linkoln kimi amerikan prezidentin, həqiqətən, mövcud olduğunu (şahid ifadələrinə əsaslanan metod) necə sübut

etmək olar? Əgər onun hakimiyyətinin şahidi olan insanları tapmaq mümkün olarsa, onda onu tanıyan, onunla görüşən və onun çıxışlarını dinləyən adamlardan müsahibələr alınar. Bu, şifahi şəhadətçilikdir. Onun yazdıqları məktubların surətini, ölümü haqqında yazan qəzetləri toplasanız, haqqında yazılan kitabı tapmış olsanız, bu, yazılı şəhadətçilikdir. Nəhayət, siz onun şəxsi cib saatını, özünün və anadan olduğu yerin fotoşəkilini, hətta qənd qabısını göstərsəydiniz, onda maddi sübutları təqdim etmiş olardınız.

Keçən həftənin cümə günü səhər saat 10-da sizin tarix fənnindən imtahan verdiyinizi necə sübut etmək olar? Şəhadətçilik metodu vasitəsilə — müəlliməniz buna şəhadətçilik edə bilər, siz tarixi və qiymət qoyulmuş imtahan işinizi (təbii ki, onu valideynlərinizdən gizlətmək lazım gəlməyibsə) təqdim edə bilərsiniz və nəhayət, imtahan zamanı məktəb fotoqrafı tərəfindən çəkilmiş fotoşəkili əldə edə bilərsiniz və s.

Elmi metod məhduddur. Onunköməkliyi ilə əvvəllər baş vermiş hadisələrin reallığını sübut etmək olmaz. Napoleonun Vaterloo yaxınlığında darmadağın edilməsi, XVII əsrdə Londonda taun bubon xəstəliyinin 150 000 adamın həyatına son qoymasını, İsanın ölülərdən dirilməsini sübut etmək mümkün deyil. Çünki bu hadisələri nəzarət altında təkrarən müşahidə aparmaq, məlumatları qeyd etmək və onların əsasında nəticə çıxarmaq mümkün deyil.

Lakin tarixi hadisələrin reallığını şəhadətçilik ifadələri metodunun köməkliyi ilə — şifahi, yazılı və maddi sübutlar göstərərək heç bir şübhə olmadan sübut etmək olar.

Bu mənada İsanın dirilməsi elmi cəhətdən sübut oluna bilmədiyi üçün yalan və şübhəli olması haqqındakı təsəvvürlər uydurmadır. İsanın həyatı və xidməti, göstərdiyi möcüzələr, dirilməsi faktı şəhadətçilik ifadələri ilə sübuta yetirilə bilər və sübuta da yetirilib.

**Özün əmin ol**

Elmi sübutların mühümlüyü haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Yəhyanın müjdəsinin 20-ci fəslindən 1-9-cu ayələri oxu. Bu ayələrdə İsanın dirilməsi haqqında hansı maddi sübutlar qeyd edilmişdi?

Yəhyanın müjdəsinin 20-ci fəslindən 10-29-cu ayələri oxu. Yəhya bu ayələrdə İsanın dirilməsinə müxtəlif cür reaksiya verən neçə şahidin adını çəkir?

Həmin fəsildən 30-31-ci ayələri oxu. Bu ayələrdə şəhadətçiliyin hansı növü qeyd olunur?

Nəhayət, Korinflilərə 1-ci məktubun 15-ci fəslindən 3-8-ci ayələri oxu. Bu ayələrdə dirilmənin şahidi olan neçə nəfərin adı çəkilir?

Şəhadətçilik haqqında öyrəndiklərini nəzərə alaraq, Məsihin dirilməsinə başqa sübutlar gətirə bilərsənmi?

## 25. Pörtülmüş pomidorlar və krosovkalar

Beyinlərin yuyulub təmizlənməsi haqqında uydurma

/Vitrindəki lövhə: U. Berta. Beyinlərin yuyulub təmizlənməsi/

İnsanların əksəriyyətində belə bir təsəvvür yaranır ki, məsihçiliyə dönmək — bir növ «beynin yuyulub təmizlənməsi» kimi xüsusi psixoloji təsir etmənin nəticəsidir. Belə ki, bu vaxt inandırıcı sözlərin köməyi və emosional məsihçi «əsatirlərinin» nəqli ilə insanların

beynini yenidən emal edirlər. Onların fikrincə, məsihçilər tamamilə xəyallar içərisində yaşayırlar. Başqa sözlə desək, davranışda əsaslı dəyişikliklərə səbəb olan intellektual oyunlarla özlərini də, başqalarını da çaşdırırlar.

Bu uydurmadır.

Tarix dərsində başlayan bir mübahisə zamanı mən Məsihə necə iman etdiyimdən danışmağa başladım. Öz hekayəmi bitirmişdim ki, müəllim dedi:

«Qulaq asın, Makdauell, bizi şəhadətçilik yox, faktlar maraqlandırır. Yer üzündə məsihçi olandan sonra həyatı dəyişilən o qədər insan görmüşəm ki…»

«Çox sağ olun, — deyə dilləndim. — İcazənizlə, mən öz hekayəmi tamamlayım, sonra sizin iradlarınıza cavab verərəm».

Bir neçə dəqiqədən sonra müəllimin tutduğu iradlara qayıtdım.

«Çoxları bu cür ritorik suallar verirlər: «Məsih sizin həyatınızı dəyişib, hə nə olsun ki?.. Mən hər halda buna cavab verməyə çalışıram.

Məni üçün reallıq budur ki, İsa Məsih iki min il bundan öncə ölülərdən dirilib. Milyonlarla insan Ona iman gətirəndə və İsa Məsihlə şəxsi münasibət qurmağa başlayanda onların həyatının tamamilə dəyişməsi bu faktı təsdiqləyir. Baxmayaraq ki, bu insanlar cəmiyyətin müxtəlif təbəqələrinə aiddir, müxtəlif millətlərin nümayəndələridir, amma onların həyatları heyranedici şəkildə eyni dərəcədə dəyişilir. İnsan kimliyindən asılı olmayaraq, istər ən zəkalı professor, istərsə də ən qaba vəhşi olsun, Məsihə etibar edəndə, həyatı dəyişilməyə başlayır.

Bəziləri deyəcəklər, mən arzuediləni həqiqət kimi qəbul edirəm. Yaxud, sadəcə bu, heç nəyi sübut etmir deyərək mənimlə razılaşacaqlar. Lakin məsihçi üçün onun subyektiv təcrübəsi

özlüyündə möhkəm əsası — obyektiv reallığı birləşdirir. Bu obyektiv reallıq — İsa Məsihin şəxsiyyəti və Onun dirilməsidir.

«Məsələn, — deyə sinfə müraciət etdim, — tutaq ki, tələbələrdən biri bu sinfə girib deyəcək: «Uşaqlar, mənim sağ krosovkamda pörtülmüş pomidor var. Bu pomidor mənim həyatımı dəyişib. O mənə əvvəllər heç vaxt hiss etmədiyim sakitliyi, məhəbbəti və sevinci verib. Bundan əlavə, indi mən yüz metr məsafəni on saniyəyə qaça bilərəm».

Mən sinfə gülümsədim.

«Əgər danışdıqları onun həyatını təsdiqləyirsə, belə bir tələbə ilə mübahisə etmək çətindir. Xüsusilə, əgər o, qaçış zolağı dairəsində sizin ətrafınızı nəzərdə tutursa. Şəxsi şəhadətçilik nəyinsə reallığını təsdiqləmək üçün çox vaxt subyektiv arqumentə çevrilə bilir. Ona görə *subyektiv təcrübəni yersiz bir şey kimi qəbul etmək lazım deyil.*

Lakin subyektiv təcrübənin gerçəkliyi haqqında mühakimə yürüdüləcək iki meyar var. Birincisi, subyektiv təcrübənin arxasında hansı obyektiv reallıq gizlənir? İkincisi, belə subyektiv təcrübəyə daha neçə nəfər malikdir?

Əgər hər iki təcrübə krosovkada pörtülmüş pomidor əhvalatına tətbiq olunsa, nə alınar? Birinci suala sözügedən tələbə belə cavab verərdi: «Mənim subyektiv həyəcanım ondan ibarətdir ki, sağ krosovkamda pörtülmüş pomidor qalıb».

Beləliklə, bunun ardınca ikinci sual gəlir: «Bu sinifdə, bu universitetdə, bu ölkədə, bu qitədə və i.a. neçə insan həmin bu məhəbbəti, sakitliyi, sevinci hiss edib və sağ krosovkalarına pörtülmüş pomidor qoyanda daha tez qaçmağa başlayıb?»

Mən bu sualı verəndə, sinifdə qəhqəhə səsləri eşidildi. Bu, başadüşüləndir. İkinci sualın cavabı aydındır: «Belə insanlar arıq mövcud deyil».

Hər halda, gəlin bunu hər iki meyarı özündə hiss edən məsihçiyə tətbiq etməyə çalışaq.

1. Subyektiv təcrübəmin — həyatımın dəyişilməsinin arxasında hansı obyektiv reallıq gizlənir?

**Cavab: Məsihin şəxsiyyəti və Onun dirilməsi.**

2. Məlum obyektiv reallıqla — İsa Məsihin varlığı ilə bağlı daha neçə insan bu kimi subyektiv təcrübəyə malikdir?

**Cavab: Müxtəlif mənşələrdən, müxtəlif millət və peşələrdən olan milyonlarla insanın həyatı İsa Məsihə iman edəndən sonra yeni səviyyəyə yüksəldi, onlarda sülh, sevinc və məhəbbət əmələ gəldi.**

Məsihçi müraciəti — beynin yuyulub təmizlənməsi ilə aparılan işin nəticəsi deyil.

Hərçənd ki, subyektivdir, məsihçi təcrübəsi obyektiv reallığın əsasında qurulmuşdu və müxtəlif insanlar dəfələrlə onu öz həyatlarında qeyri-adi şəkildə yaşayıblar. Həvari Paul Korinflilərə məktubunda bu təlaşların gücü haqqında yazır:

Aldanmayın: nə əxlaqsızlar, nə bütpərəstlər, nə zinakarlar, nə kişibazlar, nə uşaqbazlar, nə oğrular, nə tamahkarlar, nə sərxoşlar, nə acıdillər, nə də qəsbkarlar Allahın səltənətini miras almayacaqlar. *Sizlərdən bəziləri də bu cür idi. Lakin siz təmizləndiniz, təqdis olundunuz və Rəbbimiz İsa Məsihin Adı ilə Allahımızın Ruhu ilə bəraət qazandınız.*

1Korinflilərə 6:9-11 (kursiv müəlliflərindi).

**Özün əmin ol**

Beynin yuyulub təmizlənməsi haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün, Həvarilərin İşləri kitabından aşağıdakı yerləri oxu və Məsihə iman etməklə həyatı dəyişilən insanın adını, milliyyətini və peşəsini göstər. Birinci sətir nümunə kimi verilib.

| | ADI | MİLLİYYƏTİ | PEŞƏSİ |
|---|---|---|---|
| Həvarilərin İşləri 8:26-39 | naməlum | Həbəşli | Həbəşlilərin mələkəsinin vəziri |
| Həvarilərin İşləri 9:1-9,17-19 | | | |
| Həvarilərin İşləri 10:1-45 | | | |
| Həvarilərin İşləri 16:11-15 | | | |
| Həvarilərin İşləri 16:22-23 | | | |

## 26. Şübhə ola bilməz

Tomasın imansızlığı haqqında uydurma

Zavallı Tomas haqqında daha nələr yazılmadı… Onu daha nələrdə günahlandırmadılar ki… Əlbəttə, onun nüfuzu İsa Məsihi ələ verən Yəhuda qədər pis deyildi. Toması Rəbb çarmıxa çəkilərkən Onu üç dəfə inkar edən Peterlə də müqayisə etmək olmaz. Lakin Tomasa İsanın üç illik xidməti ərzində Onun əhatəsində olan digər şagirdlərə nisbətdə daha az etibar edirdilər.

Özünün şübhə doğuran etibarına görə Tomas, İsanın dirilməsindən sonra baş verən hadisəyə borcludur. Baxmayaraq ki, şagirdlərin

yığışdıqları evin qapıları bağlı idi, Məsih onların yanına gəlmişdi. Lakin Tomas onlarla deyildi. Onlar Tomasa İsanın dirilməsini xəbər verəndə, o, demişdi: «Əgər Onun əllərində mıxlardan qalan yaraları görməsəm və mıxların yerinə barmağımı qoymasam, böyrünə də əlimi salmasam, inanmaram» (Yəhya 20:25).

Ondan sonra İsa Tomasın yanına gəlib dedi: «Barmağını buraya gətir və əllərimə bax; əlini də gətir, böyrümə qoy; imansız olma, imanlı ol» (Yəhya 20:27).

Budur, bir çoxları bu sözləri oxuyan kimi Toması şübhəsinə görə tənqid etməyə başlayırlar. Belə etməklə onlar yaddan çıxarırlar ki, heç bir şagird dirilmənin sübutunu görməyənə qədər inanmamışdı. Bundan başqa, onların hər biri İsanın əllərini və böyrünü görmüşdü. Axı Məsih Tomasa deməmişdi ki, «Sənə şübhə etmək lazım deyildi». Bunun əvəzinə Öz şagirdlərinə sübutu göstərmiş, sonra isə demişdi: «imansız olma, imanlı ol». Nəhayət, artıq hər şeyi öz gözü ilə görəndən sonra Tomas (Müqəddəs Kitabda yazılmayıb ki, Tomas əvvəlcədən istədiyi kimi, əllərini İsanın böyrünə qoyub, ya yox) O, İsaya «Mənim Rəbbim, mənim Allahım!» deyə müraciət edərək tarixdə ən böyük iman etiraflarından birini etmişdir.

Bu və ya digər səbəblərdən biz belə bir nəticəyə gəlirik ki, şübhə — istənilən halda pisdir. «Həqiqi məsihçilər şübhə etmirlər» — deyə biz elan edirik.

Bu uydurmadır.

Şübhə imana zidd deyil; o — imanın əcdaddır. Şübhə imanı məhv etmir; o onun yolunu açır. Tomasın əhvalatında olduğu kimi, çox vaxt şübhə bizi həqiqətə aparan təkan ola bilər.

«İnanın mənə, — Tennison dedi, — iman haqqında olan təlimlərə nisbətən səmimi şübhədə imana daha çox rast gəlmək olar».

«Səmimi şübhələrdə iman bütün dinlərin yarısında çoxdur» — deyə Tennison qeyd edir.

Qordon və Uilyam Braunlar özlərinin «Romalılara məktub: Müjdəyə azadlıq və lütf» kitabları üzərində işlədikləri vaxt əmin oldular ki, «iman həqiqətləri axtarmaq vasitəsilə böyüyür, axtaranlar isə suallar verməlidirlər, suallar isə «səmimi şübhələrdən» yaranır»». Şübhə «*skeptikos*» yunan sözündən olub, mənası «suallar verən» deməkdir. Tomasın imansızlığı haqqında «Həqiqi məsihçi şübhə etmir» əsatiri heç bir müqəddəs kitaba əsaslanmır. Tomasın təcrübəsindən belə bir ibrət almaq olar ki, şübhələr təbiidir, biz öz şübhələrimizdə səmimi ola bilərik və İsa bizə həqiqəti açdığı vaxt bu səmimi şübhələr də bizi imana gətirməlidir.

**Özün əmin ol**

Tomasın imansızlığı haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Lukanın Müjdəsinin 24-cü fəslindən 1-12-ci ayələri oxu. Qadınlar İsanın dirilməsi haqqında xəbəri gətirəndə şagirdlərin reaksiyası necə oldu (2-ci ayə)?

Həmin kitabın 24-cü fəslinin 13-24-cü ayələrini oxu. Xamma kəndinə gedən yolda iki şagird erkən eşitdikləri dirilmə xəbərinə necə reaksiya verdilər? Onlar bunun baş verməsinə inandılar, ya yox?

Növbəti 25-ci ayədən 30-cu ayəyə kimi oxu. Bu iki şagirdin dirilmə haqqında bütün şübhələri necə alt-üst oldu?

Bu fəsildən 36-47-ci ayələri oxu. Dirilmiş Məsihi görəndə şagirdlərin ilk reaksiyası necə oldu (41-ci ayə)? Onlar Onun dirilməsinə necə inandılar (40, 42, 43 və 45-ci ayələr)?

Yəhyanın Müjdəsi 20-ci fəsildən 19-29-cu ayələri oxu. Tomasın «Rəbbim mənim, Allahım mənim» harayına İsa nə cavab verdi? İsa bizim də bunu dərk etməyimizi və Onu Rəbb, Allah kimi qəbul etməyə hazır olmağımızı istəyir.

Bəs sən nəyə şübhə ilə yanaşırsan? İsanın səni şübhələrin vasitəsilə yeni tövbə etmə imanına aparmasından ötrü dua et.

## 27. Ev bitkiləri dualara cavab vermir.

Hər kəsin öz imanı olması haqqında uydurma

Kelli rəfiqəsi Hizerlə mətbəx masası arxasında əyləşmişdi.

«Düşünürəm ki, hər birimiz nəyəsə inanırıq. Demək istəyirəm ki, məsihçilik –bu, hələ hamısı deyil. Əsas odur ki, *sən nəyəsə iman gətirəsən*».

Hizer, sanki bu, ona daha aydın düşünməyə kömək edəcəkmiş kimi qaşlarını çatdı.

«Deyəsən, sən haqlısan, — o dedi. — Əslində məsihçilik də imana görə xilas əqidəsi üzərində qurulmuşdu. Mən belə fərz edirəm ki… — o, sözünə ara verəndən sonra aramla danışmağa başladı. — Mənə belə gəlir ki, nəyə inanmağın vacib deyil. İnanırsansa, bu, artıq bəs edir».

Üzr istəyirəm, Kelli. Üzr istəyirəm, Hizer. Bu, artıq uydurmadır.

Bu yaxınlarda kollecin bir müəllimi sinfin qarşısında bəyan etmişdi ki: «Mən imana güvənirəm. Mən imanın gücünə inanıram. Mən görmüşəm ki, o, həyatı tamamilə dəyişir».

Lakin bu, məsihçilik yox, ekzistensializmdir. Bu ekzistensializmdə əsas dayaq «etiqad»a yönəldilib və nəyə, kimə iman etməyin vacib deyil.

Bir dəfə məni böyük universitetlərdən birində keçirilən debatlarda fəlsəfə fakültəsinin dekanının opponenti səviyyəsində iştirak etməyə dəvət etmişdilər. Debatlar insana iqtisadi gücün məhsulu kimi baxan marksist nəzəriyyəsinə həsr edilmişdi. Çıxışım zamanı qeyd etdim ki,

bir insan kimi mənim üçün tarixi, Müqəddəs Kitaba əsaslanan imanı saxlayan İsanın dirilməsi həlledici əhəmiyyətə malikdir.

«Qulaq asın, Makdauell, — deyə opponent sözümü kəsdi, — iş, axı dirilmədə deyil. Bu hadisənin olub — olmamasının bir o qədər də əhəmiyyəti yoxdur. Vacib olan odur ki, onun olmasına siz *inanırsınızmı*?

«Cənab, siz yanılırsınız, –deyə mən cavab verdim. Əslində iş elə ondadır ki, mənim inandıqlarım həqiqətdir, yoxsa yox. Çünki inandığım şey həqiqət deyilsə, onda mənim məsihçilik imanına hüququm çatmır».

Debatdan sonra mənə bir müsəlman tələbə yaxınlaşdı.

«Cənab Makdauell, mən bir neçə elə müsəlman tanıyıram ki, onların Məhəmmədə olan imanı bəzi məsihçilərin Məsihə olan imanından güclüdür».

«Belə də ola bilər, — deyə mən cavab verdim. Amma əsas məsələ bu deyil. Məslə onda deyil ki, kimin imanı daha güclüdür, əsas məsələ odur ki, kimə inanırsan».

Sizin imanınızın dəyəri iman etməyinizdə yox, kimə iman etməyinizdədir. Ola bilsin, sizin imanınız yer üzündə olan və olacaq bütün insanların imanından güclüdür. Əgər bütün imanınızı otağınızı bəzəyən dibçəyə yönəltmisinizsə, onda Allahla xilas gətirən münasibət qura biləcəyinizə əminsinizmi? Günahlarınızın bağışlanmasına nail olursunuzmu? Bu qədər güclü iman etdiyiniz halda, nə üçün yox? Çünki siz ev bitkilərinə iman edirsiniz!

Digər tərəfdən, əgər imanınız çil ölçüsündədirsə və siz bu imanı İsa Məsihə cəmləyirsinizsə, Allahla xilas gətirən qarşılıqlı münasibət qura bilirsinizmi? Günahların bağışlanmasına nail ola bilirsinizmi? Aşkar surətdə. Bəs fərq nədədir? Fərq ondadır ki, sizin imanın mərkəzində kimə iman etməyiniz durur.

Məsihçi imanı heç də subyektiv deyil. O, şəxsi imandır və tamamilə obyektivdir. Məhz buna görə həvari Paul Korinflilərə 1-ci məktubunda yazmışdı: «Əgər Məsih dirilməyibsə, imanınız da əbəsdir, siz hələ günahlarınızın içindəsiniz (1Korinflilərə 15:17). Paul etiraf edirdi ki, günahlardan azad olmaq üçün subyektiv iman vacib deyil, nə qədər güclü iman etməyiniz də yetərli deyil. Siz İsa Məsihin dirilməsinə iman etdiyiniz zaman, siz iman *vasitəsilə*, lütflə xilas oldunuz (Efeslilərə 2:8 kursiv müəlliflərindi). Sizi iman yox, İsa Məsih xilas edəcək.

**Özün əmin ol**

Hər kəsin öz imanı olması haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Yəhyanın müjdəsi 3-cü fəsildən 16-cı ayəni oxu. Bu ayədə əbədi həyata malik olmanızdan ötrü «Onda» sözünün nə qədər əhəmiyyət kəsb etdiyinə diqqət yetir.

Yəhyanın müjdəsi 8-ci fəsildən 24-cü ayəni oxu. Bu ayədə İsa təkcə *iman etməyin,* yoxsa *Ona* iman etməyin vacib olduğuna işarə edir?

Həvarilərin İşləri kitabının 16-cı fəslindən 30 və 31-ci ayələri oxu. Paulun sözlərinə əsasən, Fillipidə müraciət edilən məhbus nəyə (yaxud kimə) iman etməli idi?

Romalılara məktubun 3-cü fəslindən 22-ci ayəni tap və buraxılmış yerləri açar sözlərlə doldur: «Allahın gerçəkliyi imanla____________________________ hamıya və bütün imanlılara ____________________________».

## 28. Günah, sünilik və Billi Qrem

Elmer Qentri haqqında uydurma

Elmer Qentri — Sinkler Lyuisin eyni adlı məşhur romanının baş qəhramanıdır. Qentri tamahkar, şəhvətpərəst və ikiüzlü, bir şeyi öyrədib başqa cür hərəkət edən bir vəzçi idi. Onun sözü, vəzləri və demək olar ki, bütün həyatı tamamilə hiyləgərlik və fırıldaqlarla dolu idi.

Son vaxtlar məşhur vəzçilərin və kilsə xidmətçilərinin nüfuzunu ləkələyən rüsvayçılıqlarla əlaqədar olaraq, uydurulmuş Elmer Qentri adı tez-tez xatırladılır. Hamıya Cim Bekkerin kəbinsiz əlaqələri və sonradan bu rüsvayçılığı ört-basdır etmək cəhdləri məlum olanda, onun şöhrəti biabırçılığa çevrildi. Baş verənləri öyrənən Cimmi Svoqqart Bekker haqqında mənfi fikirlər söylədi. Lakin onun sözləri dərhal onu pornoqrafiya şövqündə etiraf etməyə məcbur etdikdən sonra, şayiəyə çevrildi. Dövri mətbuatı cəlb edən bu və başqa qalmaqalların sayəsində artan diqqət, bir çoxlarının Elmer Qentri haqqında əsatirə inanmasına səbəb oldu. Beləlıəri vəzçilərin böyük əksəriyyətinin, məbəd xidmətçilərinin və məsihçi liderlərinin pozğun və ikiüzlü olmasına inanmağa başladılar.

Bununla belə, bu kimi hadisələrin ətrafında hay-küy salan qəzetlər, jurnallar və televerilişlər nədənsə fədakarlıqla və sədaqətlə Allaha xidmət edən və xidmətini davam etdirən müjdəçilərin və vəzçilərin üstündən sakitliklə ötürdülər. Cimmi Svoqqartın günahı və laxlamış vəziyyətini təsis etməkdən ötrü göstərdiyi təşəbbüslər, Billi Qremin məbədin rifahı naminə əlli illik fədakar əməyi fonunda sadəcə saralıb solmuşdu. Onun təbliğini milyonlarla insan eşitmişdi, lakin həyatı heç vaxt öyrətdiyinin ziddinə getməmişdi. Lakin buna baxmayaraq, Qrem

etiraf etmişdir ki, xidmətinin lap başlanğıcından o, hansısa əməli ilə Allahı təhqir etməkdən qorxub, indi də bundan qorxur.

Billi Qrem, Lui Palo, Çarlz Kolson, Doson Makallister və Çarlz Suindoll — həyatları ilə bilavasitə öyrətdiklərini əks etdirən çoxlu sayda məsihçi liderlərindən yalnız bir neçəsinin adlarıdır. Təəssüratlar ona yönəlir ki, cəmiyyətimiz Elmer Qentri haqqında əsatirə, vəzçilər və məbəd xidmətçiləri arasında tamamilə riyakarlığın olmasına məmnuniyyətlə inanırlar. Lakin bu uydurmadır.

Həvari Paul birinci əsr məsihçilərinə xəbərdarlıq edirdi ki «...sizin aranızda yanlış təlim yayanlar ortaya çıxacaq». O, həmçinin əlavə edirdi ki, «onların üzündən həqiqət yoluna küfr ediləcək» (2Peter 2:1, 2). Məhz bu səbəbdən iblis Elmer Qentri haqqında uydurmanın yayılmasına çalışaraq əlindən gələni əsirgəmir. O, istəyir ki, həqiqət küfr olunsun, başqalarının ikiüzlülüyü və günahı üzündən Allaha xidmət edən kişi və qadınların təbliğləri etibardan düşsün.

Bununla belə, baxmayaraq ki, başqaları bunu edə bilir, həqiqət həmişə həqiqət olaraq qalır. Biz onsuz da xilası Allahın mərhəməti və İsa Məsihə imanımız vasitəsilə alırıq. Allah əvvəlki kimi «sizi büdrəməkdən qorumağa, Öz izzətinin hüzuruna böyük sevinclə ləkəsiz çıxarmağa» qadirdir (Yəhuda 24).

Beləliklə, Peter deyir: «…siz, ey sevimlilər, bunu əvvəlcədən bilib pozğun adamlar sizi aldadaraq yoldan azdırmasın və sabit vəziyyətinizdən ayrılmayasınız deyə özünüzü qoruyun. Lakin Rəbbimiz və Xilaskarımız İsa Məsihin lütfündə və Onu tanımaqda böyüyün. Ona indi və əbədi olaraq izzət olsun! Amin» (2Peter 3:17,18).

### Özün əmin ol

Elmer Qentri haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Filipililərə məktubun 1-ci fəslindən 15-18-ci ayələri oxu. «Məsihi natəmiz vəz edənlər» haqqında Paul nə deyir? Onun fikrincə, hər şeydən vacib olan nədir?

Korinflilərə 2-ci məktubun 11-ci fəslindən 3-15-ci ayələri oxu. Paul ondan ehtiyat edirdi ki, korinflilər «Məsihçi həvarilərin görünüşündə qəbul etdikləri» yalançı həvarilərin ardınca gedərək, «Məsihdəki sadəlikdən yan çevirirlər». Paulun sözlərinə görə baş verənlər nə üçün onu təəccübləndirmir?

Korinflilərə 1-ci məktubun 4-cü fəslindən 16 və 17-ci ayələri oxu. Paul başqalarından ona oxşamalarını xahiş etməyi əsas götürürdü. Nə üçün o, belə əminliklə bu barədə xahiş edirdi? (17-ci ayəyə bax).

Görkəmli məsihçi liderlərin rüsvayçılığını görəndə, Paulun dediyi kimi, özümüzü ehtiyatlı aparmalıyıq. Korinflilərə 10-cu fəsildən 12-ci ayəni oxu. Bu ayələrə əsasən, bu faciələr bizə necə təsir etməlidir?

## 29. Hiyləgər ilanın vədi

«Yeni era» hərəkatı haqqında uydurma

/Maykanın üzərindəki yazı: «Allah necə olmaq olar?» İlanın sözləri: «Səndə alınmalıdır»/

Mağazalardan birində qıvrımsaçlı, soyuq simalı bir qadın rəfiqəsinə özünün «ovsunlu kristal kvars»ının ecazkar şəfaverici gücündən danışırdı. «Bax, bir ildən artıqdır ki, mən nə zökəm oluram, nə də ki, bir dəfə də olsun başım ağrıyıb» — deyə o, xəbər verirdi.

Sakit, xoş görkəmli bir kişi əmin edirdi ki, musiqi səslərinin və rəsmlərin köməyi ilə heyvanlar aləminin bəzi nümayəndələri ilə (balinalarla, delfinlərlə, quşlarla) ünsiyyət qura bilər.

Yüksək vəzifəli cazibədar bir kişi qədim çin prinsiplərinin qərara alınmasına rəhbərlik edir. Yetmiş bir yaşı tamam olmuş mehriban nənə isə on birinci əsrdə Roma katolik kilsəsinin rahibəsi olması haqqında «xatirələrini» bölüşür.

Quru, yad planetdən gələn, hipnoz, mistik proyeksiyalar, şərq fəlsəfəsi — burada daha nələr yoxdur ki… «Yeni era» hərəkatı (qısaca olaraq «YE») — bu, çox güman, Şirli Makleynin «Qurtaracaqda» (Out on a limb) adlı kitabının (və televerilişlər silsiləsi) sayəsində qeyri-adi şəkildə məşhurlaşan müxtəlif ideya və etiqadların yığımından ibarətdir.

«YE» hərəkatı nə din, nə də ki, hansısa bir qrupdur. Bu, əhval-ruhiyyə, dünyagörüşüdür. O özündə müxtəlif ideya və anlayışları birləşdirir. Baxmayaraq ki, «YE» hərəkatının nəyi təmsil etdiyini bir cümlə ilə ifadə etmək mümkün deyil, amma onu ardıcılları üçün səciyyəvi olan eyni etiqada parçalamaq olar. Onlar fərz edirlər ki, Allah hər şeydə iştirak edir və biz hamımız Allahıq. Düşüncələrimizi dəyişməklə özümüzdə bu «allahı» (onunla birgə və məhdudiyyətsiz mümkünlükləri) axtara bilərik.

Bu uydurmadır.

«Yeni era» hərəkatında indiki məqamda inanılmaz məşhurluğu ilə ona həsr edilmiş televerilişlər və çox geniş tirajla tez satılan kitab silsilələrindən başqa yeni bir şey yoxdur. Onun kökü Eden bağına gedib çıxır.

Yaradılış kitabında iblisin ilan simasına girərək Adəm və Həvvaya qadağan olunmuş meyvədən yeyərlərsə, «xeyir və şəri bilən allahlar kimi» olacaqlar vədi verməsi haqqında yazılıb. Lakin yarımhəqiqəti icad edən iblis onları aldatdı. Baxmayaraq ki, onlar xeyir və şəri

bildilər (günaha yıxılmayanadək ancaq xeyiri bilirdilər), amma Allah kimi olmadılar.

«YE» hərəkatı birbaşa olaraq şəhadət edir ki, insanlar əvvəlki kimi eyni səhvləri edirlər. Dörd yüz il bundan əvvəl Monten qeyd etmişdir ki, «İnsan, həqiqətən də, ağılsızdır. O, hətta ən kiçik bir şey belə yarada bilməsə də, düşüncələrində allahlar yaradır».

Lakin Allah Kəlamı göstərir ki, «YE» hərəkatı ideyası uydurmadır. İsa haqqında olan bu sözləri oxumaq kifayətdir: «Allahın surətində olduğu halda, O, Allaha bərabərliyi, imtinası mümkün olmayan bir haqq saymadı. Lakin Özünü heç edərək, qul surətinə salıb, insanlara oxşar oldu. Görkəm etibarı ilə də insan kimi, O Öz təvazökarlığını göstərdi və ölümədək, hətta çarmıxa çəkilməklə ölümədək itaətkarlıq etdi» (Filipililərə 2:6-8).

Müqəddəs Kitabın heç nə ilə müqayisə edilməyən Xoş Xəbəri insanların allahlara bənzər olmasından ibarət deyil. Xoş Xəbər ondan ibarətdir ki, Allah «insana bənzər» olmuş və əbədi həyata malik olmağımızdan ötrü günahlarımıza görə ölmüşdür.

**Özün əmin ol**

«YE» hərəkatının cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir

Yaradılış kitabının 3-cü fəslindən 1-7-ci ayələri oxu. Qadağan olunmuş meyvədən yesələr, iblis Adəmlə Həvvaya nəyi vəd edir (5-ci ayə)? Onlar meyvəni yedikləri vaxt bu iki vəddən hansı yerinə yetirildi (7-ci ayə)? Onların allahlara bənzər olması vədi yerinə yetirildimi?

Həvari Barnaba və Paulun başına gələnləri oxu (Həvarilərin İşləri 14:8-18). İzdiham onların insanlara şəfa verməsinə necə reaksiya

göstərdi (7-ci ayə)? İzdiham bu iki böyük missioneri allah adlandıranda onlar nə cavab verdilər (14-cü ayə)? «YE» hərəkatı üzvlərinin düşüncələrini dəyişməklə allah ola bilmələri bəyanatına Paul və Barnaba necə cavab verərdilər?

Həvarilərin İşləri kitabının 12-ci fəslindən 21-23-cü ayələri oxu. Xalq Hirodun nitqinə necə cavab verdi (22-ci ayə)? Onların tapdıqları «allahın» başına nə iş gəldi (23-cü ayə)?

## 30. Bütün bunlar nə üçün başıma gəlir?

Xoşbəxt həyat haqqında uydurma

On yeddi yaşlı məsihçi Sindi dərsdən asudə vaxtlarında işlədiyi restorandan cümə günü gecəyarı öz maşınında evə qayıdırdı. Birdən onu dəhşət bürüdü — yolun ortası ilə düz üstünə bir maşın sürətlə şütüyürdü. Sindi dönməyə çalışdı, lakin qarşıdan gələn maşın onun «Şevrolet»i ilə toqquşdu. Aldığı zərbədən Sindi öldü. Onun ölümünə səbəb olan maşının sürücüsü sərxoş idi.

İki yaşlı Vera onu arı sancan vaxt evlərinə yaxın bağda oynayırdı. Qızın üzü o andaca şişdi. Anası həmin an bunun nə qədər təhlükəli olduğunu başa düşdü və onlar xəstəxanaya qaçdılar, lakin gecikdilər. Vera yolda öldü. Onun valideynləri başa düşmədilər ki, arı sancmasından uşaqda allergiya olub.

Ən aşağı təbəqəyə məxsus hindli qadının uşağı doğuldu. Dörd aylıq ömrünün bütün gününü o, karton qutuda keçirtdi və elə zəiflikdən də oradaca öldü. Anası isə iki ay sonra dünyasını dəyişdi.

Həyatda çoxlu ədalətsizliklər olur: uşaqlar ölür, yaxşı insanlar iztirab çəkir, bəzi məsihçilər dözülməz əzab-əziyyətin acısını yaşayırlar. Əzablara qatlaşan bu yaxşı insanlar çox vaxt deyirlər:

«Bütün bunlar nə üçün mənim başıma gəlir? Mən buna layiq deyiləm. Bu ədalətsizlikdir».

İnsanlar bu sualı nəsildən nəslə, ta Müqəddəs Kitabda rast gəlinən qədim patriarx Yəhya dövründən başlayaraq, «Yaxşı insanlara bədbəxtçilik üz verəndə» kitabını yazan ravvin Qarold Kuşnerə qədər verirlər.

Bu sualın əsasında belə bir fikir dayanır ki, yaxşı insanlar, xüsusilə məsihçilər mübarizələrdən, kədər və məşəqqətlərdən azad bəxtiyar həyat yaşamalıdırlar.

Lakin bu uydurmadır.

Allah heç vaxt məsihçilərlə xoşbəxt həyat vəd etməyib. O, heç vaxt həyatın asan olacağını, yaxud yaxşı adamlar üçün yalnız xoş hadisələr hazırlandığını deməyib. O Onu sevən və Ona xidmət edənlər üçün rahat və şirin həyat zəmanət verməyib.

Lakin əsrlər boyu insanlar məhz bu cür düşünüblər. Hərçənd, Allahın Sözünü diqqətlə oxusaq görərik ki, bu fikirlər yanlışdır.

Şagirdləri İsaya insanların nə üçün əzab çəkməsi ilə bağlı ənənəvi sual verdilər. Onlar Ona anadangəlmə kor olan insan göstərdilər.

«Rəbbim! — onlar Ondan soruşdular. — Onun kor doğulması üçün kim günah işlətmişdi, özü, yoxsa ata-anasımı?»

İsa cavab verdi: «Nə özü günah işlədib, nə də ata-anası…» (Yəhya 9:2,3) və insanı sağaltdı.

Bunu dünyada baş verən əksər bədbəxtçiliklər haqqında da demək olar. Bəzi insanlar etdikləri əməllərə görə əziyyət çəkirlər. Məsələn, mağazadan oğurluq edən və buna görə həbsxanaya düşən kişi kimi. Kimsə başqasının işlətdiyi günaha görə əziyyət çəkir. Məsələn, valideynləri kokain qəbul etdiyinə görə patologiya ilə doğulan körpə kimi. Lakin yer üzündə əzabların böyük əksəriyyəti «nə özü günah işlədib, nə də valideynləri» kateqoriyasına daxildir.

Allah dünyanı yaradanda, O, yerin cazibə qüvvəsi və ya hərəkət qanunu kimi təbiət qanunlarını da yaratmışdı. Biz bu qanunlara əsasən yaşayırıq. Lakin hərdənbir bu qanunların qurbanlarına çevrilirik. Bəzən yerin cazibə qanunun əsasında içi adamlarla dolu təyyarə yerə çırpılaraq parçalanır. Bəzən isə hərəkət qanunu faciələrin baş verməsinə səbəb olur, məsələn, avtomobil toqquşması kimi. Allah yaxşı insanlara görə təbiət qanunlarını dəyişmir.

Həqiqətən, həyatda çox ədalətsizliklər var. Fəlakətlər, xəstəliklər, faciələr, ölüm — bunların heç biri məsihçilərdən yan keçmir. İsanın hər şeydən əvvəl şagirdlərinə verdiyi vəd təxminən belə səslənir: «Dünyada kədəriniz olacaqdır». Lakin eyni zamanda O, məsihçilərə əminlik də verir: «Cəsur olun: Mən dünyaya qalib gəldim» (Yəhya 16:33).

Məsihçilər əzab-əziyyətlərdən azad deyillər. Lakin bununla belə, onlar buna hazırlanmışlar, çünki «Mən dövrün sonuna qədər hər gün sizinləyəm» deyən Kəs həmişə onlarladır (Matta 28:20).

**Özün əmin ol**

Xoşbəxt həyat haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Müqəddəs Kitabdan növbəti açıqlamaları oxu. İztirab çəkən adamı və ya xalqı müəyyənləşdir. Onlar nə üçün iztirab çəkirdilər? Allah onları əzab-əziyyətdən və kədərdən azad etdimi? O onlar üçün nəsə etdimi?

Həvariləri işləri 4:1-13, 21

______________________________________________

Luka 23:32-43

______________________________________________

1Korinflilərə 6:4-10

2 Korinflilərə 12:7-10

# Həyat və xoşbəxtlik haqqında uydurmalar

## 31. Varlıdırlar, deməmk, xoşbəxtdirlər

Xoşbəxtliyin var-dövlətdə olması haqqında uydurma

/Televizordan eşidilən səs: Bizim brilyantla bəzədilmiş kartoftəmizləyənimizi almaqla siz nəhayət ki, xoşbəxtliyə nail olacaqsınız. 29,99 $ 1-800-ə indi zəng edin!/

Uşaqlar, bu adamın hər şeyi vardı.

Vaxtilə dostum Riççi məktəbi atmışdı. Ona görə yox ki, oxumağa qabiliyyəti çatmadı. Ona görə ki, təhsil haqqında diplom olmadan da külli miqdarda pul qazanmağın mümkün olduğunu anlamışdı. O, boğanaq sinif otağını buraxıb, on altı yaşlı gənc oğlana çoxlu pul verən zavoda işə düzəlmişdi.

Bu iş ona mənim yalnız arzu edə biləcəyim bazarlığı etməyə imkan verirdi. O, «Cip» maşını ilə palçığı yarır, aeroxizəyində böyük sürətlə irəliləyir, motorlu qayğı ilə göldə üzürdü. O, pulları sağa-sola səpələyirdi.

Etiraf etmək lazımdır ki, mən ona həsəd aparırdım. İlk vaxtlar. Lakin tezliklə onu zavoddan qovdular və qazanc yeri kəsildi. Qazancla yanaşı o, qalan hər şeydən — aeroxizəyindən, qayığından, xizəkli tırtıllı avtomobilindən məhrum oldu. Riççi hər şeyini itirmişdi. Amma ən pisi o idi ki, onun bütün həyatı kəlləmayallaq olmuşdu. Xoş güzəranını çoxaltmaq ideyası onun canına elə hopmuşdu ki, həyatının məqsədi həddindən çox əşyalar əldə etmək idi. Elə ki, qayıq aldı, həmin andaca növbəti bazarlığı planlaşdırırdı. Riççi xoşbəxtliyin var-

dövlətdə olması, yetərincə dəyərli şeyləri əldə etməklə xoşbəxtliyin durmadan sənə tərəf irəliləyəcəyi uydurmasına «satılmışdı».

Tez və ya gec belə fikirlər hamımızda yaranır. Eymos adlı səkkizinci sinif şagirdi bu yaxınlarda mənimlə dərdləşəndə bildirdi ki, həyatda nə işlə məşğul olacağını və hansı sənəti seçəcəyini hələ müəyyənləşdirməyib. Ən başlıcası, özünə bahalı maşın və şəhərin nüfuzlu yerindən mənzil almaq üçün çoxlu pul qazanmalı olduğunu şübhəsiz ki, yaxşı bilirdi.

Bütöv bir reklam sənayesi bu uydurmanı müdafiə etmək üçün çalışır. Televiziya, radio, jurnallar hansısa əşya olmadan yaşamağın qeyri-mümkünlüyü haqqında daim sizə xəbərdarlıqlar edirlər: «Svotç», «Kelvin Klyayn», «Pontiak», «Filips» (həyatımızı yaxşılığa doğru dəyişək), «Cordaş», «Soni», «Meybellin» (hamı sənə heyrandır), lazer pleyerlər, videomaqnitofonlar, tırtıllı avtomobillər, virtual reallıq və «Em, Ti, Vi». Reklam təşkilatları sizi hansısa əşyaları əldə edərək xoşbəxt olacağınıza inandırmaqdan ötrü yorulmadan işləyirlər.

Deyək ki, belədir. Bəs xoşbəxtliyə nail olmaq üçün nə qədər pul lazımdır? Hansı markalı maşın sizin bütün arzularınızı həyata keçirmiş olacaq? Əgər bütün arzularınız indi gerçəkləşmiş olsaydı, əllərinizi silkələyərək deyə bilərsinizmi: «Of-f! Bitdi daha! Kifayətdir!» Yoxsa ki, növbəti siyahını hazırlamağa başlayardınız?

Ruhun qılıncı və Allahın Sözü birbaşa deyir ki, xoşbəxtlik var-dövlətdə deyil. Bu uydurmadır. Müjdəçi Luka İsanın xəbərdarlığı barədə yazır: «…tamahkarlıqdan özünüzü saxlayın, çünki insan həyatı onun var-dövlətinin çoxluğundan asılı deyildir» (Luka 12:15).

Paulun Filipililərə məktubunda yazdığı sözlər də bizə göstərir ki, bu insan xoşbəxtliyi harada tapmağı bilirdi. Bu, onda var idi. O, şadyanalıqla qışqırırdı: «Rəbdə olduğunuz üçün sevinin; və bir də deyirəm: sevinin!» (Filipililərə 4:4) Filipililərə yazılan qısa məktubda

«sevinc» və «sevinin» sözləri düz on yeddi dəfə xatırladılıb. Şübhəsiz, Paul xoşbəxtliyi harada tapmaq mümkün olduğunu yaxşı bilirdi.

Amma bir dəqiqə… Bu məktubun birinci fəslinə nəzər salsaq görərik ki, Paul sevinc və xoşbəxtlik haqqında olan bu sözləri həbsxanada olarkən yazmışdı (12-14-cü ayələr). Bizim təsəvvürümüzə görə onun heç bir şeyi yox idi. Nə «Svotç»dan olan saatı, nə «Cip», nə «Corc» cinsi, hətta pleyeri də yox idi. Lakin o, xoşbəxt idi. O deyirdi: «yaşadığım şəraitdən məmnun qalmağa alışmışam. Mən yoxsulluq şəraitində də, firavanlıq şəraitində də yaşamağı bacarıram. Hər şeydə və hər şəraitdə tox olmaq və ac qalmaq, firavan yaşamaq və ehtiyac duymaq sirrini öyrənmişəm. Məni möhkəmləndirən (Məsih) vasitəsilə hər şeyi etməyə qadirəm» (Filipililərə 4:11-13).

Xoşbəxtlik nəyə malik olmağından asılı deyil. Əslində həqiqi xoşbəxtliyin zahiri heç nə ilə bağlılığı yoxdur. Məsihçi varlı və ya kasıb olmasından, ətrafında tufan coşur və ya tam sakitlik olmasından asılı olmayaraq sevinə bilər. Bunun səbəbi İsa Məsihin bizə verdiyi daxili vəziyyətimiz, ruhani dünyamız və sakitçiliyimizlə əlaqələndirilir.

**Özün əmin ol**

Xoşbəxtliyin var-dövlətdə olması haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Timoteyə birinci məktubun 6-cı fəslindən 9-cu ayəni oxu. Orada zənginliyə can atanlar haqqında nə yazılıb?

Timoteyə birinci məktubun 6-cı fəslindən 3-5-ci ayələri oxu. Paul bu ayələrdə Allah yolunun gəlir mənbəyi olduğu haqda düşünən adamlar haqqında danışır.

Bu fəslin 6-cı ayəsində Paul var-dövlətə can atmağı digər mövqedən izah edir. Onun sözlərinə əsasən, «ən böyük mənimsəmə» nədən ibarətdir?

İbranilərə məktubun 13-cü fəslindən 5-ci ayəni oxu. Bu ayədə malik olduqlarından məmnun olmağın səbəbi göstərilib. Bu hansı səbəbdir? Özündə olanlarla kifayətlənmənin Allahla nə əlaqəsi var?

Lukanın müjdəsinin 6-cı fəslindən 38-ci ayəni oxu. İsa bu ayədə acgözlük haqqında nə deyir? Bəs əliaçıqlıq haqqında? O, var-dövlət, yaxud Onun Sözünün nələrdən üstün olduğu haqda nə deyirdi? İndi isə sənə görə xoşbəxtlik üçün lazım olanları sadala. Səmimi olmağa çalış. Sadaladıqlarının hansı puldan asılıdır?

## 32. Həyasızlıq və zirək Dodcer

Leo Durçerin uydurması

/Beysbolçunun sözü: «Qaydalara görə oynayan finişə sonuncu çatar!»/

«Zirək» Leo Durçer XX yüzilliyin 30-40-cı illərində bir müddət Bruklinlilərin «Dodcer», Nyu-Yorkun «Yanki», Sinsinatların «Redsi» və Sent-luisin «Kardinal» komandalarına qarşı oynamışdır. Bundan əlavə, o, ən yüksək liqada müvəffəqiyyət qazanmışdı. Ola bilsin, Durçer tündməzac xasiyyətinə və davranışına haqq qazandıran həyat prinsipləri ilə daha çox şöhrət qazanmışdı. Bu prinsip belə səslənirdi: «Qaydalara görə oynayan finişə sonuncu çatar».

İntriqaçı Durçer komandanın meneceri kimi Milli liqada üç dəfə mükafata layiq görülmüşdü. Onun komandasının oyun tərzi çox vaxt

onun özünə oxşayırdı. O, fərz edirdi ki, qələbə qazanmaq istəyən insan dalaşmalı, cırmaqlaşmalı, dişləməli, gücü çatana qədər döyməli, itələməli və başqalarını incitməlidir.

Lakin bu uydurmadır. Leo Durçerin uydurmasıdır. Belə bir uğurla o, C. R. Evinq, yaxud Ancela Çenninq əsatiri adlandırıla bilər. Amma necə adlandırsan da, onsuz da uydurma olaraq qalacaq.

IV Orel Leonard Herşişer 1988-ci ildə keçirilən dünya çempionatında Los-Ancelisin «Dodcers» komandasının birinci dərəcəli pitçeri (top ötürən) kimi göstərdi. Həmin ildə o, seçmə oyunlar çərçivəsində iyirmi üç oyun oynadı. Bundan əlavə, heç bir xal itirmədən əlli doqquz dəfə digərinə top ötürməsinə görə dünya rekordunu təzələdi. Bununla yanaşı, çempionlar liqası çərçivəsində «Nyu-Yorkun «Mets» komandasına qarşı və beysbol üzrə ildə bir dəfə keçirilən ABŞ çempionatında Oklendin «Eysilər» komandası üzərində «Dodcer»in qələbəsinə görə ən yaxşı oyunçu kimi mükafata layiq görülmüşdü. Eyni zamanda onu yetər səslə Milli liqanın ən yaxşı ötürücüsü seçmişdilər.

Orel qaydalara görə oynayan oyunçulardan idi. O, məsihçi idi. Heç bir bal itkisinə yol vermədən top ötürmə silsiləsindən dünya rekordu vuranda, o, dizləri üstə əyilib Allaha minnətdarlıq etmişdi. ABŞ çempionatının final oyunundan sonra soyunma otağında müxbirə müsahibə verərkən bildirmişdi ki, oyun meydançasında sakitləşmək və fikrini bir yerə cəmləşdirməkdən ötrü özü haqqında himn oxuyurmuş. Həmin gecə Milli televiziyadakı çıxışındı isə demişdir: «Baxmayaraq ki, bu, dini veriliş deyil, amma mən Allaha təşəkkür etmək istəyirəm». Baxmayaraq ki, növbəti mövsümdə çiynindən aldığı zədə idmançı karyerasına son qoydu, onun beysbol sahəsindəki nailiyyəti istedadının və müvəffəqiyyətə doğru yolda gərgin əməyinin şəhadəti kimi hər zaman rekordlar kitabında qalacaq.

Əgər qaydalara görə oynayan finişə sonuncu çatırsa, bəs Orel bu qədər nailiyyətə necə nail ola bilmişdir?

Müqəddəs Kitab — Ruhun Mübarizəsi Leo Durçer uydurmasını heçə endirir, axı o, yalan üzərində qurulmuşdu.

Leo Durçer uydurması bəyan edir: «Qaydalara görə oynayan finişə sonuncu çatar». Amma Müqəddəs Kitabda deyilir: «Həlimlər nə bəxtiyardırlar, çünki yeri miras alacaqlar» (Matta 5:5).

Leo Durçer uydurması bəyan edir: «Yumruğunla özünə yüksəkliyə doğru yol aç». Allahın Kəlamında yazılıb: «Rəbbin önündə özünüzü aşağı tutun, O da sizi ucaldacaq» (Yaqub 4:10).

Leo Durçer uydurması bəyan edir: «Tərifini göylərə qaldır. Başqalarının qarşısında özünü göstər. Əgər istədiyinə nail olmusansa, onda başqalarına necə yaxşı bir insan olduğunu göstər». İsa deyir: «Çünki özünü yüksəldən hər kəs aşağı tutulacaq, özünü aşağı tutansa yüksəldiləcək» (Luka 14:11).

Əlbəttə, bəzən qaydaya görə oynayan, həqiqətən, finala sonuncu çatır. Lakin bu qaydanı pozanlar da geri qalanlar sırasında olurlar. Karyerası ərzində Durçer ən yüksək liqada komandanın meneceri kimi üç dəfə mükafata nail olmuşdur. Lakin iyirmi bir dəfə bu, ona nəsib olmamışdı. Hətta bir dəfə komandası sonuncu yeri tutmuşdu.

Lakin bəzən Orel Herşişer kimi gərgin zəhmət, inadcıllıq, qətilik və ciddilik qaydaya görə oynayanların finişə birinci çatmasına kömək edir. Bu, baş verəndə isə qələbənin düzgün yolla əldə edilməsinə əminlik artmış olur.

### Özün əmin ol

Leo Durçer uydurmasının cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Yaradılış kitabının 39-cu fəslinin 1-6-cı ayələrini oxu. Yusif Misirə qul kimi satılmasına baxmayaraq, misirli Potifarın evində vacib bir insan oldu (nəticədə mühafizəkar rəis Potifarın da üzərində ucaldı). Belə bir yüksək səviyyəyə Yusif necə nail oldu?

2Padşahlar kitabının 1-ci fəslindən 1-12-ci ayələri oxu. Burada Davudu İsrailin hökmdarı olmasına gətirib çıxaran hadisələr yazılıb. O, «qalib» kimi qalmasına necə münasibət bildirdi?

Lukanın müjdəsinin 14-cü fəslindən 7-11-ci ayələri oxu. İsanın söylədiyi məsəllər nəinki böyük müdrikliyi, həm də sağlam düşüncəni əhatə edir. Bu məsəlləri öz sözlərimizlə necə deyə bilərik? «Yaxşısı budur özün haqqında ___________ fikirləş, sənin ____________ düşünməyindənsə, qoy sən haqlı olmayasan, sonda hər şey əksinə ola bilər».

## 33. Zəiflərlə, iradəsizlərlə, talançılarla yoldaşlıq etmirik

Fariseylərin uydurması

Belələrinə Amerikanın istənilən məktəbinin dəhlizində rast gəlmək olar. Zəiflər, çirkli meymunlar, qırxıq başlar. Ləqəblər dəyişə bilər (sizin Los-Ancelesdə və ya Des-Moinesdə yaşamağınızdan asılı olaraq), amma bu, vəziyyəti dəyişmir. Münasib və qeyri-münasib dəstələr var. Qeyri-münasib dəstəyə düşməmək üçün son dərəcə ehtiyatlı olmaq lazımdır.

Aşağıda verilən bir neçə məlumat dəstələri «münasib»i və «qeyri-münasib»i ayırd etməkdə sizə kömək edəcək.

**Zəiflər, iradəsizlər, kütbeyinlər, dil anlamazlar:** geyim üslubunun olmaması (zövqsüz şəkildə damaların millərlə

uyğunlaşdırılması). Oğlanlar kəpənək-qalstuk və yaxud qısa dar tuman geyinirlər. Riyaziyyat və təbiət elmləri doğrudan da onların xoşuna gəlir.

**Qırxıq başlar, kütbeyinlər, tərbiyəsizlər:** hərbiləşdirilmiş tiplər. Silah aludəçiləri. Növbəti müharibəni gözləyə bilmirlər. Sonsuzadək «Döyüşdə» və «Yeni əsgərlərin keşikçi dəstəsi» filmlərinə baxmağa qabildirlər.

**Çirkli meymunlar və avtomanlar:** Onlar «Bu körpə bala səkkiz dəqiqəyə altmışa qədər sıxa bilər» (Deməli, belə? Bu körpə balanınsa kapotunun altında 454-dür») kimi söhbətlər edəndə, maşın haqqında «körpə bala» ifadəsini işlədirlər.

**Hoqqabazlar:** səciyyəvi hoqqabaz oyun zolağında bir ayağı üstə dönə, iri kitabın məzmununu əzbərdən yadda saxlaya və ya kompüter kimi statistik məlumatlar verə bilər. Lakin ondan nəsə başqa bir şey haqqında soruşun və onun ağlının qapı dəstəyindən artıq olmadığı görünəcək.

Əlbəttə, bu siyahını daha da uzatmaq olar: bacarıqsızlar, əzbərçilər, uydurmaçılar, narkomanlar. Əslində elə insanlar var ki, onlarla yanaşı durmaq olar, amma elələri də var ki, qəbirdə belə yanaşı uzanmasan yaxşıdır! Bütün bunlar ona görədir ki, əgər sən iradəsizlə yoldaşlıq etsən, onun «iradəsizliyi»ndən sənə də nə isə keçə bilər. Yaxud bəziləri səninlə onun arasında əlaqə yaratmağa çalışacaqlar. Sən buna yol verə bilməzsən, axı. Elə deyilmi?

İsa da eyni problemlə üzləşmişdi. O, ruhani idi. Ruhanilər isə yalnız müəyyən çevrənin adamları ilə — əsasən özləri kimi ruhanilər və «son dərəcə dindar» adamlarla ünsiyyətdə olurdular. Fariseylər isə xüsusi ciddi qaydalar işləyib hazırlamışdılar. Bu qaydalara əsasən bir qisim insanlar münasib, digərləri isə qeyri-münasib dəstənin adamları hesab olunurdular. Lakin İsa bu qaydaları pozdu. O, qeyri-münasib kompaniya ilə ünsiyyətdə olurdu. O, vergiyığanlarla bir yeyib içirdi.

Cüzamlı xəstə ilə təmasda olurdu. Samariyalı qadınla söhbət edirdi (bu isə ikiqat haram sayılırdı).

Nəticədə İsa ələ salınır və tənqidlərə məruz qalırdı. O, fariseylərin uydurmasına elə etinasızlıqla yanaşırdı ki, Onun haqqında demişdilər: «Budur, qarınqulu və şərab düşkünü İnsan — vergiyığanların və günahkarların dostu!» (Luka 7:34)

İsa isə bu ələ salmalara etinasızlıq göstərirdi. Axı sonda məlum oldu ki, Onun sadiq dostlarının çoxu qeyri-münasib kompaniyadan çıxmışdılar. Mənfur vergiyığan Matta Onun sadiq on iki şagirdindən biri oldu. İsa tərəfindən sağaldılan kasıb kor yolçu fariseylər qarşısında cəsarətlə Onun haqqında şəhadət etdi. Canından yeddi cin çıxartdığı Məcdəlli Məryəm də İsa çarmıxa çəkildiyi vaxt Onu tərk etməyənlərin sırasında idi.

Kim bilir? Ola bilsin məktəbinizdəki zəiflər, başı qırxıqlar, çirkli meymunlar arasında dostlarınıza rast gələcəksiniz? Əlbəttə, siz nələrdənsə vaz keçməli olacaqsınız. Lakin bunun sayəsində nəyəsə nail olacaqsınız.

Axı İsa sizə demişdi: «…Sizə dostum dedim… Siz məni seçmədiniz. Mən isə sizi seçdim və gedib məhsul verəsiniz və məhsulunuz baqi olsun deyə sizi təyin etdim ki, Mənim adımla Atadan hər nə istəsəniz sizə versin. Bir-birinizi sevəsiniz deyə bu şeyləri sizə əmr edirəm» (Yəhya 15:15-17).

### Özün əmin ol

Fariseylərin uydurmasının cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Müjdələrdə İsa nahar vaxtı süfrə başında əyləşən arzulanan qonaq kimi qarşımızda durur. Növbəti ayələri oxu və Onun kimləri özünə dost hesab etdiyinə diqqət yetir.

Matta 9:9-13

___

Mark 14:3

___

Luka 7:36

___

Lukanın müjdəsinin 19-cu fəslindən 1-10-cu ayələri oxu. İsa heç nəyə baxmayaraq, «vergiyığandan» və «günahkarlardan» kənar gəzmədi. O Özünü onlar kimi aparmadı. İsa ilə Zəkəriyyənin tanışlıq əhvalatı artıq sənə məlumdur. Necə düşünürsən, Kim kimə təsir edə bilmişdir? Bu əhvalatdan özün üçün hansı nəticəni çıxarırsan?

## 34. Oğlanlar islaholunmazdır

Əsl kişilər haqqında uydurma

/Mən öz istədiyimə nail oldum/

İnanın mənə, çox az adam tapılar ki, yuxarı sinif şagirdləri oğlanlarının soyunma otağında gedən söhbətlərin anasının qulağına çatmasını istəsin.

Cok dəsmalı üstünə atıb deyir: «Ey, Den, cümə günü axşam Andrea ilə görüşün necə keçdi?»

Yanında duran oğlan isə dirsəyi ilə səni dümsükləyərək «nə oldu, bankı yardınız?» deyə soruşur.

Kimsə ehtirasla təkrarlayır: «Hə, necə idi, o qaynar vücud?»

«Səhər yeməyi yataqda oldu?»

Sonra bunun ardınca ağla sığmayan qəhqəhələr, nalayiq jestlər, ədəbsiz qışqırıqlar və «mus-mus», yaxud «hə, körpə quzum!», yaxud da «həri, balacam, həri!» kimi vəhşi oxşamalar gəlir.

Uşaqların çoxuna belə hallar tanışdır. Əgər sən sinif yoldaşlarına qoşulmursansa və bu kimi suallara müsbət cavab vermisənsə, hər halda özünü elə göstərmək lazım gəlir ki, guya «öz istədiyinə nail olmusan», səndə artıq «bu, baş verib», sən artıq sekslə məşğul olmusan. Əgər bunu etməmisənsə, onda səninlə danışmağa dəyməz. Axı seks — müəyyən olunmuş inkişaf mərhələsidir. Kiminləsə yatmayana qədər səni kişi hesab etməyəcəklər.

Bu uydurmadır. İblisanə bir yalandır.

Mən bu barədə «Nə üçün gözləməyə dəyər?» devizi altında müxtəlif ölkələrdə keçirilən beynəlxalq kampaniyalarda minlərlə gənclə danışmışam. «Əsl kişi olmağın sekslə nə əlaqəsi var? Hətta on iki yaşlı yeniyetmə də sekslə məşğul ola bilər!» Sonra isə belə qeyd etmişəm: «Yox» cavabını vermək üçün əsl kişilik tələb olunur!»

Sonra isə davam edirdim: «Düz durub düzünü deməkdən ötrü əsl cəsarət tələb olunur!» «Bilirsən, mən indi heç bir cinsi əlaqədə olmaq istəmirəm». Bakirəlik — əsl öyünməli bir şeydir!»

Cinsi əlaqədə olmaq çox sadədir. Bunun üçün yetkin bir insan, ya da güclü bir iradəyə malik olmaq lazım deyil. Amma bu izdihamın istəklərinin əksinə getmək, həqiqətən də, çətindir. Əsl güc, kişilik və xarakter lazım olan yer də elə budur.

Bəlkə də bu, sizə məlum deyil. Amma Müqəddəs Kitabda hər bir kəsin bilməli olduğu seksual sınaqlar və günahlara dair əhvalatlar yer alıb. Onlardan biri Yusifin başına gəlib.

Yusif Potifar adlı bir misirli hökmdarın sarayında işləyirdi. Müqəddəs Kitabda hər şey son dərəcə açıq-aydın yazılıb: «Yusif

gözəl və yaraşıqlı idi. Bir müddət sonra ağasının arvadının Yusifə gözü düşüb dedi: gəl mənimlə yat» (Yaradılış 39:6,7).

Yusif sakitliklə özünün şirniklənməsinə imkan verə bilərdi. Ola bilsin sonra da məğrur görünüş alaraq soyunma otağında gəzişə-gəzişə qələbəsinə görə öyünərdi. Axı «əsl kişi» olduğunu sübut etmək üçün belə bir fürsət yaranmışdı.

«Lakin o, imtina etdi» — deyə Müqəddəs Kitabda yazılıb. Özü də bir dəfə yox. Ağasının arvadının məşuqəsi olmaqdan imtina etməsi ona azadlığı bahasına başa gəldi — onu zindana atdılar. Lakin Yusifdə həm iradə, həm cəsarət, həm də igidlik var idi. Çünki Yusif əsl kişi idi.

Belə ki, yalnız əsl kişi soyunma otağındakı «cəmiyyətin rəyi» təzyiqinə davam gətirə bilər. Yalnız əsl kişi gücünü toplaya və öz prinsiplərinin ardınca gedə bilər. Yalnız əsl kişi izdihama qarşı dura bilər. Yalnız əsl kişi «yox» deyə bilər.

**Özün əmin ol**

Əsl kişi haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Yaradılış kitabının 39-cu fəslindən 1-9-cu ayələri oxu. Yusifin Potifarın arvadı ilə yatmaq imkanı vardı. Qadının təklifinə onun cavabı necə oldu (8-ci ayə)? O, imtina etməsinə iki səbəb göstərir (8 və 9-cu ayələr). Bu hansı səbəblərdir?

Yaradılış kitabının 39-cu fəslinin 10-cu ayəsini oxu. Yusif bu cür sınaqlarla tez-tezmi üzləşirdi? O, bu sınaqlardan necə qaçmağa çalışırdı?

Həmin fəslin 11-23-cü ayələrini oxu. Yusif Potifarın arvadı ilə tək qalanda və qadın onu yenidən yoldan çıxartmaq istəyəndə, o, nə etdi (12-ci ayə)? Bu comərdliyinin qarşılığında Yusif cəzalandırıldı. Bəs

Rəbbə qarşı günah işlətməkdən qaçdığına görə hansı xeyir-duanı qazandı (20-23-cü ayə)?

## 35. Yerin göbəyi və bəşəriyyətin mərkəzi

Eqoistlərin uydurması

«Qulaq as, qanmazın biri qanmaz! Mənim üçün heç maraqlı deyil ki, sən bunu necə edəcəksən, amma bu cədvəl və rəqəmlər stolumun üstündə olmalıdır! Təcili!»

Reyçel Taunsend gumbultu ilə telefonun dəstəyini aparatın üstünə qoyub, bağırtı ilə katibəsinin adanı çağırdı. Uzun xovlu məxmər üzlü mebellər və tünd rəngli ağacdan üz vurulmuş idarənin divarları onun sahibinin mühüm mövqedə olduğundan xəbər verirdi. Masanın bir küncündə oxunmaq məqsədilə «Hər şeydə necə birinci olmaq olar» adlı bir kitab qoyulmuşdu. Reyçel başqalarının maraqları ilə hesablaşmadan və onlara acımasız münasibət göstərərək çox sürətlə məqsədinə doğru irəliləməsi nəticəsində kampaniyasında təcili karyerasını qurdu. Öz məqsədinə çatmaqdan ötrü başqalarının başı üzərindən irəliləmək onu qətiyyən təşvişə salmırdı. O, yalan təvazökarlıqdan əziyyət çəkmirdi və şəxsi lovğalıq hissi isə ona əsl zövq verirdi.

Katibəsi iş otağına daxil olan kimi Reyçel əmrlərini yağdırmağa başladı.

«Təcili o başıboş, heç bir işə yaramayan Pattersonu bura gətir. Ellisona isə çatdır ki, fərqi yoxdur, əlindəki bütün işləri bir kənara qoyub mənim hesabatlarımla məşğul olsun…»

Katibənin dili topuq çaldı. Baxışlarındakı nəsə bunu etməyə onu məcbur etdi.

«Sizin qızınız…— deyə katibə dilləndi. — Dayə zəng etmişdi. Daniel uşaq meydançasından yoxa çıxıb».

Reyçel telefona əl atdı. O, ani tezliklə suallarını bağıra-bağıra aparata yağdırdı. Nəhayət, dəstəyi yerinə asıb, katibəsinin üstünə qışqırdı: «Mənim keçmiş ərimi tapırsan. Lap yerin dibində də olsa. De ki, BU DƏQİQƏ dayənin yanına yollansın».

Reyçel bir andaca «BMV» markalı maşınına oturub şəhərin küçələri ilə şütüməyə başladı. Yolda siqnallaya-siqnallaya, pedala qaz verə-verə hiddətlə manevr edə-edə dayənin evinə tərəf istiqamət aldı. «Əgər onun başına bir iş gəlsə, özümü öldürərəm». O, işığa tərəf qaçdı. «Birdən onu tapa bilməsəm? Mənə kömək lazımdır».

Maşını tormoz vermədən son dərəcə iti sürətlə tinə döndərdi. «Kim mənə kömək edə bilər? — Bu fikir onu dəhşətə gətirdi.— Kim mənə kömək edər?»

Reyçel birdən başa düşdü ki, hər zaman özünün kainatın mərkəzi hesab etdiyindən ona kömək edəcək bir kimsə qalmayıb. Kömək üçün müraciət edəcək bir kimsə yoxdur. «Elə zənn edirdim ki, mənə heç vaxt kömək lazım olmayacaq. Həmişə özümü elə aparırdım ki, sanki yerdə qalan bütün insanlar heç bir əhəmiyyət kəsb etmir… Elə bil, yeganə vacib insan varsa, o da mənəm».

Reyçel demək olar ki, artıq lazım olan yerə çatmışdı. O, yavaşca sürətini azaldıb yol kəsişməsinə yaxınlaşdı və dayanmaq üçün postda növbə çəkəni vaxtında gördü. Onun qəzəbi vulkan püskürməsini xatırladırdı. O, arxası uzaqdan görünən piyada keçidində dayanmış növbətçini tanıdı. O, uzun illərdir bu yol kəsişməsində dayanıb maşınların hərəkətini tənzimləyər, məktəblilərin yolu keçməsinə kömək edərdi. Onun qədd-qaməti həmişə Reyçelə qocalıb əldən düşmüş və gərəksiz görünürdü. İndi isə hər şey onu tormozdan yapışmağa və qiymətli vaxtını itirməyə məcbur etdi. O, lənətlər

yağdırmaq üçün ağzını açmağa hazırlaşırdı ki, qəfildən növbətçinin bir uşağın — onun uşağının, Danielin əlindən tutduğunu gördü.

Reyçel maşının qapısını taybatay açıb, özünü qocanın üstünə atdı. O, üç yaşlı gülümsəyən qızını onun əlindən alıb, hədsiz aşıb-daşan minnətdarlıq hissi ilə qızını bərk-bərk qucaqladı. Böyük bir korporasiyanın icraçı direktoru olan Reyçel birdən özünü çox qəribə, balaca və köməksiz hiss etdi.

Qoca isə heç gözlənilməyən anda vacib bir insana çevrildi.

Reyçel sanki özünü dünyanın mərkəzində hesab edən xudbinlərdən idi. İstənilən xudbin özünü başqalarından üstün tutaraq təxminən bu cür düşünür: «Başqalarını yaddan çıxartmaq lazımdır. Əgər bu dünyada istədiyim hər şeyə nail olsam, onda, həqiqətən, xoşbəxt olaram».

Lakin bu uydurmadır.

Bu prinsipin ardınca gedənlər, əlbəttə, nə vaxtsa həm var-dövlət, həm də səlahiyyət qazana bilərlər, lakin beləlləri tənhalıqdan və ümidsizlikdən yan qaça bilməzlər.

İsa öyrədir ki, hər birimiz, hətta körpə uşaq belə Allahın nəzərində qiymətlidir. Əgər siz ətrafınızdakı insanların dəyərini etiraf etsəniz, onda daha çox xoşbəxt olarsınız. Bu etiraf sizin xoşbəxtliyinizi azaltmayacaq. İsa dəfələrlə bu əmri təkrarlayırdı: «Yaxınını özün kimi sev». Özündən az deyil. Nə də özündən çox. «Yaxınını özün kimi sev».

Deyəsən, Şair Conn Donun sözləri də buna çağırır:

Bəli, insan ada deyil,
Amma materikin bir hissəsidir.
Dərk etmək asan deyil
Allahın əli bizi beləcə
Sərt şəkildə rədd edib.

Bəşəri dövranda
Hər yeni ölümlə
Sənin də hissən öləcək.
Matəm zəngi çalınarsa,
Qəm-qüssə içində fikirləş
Bu, sənə görə çalınmırmı?

Axı Allah səni dünyanın mərkəzi yaratmayıb. Lakin O Özü sənin həyatının mərkəzi olmaq istəyir.

**Özün əmin ol**

Eqoistlərin uydurmasının cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Kəlamdan verilən bu ayələrin hər biri bir xudbin haqqındadır. Göstərilən hər bir yeri oxu və bu iki suala cavab ver: söhbət hansı eqoistdən gedir? Onun başına nə iş gəlir?

2 Şamuel 15:1-12; 18:17

__________________________________________

1 Padşahlar 1:5,6, 42-43

__________________________________________

Yeşaya 14:3,4, 12-15

__________________________________________

Matta 20:20-28

__________________________________________

## 36. Gözəl deyil, eybəcərdir

Cildli gözəl haqqında uydurma

Fotomodel zahiri görünüşü Ketrinə «Voq» və «Madmuazel» jurnallarının səhifələrini bəzəməyə imkan verirdi. Onun biçimli boy-buxunu, görünür, sadəcə qara ziyafət paltarı üçün yaradılmışdı. Zərifliyi və lətafəti ilə son dərəcə varlı adamlar üçün təşkil edilən nəfis ziyafəti bəzəyə bilərdi. Bəs görəsən, kanalizasiya lyukunda o, nəyi yaddan çıxartmışdı?

Məşhur «Gözəl və bədheybət» teleseriyalının qəhrəmanı Ketrin (Linda Hamilton) Ron Perlmannın oynadığı Vinsetin — yarı adam, yarı bədheybətin yeraltı sığınacağına tez-tez baş çəkirdi. Tutaq ki, bu, yeni qabda köhnə əhvalatdır. Amma yenə də bir sual mənə heç cürə rahatlıq vermir: «Axı o, onda nə tapmışdı?»

Sanki moda jurnalının cildindən düşmüş bu çox gözəl qarasaçlı qəhrəman qadın əslində qəfildən gecə vahiməsi qədər qorxunc, həm də yerin altında yaşayan bir oğlana aşiq olur. Belə olmur!

Əlbəttə, bu əhvalat kino janrı qanunları əsasında qurulmuşdur. Vinsetin xarici görünüşünə baxmayaraq, Ketrinin ondan xoşu gəlirdi. O, Aslan maskası altında gizlənən adamı sevirdi. O onu həssaslığına və incə qəlbinə və ola bilsin, ecazkar səsinə görə sevirdi. Təbii ki, belə əhvalatlar bəyənilir, çünki bu cür sevgiyə tez-tez rast gəlmək olmur.

Bu, ona görə baş verir ki, böyük əksəriyyətimiz cildli gözəl uydurmasına satın alınırıq. Biz əslində həyatda hər şeyin necə görünməyimizdən asılı olduğuna, inanmağa başlayırıq. Əgər qız El Makfersona bənzəmirsə, yaxud, gənc oğlan Patrik Sueyzini xatırlatmırsa, demək, onlar cazibədar deyillər. Lakin bu uydurmadır.

Televiziya verilişləri, jurnallar, video və kinofilmlər daim bizi nəyin gözəl, nəyin gözəl olmadığını təsəvvür etməyə vadar edərək hazır obrazlar təqdim edirlər. Bundan başqa, kütləvi informasiya vasitələri ciddi cəhdlə bizi inandırmağa çalışır ki, gözəllik xoşbəxtliyi təcəssüm etdirir. İndi isə zəhmət olmasa, nəzərə alın ki, məsihçi əsla

eybəcər olmamalıdır. Hərçənd, mütləq deyil ki, «Cordaş» cinsini və «Meybellin» kosmetikasını reklam edən nazənin və dilbərlər kimi görünək. Biz özlüyümüzdə dərk etməliyik ki, gözəllik anlayışı şişirdilmiş əzələ və göy gözlü adi ilahi bədən quruluşundan daha çox şeyləri özündə birləşdirir. İnsanın gözəlliyi daha çox onun ruhi keyfiyyətlərindən və xasiyyətindən asılıdır. Allah Davudu İsrailin hökmdarı olaraq onun zahiri görünüşü və fiziki göstəricilərinə görə seçmədi. Özünün dediyi kimi, «…Rəbb insanın gördüyü kimi görməz, çünki insan zahirə, Rəbb isə ürəyə baxar» (1Şamuel 16:7).

Həqiqətən də, həyatın göstərdiyi kimi, gözəllik çox vaxt xoşbəxtlik gətirmir. Bəlkə də inandırıcı görsənməyə bilər, amma bəzən gözəllik qızların depressiyasına, gənc oğlanların isə özünə olan inam hissinin itirilməsinə səbəb olan bir yırtıcıya çevrilir. Tənhalıq, müdafiəsizlik və gərəksizlik hissi keçirən o qədər «gözəl» insanlar var ki…

Həqiqət ondadır ki, əgər siz xoşbəxtliyi saçlarınızın rəngində və ya paltarınızın fasonundan asılı olduğunu düşünürsünüzsə, onda mütləq sizdə məyusluq hissi yaranacaq. Əlbəttə, geyiminizin də əhəmiyyəti var, amma təkcə güzgüdə əks olunanları müşahidə etməməkdən ötrü bir az dərindən baxmağı öyrənmək lazımdır. Əgər qarşınızda dayanan insandan xoşlanırsınızsa, onda tezliklə gözlərinizlə görə bilmədiklərinizi bəyənəcəksiniz.

### Özün əmin ol

Cildli gözəl haqqında uydurmanın cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Müqəddəs Kitabda xoşbəxt olmağın yolları haqqında çox danışılır. Verilmiş yerləri oxu və əslində insana məhz xoşbəxtlik gətirən sözü yaz. Onları xətt çəkilmiş sətirdə yaz. Sonra xoşbəxtliyin zahiri görünüşdən asılı olduğunu deyən sətri işarə ilə qeyd et.

[ ] Zəbur 144:15
[ ] Zəbur 32:1
[ ] Süleymanın Məsəlləri 3:13
[ ] Süleymanın Məsəlləri 14:21
[ ] Süleymanın Məsəlləri 16:20
[ ] Luka 11:28
[ ] Yaqub 1:12
[ ] 1 Peter 3:14

## 37. Hamı necə, mən də elə

Çoxluğun hərəkət etdiyi kimi hərəkət etməyin lazım gədiyi haqqında uydurma

/Lövhədəki yazı: HƏYAT ÜÇÜN TƏHLÜKƏLİDİR! TULLANMAQ QADAĞANDIR!/

«Hə, anacan, özün fikirləş, — deyə həzin səslə Andrea yalvardı. — Axı biz narkotik, ya da e, nə bilim, başqa heç nə ilə əylənməyəcəyik. Bu, adi əyləncə gecəsidir».

«Sən nə Bredgilə, nə də ki, başqa birisigilə əyləncə gecəsinə getməyəcəksən, əgər evdə onların böyüklərindən bir kimsə olmasa».

«İnana bilmirəm ki, sən mənimlə bu cür rəftar edirsən, — deyə Andrea dilləndi. Orada bütün tanışlarımız yığışacaqlar. Bircə mən evdə qalacam ki, nə var nə var anam hesab edir ki, belə əyləncələr gənc qızlar üçün deyil».

Andrea bazar gününə kimi anasını dindirmədi. «*İndi hamı belə əyləncəli gecələrə gedir. O vaxtdan — atamla sən uşaq olandan bəri çox şey dəyişilib*».

Lakin bazar ertəsi Andrea biləndə ki, Culiya da Bredgildəki əyləncəli gecəyə getməyib, çox təəccüblənmişdi.

«Mənim valideynlərim heç vaxt belə yerlərdə iştirak etməyimə izn vermirlər, — deyə Culiya etiraf etdi. Hətta Sindi belə ora getməmişdi».

Andrea düşünürdü ki, Bredin valideynlərinin nəzarəti olmadan keçirdiyi əyləncədə onların bütün tanışları iştirak edəcək. Əlbəttə, o, əvvəlki kimi anasına acıqlı idi, lakin anasının ona ora getməyə qadağan etdiyi günə nisbətən indi özünü yaxşı hiss edirdi.

Andrea məsələyə geniş yayılmış mövqedən baxırdı: «əgər, hamı edirsə, deməli, mənə də olar».

Lakin bu uydurmadır.

Bunu hamı etmir. Əlbəttə, bəzən əksinə də olur. Lakin ağıllı oğlan və ya qız, tez və ya gec başa düşəcək ki, «bunu» ətrafdakıların onları inandırmağa çalışdıqları kimi, elə də çox adam etmir.

Heç də hamı nikaha qədər cinsi münasibətdə olmur. Mənim hesablamalarıma əsasən, məsihçi ailəsində tərbiyə almış uşaqların 50% -dən çoxu «bunu» etmir. Bu rəqəm kifayət qədər çox böyükdür.

Heç də hamı siqaret çəkmir. Bəzi araşdırmalar göstərir ki, bu gün gənclərin 80%-i siqaret çəkmir.

Heç də hamı spirtli içki qəbul etmir. Bir çox araşdırmalar göstərir ki, yuxarı sinif şagirdlərinin 30%-i spirtli içki qəbul etmir. Hətta 10%-i belə heç dadına da baxmayıb.

Heç də hamı narkotik qəbul etmir. Miçiqan Universitetinin sosial araşdırmalar mərkəzinin apardığı tədqiqatlarının nəticəsi göstərir ki, yeniyetmələr arasında kokain və başqa narkotiklərdən istifadə

edilməsi aşağı düşmüşdür. Amerika gənclərinin 40%-dən artıq bir hissəsi qeyri-qanuni yolla narkotikdən istifadəni rədd etmişdilər.

Heç də hamı imanını itirmir, yaxud deyildiyi kimi, ondan «dönmür». İki min yeniyetmənin iştirak etdiyi araşdırmanın nəticəsi göstərmişdir ki, onların 60% -i dinə həyatlarının vacib bir hissəsi kimi baxırlar.

Çox vaxt yeniyetmələr dostlarının və həmyaşıdlarının manipulyasiya etmək və onları digərləri kimi hərəkət etməyə vadar etməkdən ötrü «hamı bunu edir» yalanından istifadə edirlər. Lakin zənnimcə, «hamı bunu edir» uydurmasına inanmağa dəyməz. Bu, heç də belə deyil. Yeniyetmələrin əksəriyyəti «yox» deməyi bacarırlar. Onlar bunu lap tez-tez edirlər.

**Özün əmin ol**

«Bunu» hamı edir uydurmasının cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Aşağıda xətt çəkilmiş sətirlərdə «bunu» etməyən yeniyetmələrin adlarını yaz (və ən əsası, öz adını yazmaqdan çəkinmə).

Nikaha qədər cinsi əlaqəyə girməyənlərin 30-40%-i arasında:

---

---

Siqaret çəkməyənlərin 80%-i arasında:

---

---

Spirtli içki qəbul etməyənlərin 30%-i arasında:

Narkotik vasitələrdən qeyri-qanuni yolla istifadə etməkdən imtina edənlərin 40%-i arasında:

İmanı həyatının ən vacib hissəsi hesab edənlərin 60%-i arasında:

## 38. Seks iyrənc kəlmə deyil

Puritan uydurması

/Məbədin nümayəndəsi: abırsızlıq və rüsvayçılıq/

«Şənbə günü gecəyarısında» seriyalının qəhrəmanı, kilsə xanımı Dana Karvey obrazının məşhurluğunun səbəblərindən biri, adi insanların məsihçilik haqqında təsəvvürünü təcəssüm etdirməsidir. Bu qadını ikiüzlülüyü və riyakarlığı, topuğa qədər tutqun rəngli paltarı və başındakı kiçkası məsihçilərin seksə eyibli və ədəbsiz baxışlarını özündə təcəssüm etdirirdi. Çoxları elə güman edir ki, İsanın ardınca gedənlər seksi və seksuallığı mühakimə edən Allaha inanırlar.

Bu uydurmadır.

Seks heç də iyrənc söz deyil. Bu, nəsə biabırçı, iyrənc və ya ədəbsiz bir şey də deyil.

Demək olmaz ki, Allah seksə qarşıdır, O ona nifrət edir. Axı seksi icad edən elə O Özüdür. O, hər şeyin əsasını qoymuşdur. Yaradılış kitabında Allahın dünyanı necə yaratması yazılıb və orada belə sözlər var: «Allah insanı Öz surətində yaratdı, Allahın surətində yaratdı, Onları kişi və qadın olaraq yaratdı» (Yaradılış 1:27). O, kişi və qadını cinsi əlamətlərinə uyğun yaratdı, onları seksuallığına və təbii hisslərinə görə ayırdı. Sonra sözün tam mənasında seksual yaradılışa baxıb, Müqəddəs Kitabda yazıldığı kimi, «Allah gördü ki, yaratdığı hər şey yaxşıdır» (Yaradılış 1:31).

Seks Allahın dünyanı yaratma planının lap başlanğıcına daxil idi. O, kişi və qadına «Törəyib çoxalın» deyəndə, əlbəttə ki, bunun üçün cinsi münasibətlərin mövcudluğunu nəzərdə tuturdu.

Müqəddəs Kitabda cinsi münasibətlərə dair kifayət qədər açıqlamalar var. Məhəbbət haqqında poema kimi yazılmış Süleymanın Nəğmələr Nəğməsi kitabı sözsüz ki, kilsə xanımını utandırardı. Həvari Paul Korinfdəki imanlılar cəmiyyətində ər-arvad arasında cinsi münasibətlərə dair vacib məsləhətlər vermişdi. Lakin yadda saxlamaq lazımdır: Müqəddəs Kitabda aydın yazılıb ki, cinsi münasibətlər yalnız ər və arvad arasındakı həzz üçün yaradılmışdı. «Qoy hər kəs nikaha hörmət etsin və kəbin yatağı ləkəsiz olsun; çünki Allah əxlaqsızları və zinakarları məhkum edəcəkdir».

Allah seksi yaratdı. İnsan isə onu nikah ittifaqı çərçivəsindən çıxararaq ləkələdi. Allah seksi kişi və qadının cinsi münasibətlərdən həzz alaraq, bundan sevinc və məmnunluq duyaraq bir-birlərinə tamamilə qarışmalarından ötrü yaratmışdı. İnsan isə Allahdan aldığı hədiyyəni təhrif etdi.

Allah «Zina etmə» dediyi vaxt, «əxlaqsız seksual münasibətlərə girməməyi» nəzərdə tutmuşdur. Allah bunu ona görə etməyib ki, sizin

sevincinizi öldürmək istəyən ümumbəşər zəhlətökəndir. Xeyr. Bu ona görədir ki, Allah yalnız bir məhəbbət verə bilən sevinc istəyir. Allah sizi imansızlıqdan, yaxud şübhələrdən müdafiə etmək və sizə mükəmməl məhəbbətin, nikahın və seksual qarşılıqlı münasibətlərin ən vacib şərti hesab edilən — inamı vermək istəyir.

O bizi cinsi yolla keçən xəstəliklərin qorxusundan müdafiə etmək və nikaha girdiyimiz vaxt gələcək seksual həyatımıza əminlik və sakitlik vermək istəyir.

O bizi təbii yolla qurulmayan və kiminləsə artıq cinsi əlaqəyə girdiyimizə görə tez-tez bağlamağa məcbur olduğumuz uğursuz nikaha gətirən dağıdıcı qarşılıqlı münasibətlərdən qorumaq istəyir.

Nəhayət, O, insanın nikah gecəsi öz sevgilisinə edə biləcəyi məhəbbət ənamlarından ən böyüyündən birini bizə verməkdən ötrü bakirəliyimizi qoruyub saxlamaq istəyir.

**Özün əmin ol**

Puritan uydurmasının cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Süleymanın Məsəlləri kitabının 5-ci fəslindən 1-23-cü ayələri oxu. Müdrik insanın qeyri-qanuni sekslə ər-arvad arasındakı seks arasında müəyyənləşdirdiyi fərqə diqqət yetir. Ər-arvad arasındakı cinsi münasibətləri əks etdirən 18 və 19-cu ayələri xüsusi qeyd elə.

Süleymanın Nəğmələr Nəğməsi kitabından həyəcanlandırıcı mənzum sətirləri oxu (3-5-ci fəsil). Bu məhəbbət poeması Allahın kişiyə onun arvadı, arvada isə onun əri vasitəsilə verdiyi (yalnız cinsi əhəmiyyəti olmayan) ehtiraslı həzzi təsvir edir.

## 39. Çəkmələr, gəmilər, yengəclər və daha nələr haqqında

Anarxistlərin uydurması

Yengəc German dənizin dibi ilə iti sürətlə irəliləyərək ailə daşı altına soxuldu.

«Mən azad olmaq istəyirəm, — deyə o, atasına qışqırdı. Başa düşmürəm, sutkada iyirmi dörd saat bu axmaq zirehi daşımağa məni necə məcbur edə bilərsən! O mənim hərəkətimi buxovlayır. O mənim gözəlliyimi heçə endirir. Dostlarımdan bir neçəsi zirehə qarşı etiraz qrupu təşkil etməyi planlaşdırır, mən də onlara qoşulmağa hazırlaşıram!»

Atası yengəc Fred dərindən nəfəs alıb, özünün ağır qısqacını Germanın çiyninə qoydu (axı yengəclərin da çiyinləri olur. Baxmayaraq ki, onlar yalnız başqa yengəclərin köməyi ilə çiyinlərinin harada qurtardığını, belin isə başladığını anlaya bilirlər). German gözlərini süzdürdü.

«Oğul, — Fred dedi, — icazə ver, sənə bir əhvalat danışım».

«Ata, bəsdir mənə hər cür hekayə danışdın…»

«Bu əhvalat məktəbə ayaqyalın getmək üçün sözündən dönməyən Hamfri adlı bir nəfərin başına gəlib. O, şikayət edirdi ki, çəkmələri həddindən artıq ayaqlarını sıxır. Eyni zamanda deyirdi ki, onlar onun gözəlliyini puç edir. O, güllər və otlaqlar, çöllük və kiçik çaylar boyunca ayaqyalın qaçmaqdan ötrü dəlicəsinə çəkmələrindən azad olmaq istəyirdi. Nəhayət, anası onun təkidinə güzəştə getdi. O, güllə kimi evdən çıxdı və sonra bilirsən, nə baş verdi?»

German ağzını açmaq istəyirdi ki, atası ona cavab verməyə imkan verməyərək hekayəsinə davam etdi.

«Hamfri adlı bu adam limonad butulkasının qırıntısı üstünə ayağını basdı. Onun pəncəsinə iyirmi tikiş qoydular və buraxılış gecəsinə sevgilisi başqa bir oğlanla getdi».

«Kifayət qədər axmaq hekayədir, ata».

«Bəlkə də belədir, amma məsələ ondadır ki, hər bir yengəc gec, ya tez nə vaxtsa oxşar hissləri yaşayır; düşünür ki, zirehdən tamamilə azad ola bilsəydi, həyat bir qədər yaxşı olardı. Lakin bu məsələ ilə azadlığını məhdudlaşdıran gəmidən yorularaq özünü dalğaların ixtiyarına verən və dənizə atılan dənizçinin arasında heç bir fərq yoxdur. Dənizçi fikirləşə bilər ki, budur azadlıq, amma o, gəmiyə geri qayıtmasa və ya tezliklə sahilə doğru üzməsə, batacaq. Belə olan halda, hansı azadlıqdan söhbət gedə bilər?»

German atasının dedikləri barədə düşündü.

«Tezliklə sən öz zirehini atacaqsan, oğul — atası dedi. O, bu haqda vaxtından əvvəl danışmağın lazım gəldiyinin necə ağır olduğunu fikirləşdi.

Cavan yengəc tamamilə heyrət içində idi.

«Hə, hə sən səhv eşitmədin, — deyə Fred oğlunun baxışlarındakı sualı cavablandırdı. — Bu, böyüdükləri vaxt bütün yengəclərin başına gəlir. Lakin — o, xəbərdaredici tonda səsini qaldırdı, — bu, baş verdikdə həyatında heç vaxt olmadığı kimi tez sınacaqsan. O vaxta qədər ki, sənin təzə zirehin bunun kimi belə möhkəm olmayacaq, — o, oğlunun kürəyini qoruyan bərk zirehi döyəclədi, — adi vaxtda olduğundan bir az ehtiyatlı və diqqətli olmaq lazım gələcək. Bu zirehsiz sən özünü daha az sərbəst hiss edəcəksən».

«Bütün bunlar çox qəribədir, ata — German dedi. — Heç vaxt bu barədə düşünməmişdim. Sənin dediyinə görə bəzən düşünürsən ki, sanki nəsə onun azadlığını məhdudlaşdırır, amma əslində bu, bizə indiki kimi belə sərbəst olmağa imkan verir. Mən səni düz başa düşdüm?»

Yengəc Fred böyük qısqacını Germanın çiyninə qoydu və onlar birlikdə ailə daşının altından süründülər.

«Sən nədən bu qədər ağıllısan, oğlum mənim?» — deyə o soruşdu.

**Özün əmin ol**

Anarxistlərin uydurmasının cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Çoxları hesab edir ki, On əmr və Məsihin bütün təlimləri azadlığı məhdudlaşdırır və insanları zəncirləyir. Əslində bu əmrlər onları icra edənlərə həqiqi azadlıq verir.

Çıxış kitabının 20-ci fəslindən 1-17-ci ayələri oxu. Bu əmrlərin icrası hansı azadlığı verə bilər? (Məsələn, altıncı əmrin icrası səni cinsi yolla keçən xəstəliklərin yoluxması qorxusundan azad edə bilər). Cavablarını yaz:

Mattanın müjdəsinin 5-ci fəslindən 1-12-ci ayələri oxu. Bu ayələrə daxil edilən İsanın nəsihətlərinin ardınca getmək sənə hansı azadlığı verə bilər?

Yəhyanın müjdəsinin 8-ci fəslindən 36-cı ayəni oxu. Onu yaz:

## 40. Nəfəs kəsiləndə

İlk baxışdan sevgi haqqında uydurma

«Hə, beləcə ilk məktəb günü mən uşaqların əhatəsində şkafımın yanında dayanıb oradan-buradan söhbət edirdik, — bilirsiniz də uşaqlar nə haqda danışmağı xoşlayırlar. Qəfildən o, içəri girdi.

Məktəbə girdiyi ilk dəqiqədən mən anladım ki, bu qız sadəcə mənim üçün yaranıb. Uşaqlar, o, mükəmməl idi. Çiyinlərinə tökülmüş açıq rəngli saçlarını görən kimi damarlarımda qanım donurdu. O, gündən elə yanmışdı ki, sanki çimərlikdə naz-qəmzə içində böyüdülmüşdü. Onun boy-buxunu isə mənim kimi on yeddi yaşlı oğlanın bir saniyədəcə başını gicəlləndirə bilərdi.

Mən aşiq olmuşdum. İlk baxışdan, başa düşürsünüzmü? Hər halda, özüm haqqında bunu əminliklə deyə bilərəm. Əlbəttə, onun diqqətini cəlb etmək və «gözəllik ilahəsi» ilə görüşməyə nail olmaq üçün müəyyən qədər vaxt lazım oldu. Hə, sonra hər şey öz axarına düşdü — toy, uşaqlar, daha sonra isə uzun və xoşbəxt bir ömür yaşadıq».

Aha, deməli, əsl məhəbbət baş verən zaman belə olurmuş. Özü də ilk baxışdan məhəbbət. Bəzən qıza və ya oğlana bircə nəzər salmaq kifayətdir ki, sən artıq həyatının sevgisinə rast gəlib-gəlmədiyini biləsən.

Bu uydurmadır.

Ola bilsin, beləsi yüzdən birində olsun. Lakin bu müstəsna halların özlüyündə həqiqi sevgini təsəvvür etdiyini zənn etmək təhlükəli olardı.

Biz adət etmişik ki, sevgi haqqında belə düşünək: ilk növbədə bu, hissdir — emosiyaların coşması, qan beyinə vurur, nəfəs kəsilir. Lakin Müqəddəs Kitabda məhəbbət hər şeydən öncə bir hərəkət kimi təsvir edilir. Belə ki, sənin nə hiss etdiyin deyil, sənin nə etdiyin haqqında danışılır.

Bir çox insanların təsəvvüründə sevgi, Kolumb üçün Yeni İşıqla eyni əhəmiyyət daşıyır. Sən onu axtarmırsan və qəfildən o, qarşına çıxır! Məhəbbət! Lakin əslində hər şey əksinədir. Sevgi bağda becərilən ətirli gülə bənzəyir. Sən toxumu səpirsən, onu sulayırsan, yedizdirirsən, ona ziyan verəcək hər şeydən qoruyursan, daha bir neçə müddət sulayırsan və günlər, həftələr, aylar keçəndən sonra bitkilər çiçəkləməyə başlayır. Sən onu becərməyə və sulamağa davam etsən, o böyüməyə, çiçəkləməyə başlayacaq.

Bəlkə də bir çox qarşılıqlı münasibətlər ona görə düz gəlmir ki, insanlar bunu başa düşmürlər: çox az adam hissləri ilə işləməyə hazır olar. Çox az adam toxumları sulamağın lazım olduğunu düşünər. Çox az adam bitkini kökündən qoparan tufana hazır olar. Çox az adam torpağa qulluq etmək istəyər. Nəticədə çox az adama həqiqi sevginin yaydığı xoş ətirdən ləzzət almaq nəsib olar.

Sevginin fəal xüsusiyyəti haqqında yazarkən Həvari Paul demişdir: «Ərlər, arvadlarınızı sevin, necə ki, Məsih də imanlılar cəmiyyətini sevdi». Bəs Məsih imanlılar cəmiyyətini necə sevdi? «[ O] Onun uğrunda Özünün fəda etdi… Beləcə ərlər də arvadlarını öz bədənləri qədər sevməlidirlər: öz arvadını sevən özünü sevir. Çünki heç kim heç vaxt öz bədəninə nifrət etməmişdi, lakin Rəbb cəmiyyətdə etdiyi kimi, onu *yedirir* və *bəsləyir*» (Efeslilərə 5:25, 28,29, kursiv müəlliflərindi).

Siz əvvəlki kimi, o məftunedici sarışın yanınızdan keçdiyi vaxt həyəcan keçirə bilərsiniz. Futbol komandasının kapitanı bir baxışla ağlınızı başdan ala bilər. Lakin bu, məhəbbət deyil. Bu heyran olmaqdır. Heç də balaca bir toxumdan gözəl ətirli gül yetişdirməyə ruhlandıran hiss deyil.

**Özün əmin ol**

İlk baxışdan sevgi haqqında əsatirin cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Həvari Paulun sevgiyə həsr etdiyi Korinflilərə birinci məktubun məşhur fəslini, 13-cü fəsli oxu. Oxuduqlarınla həqiqi sevgini xarakterizə edənlər arasındakı uyğunluğu yaz.

Sevgi _____________________,
Sevgi _____________________ (4-cü ayə)
Sevgi hər şeyə _________________,
Hər şeyə _______________________,
Hər şeyə _______________________ (7-ci ayə)
Məhəbbət ________________məz
_________________________məz
__________________________maz (4-cü ayə)
_________________________məz
_________________________məz
_________________________maz
ona edilən pislikləri ___________________maz (5-ci ayə)
Məhəbbət _____________ ____________məz
________________ isə __________________
Məhəbbət əsla _____________________ (8-ci ayə).

İndi isə yazdıqlarına bax. Sadalanan xüsusiyyətlərdən neçəsi emosiyalarla əlaqəlidir? Onlardan neçəsi əməllərlə əlaqəlidir?

## 41. Öz-özünü sağalt

Humanistlərin uydurması

/Kitab üzərindəki yazı: Hər şey sənin əlindədir/

Ticarət mərkəzində dolaşan Baddi və Natan kitablar dolu bir masanın qarşısında dayandılar. Masanın arxasında uşaqlara xoş təbəssümlə gülümsəyən kişi ilə qadın oturmuşdu.

«Bilmək olarmı, sizi nə maraqlandırır?» — deyə kişi soruşdu.

Bir neçə kitabçanı, məsələn, «İsa heç vaxt mövcud olmayıb» adlı kitabçanı pulsuz götürmək olardı. Digərləri üçün isə pul ödəmək lazım gəlirdi. Kainat, təhsil, kilsələrin və dövlətlərin bölünməsi haqqında ümumi hekayələr vəd edən bu kitabların adları isə kifayət qədər cəlbedici səslənirdi.

«Bir buna bax», — deyə Baddi «Müqəddəs Kitab üzrə Ayzek Əzimovun yol bələdçisi» adlı qalın bir kitabı əlinə alıb, «Mən bu adam haqqında eşitmişəm» — dedi.

«Əlbəttə, — deyə kişi ayağa qalxıb masanın üstünə əyildi. — Bu, çox mükəmməl kitabdır. Bu kitabda nəinki Nuh əyyamı və Qara dəniz vasitəsilə qaçaqaç haqqında az məlum olan faktlar açıqlanır, eyni zamanda haqqında Müqəddəs Kitabda bir kəlmə belə olmayan bəzi məqamlar işıqlandırılır. Bu kitabda tarixi faktlarla Müqəddəs Kitab əfsanələrinin birləşərək bəşəriyyət haqqında daha aydın təsəvvür yaratması göstərilib.

«Hə, əlbəttə». Natan başı ilə kişiyə razılığını bildirdi. Lakin Baddinin əlindən kitabı alıb masanın üstünə qoyaraq «Gedək burdan» — dedi.

«Nə oldu sənə belə? — bir neçə addım uzaqlaşdıqdan sonra Baddi soruşdu. — Nə üçün belə tez biz oradan uzaqlaşdıq?»

Natan çiyinlərini çəkib «Bilmirəm. Orada nəsə heç yaxşı deyil» dedi.

Natan müdrikcəsinə hərəkət etmişdi. O, ideyalarının bəzən dərhal tanımaq çətin olan dünyəvi humanistlərin uydurmalarının təsiri altına düşmədi. Lakin onlar istənilən halda Müqəddəs Kitaba, məsihçilərə və imanlı cəmiyyətlərinə qarşı çıxırlar.

Humanistlər hesab edirlər ki, dünyanı yalnız insanlar özləri xilas edə bilərlər. Allah insanı xilas edə bilməz, çünki onlar Allahın mövcudluğun ehtimal etmirlər. İnsanı din də xilas edə bilməz, çünki din — yalandır. Humanist xilası, sülhü və xoşbəxtliyi göydə deyil, özündə axtarmalıdır.

Humanistlər hesab edirlər ki, şəxsi xilasın və dünyanın yaxşılaşmasının yeganə ümidi ondan ibarətdir ki, insan dini növdə düşüncələrdən imtina etməli və heç nəyə inam insanı tam xilas edə bilməz, insan ancaq özünə güvənməlidir. Onlar, həqiqətən, inanırlar ki, Allahın heç bir köməyi olmadan insan özünü və əhatəsində olan aləmi pislikdən qurtarmaq iqtidarındadır.

Bu uydurmadır.

Bəşəri tarix təsdiqləyir ki, bütün texniki irəliləyişlərə baxmayaraq, biz nə alicənab, nə də ki, xeyirxah olmayacağıq. Humanistlərin hərəkatı sülhü artırmadı və müharibəni aradan qaldırmadı. İnsan bütün problemləri öz gücü daxilində həll etmək iqtidarında deyil. Buna XX əsrin reallığı şəhadətçilik edir: iki dünya müharibəsi, Hitler rejimi, Stalin rejimi, qırmızı khmer rejimi, makkartizm, ku-kluks-klan, atom bombasının yayılması, insanların müharibədən, aclıqdan

və sıxıntılardan əziyyət çəkməsi — bütün bunlar göstərir ki, bəşəriyyətin şəxsi gücə və ağıla ümid bəsləməsi hədərdir.

Əlbəttə, biz bütün gücümüzü müharibələrin, aclıqların baş verməməsinə yönəltməliyik. Biz xəstəliklərlə, ədalətsizliklərlə mübarizə aparmalıyıq. Lakin bəşəriyyət öz-özünü xilas edə bilməz. «Başqa heç kimdə xilas yoxdur; çünki səma altında insanlara verilmiş başqa bir ad yoxdur ki, onunla xilas ola bilək» (Həvarilərin İşləri 4:12).

Gələcək əsrdə də humanistlər xilasa, Paulun birinci yüzillikdə yazdığı o kəslərdən yaxın olmayacaqlar: «Onlar Allahın həqiqətini yalanla dəyişdilər və Xaliq əvəzinə məxluqa pərəstiş və ibadət etdilər. O Allah ki, əbədi olaraq mübarəkdir. Amin!» (Romalılara 1:25)

**Özün əmin ol**

Humanistlərin uydurmasının cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Yeremya peyğəmbərin kitabının 16-cı fəslindən 20-21-ci ayələri oxu. Bu sözlərin humanistlərin uydurması ilə nə kimi əlaqəsi var?

36-cı Zəburdan 1-3-cü ayələri oxu. Bu sözləri humanist adlananların əqidələrinə aid etmək olarmı? Necə?

37-ci Zəburdan 39-cu ayəni oxu. İnsanın özü-özünü xilas edəcəyi haqda humanistlərin ümid etdiyi gələcəyə dair oxuduqların əsasında hansı nəticəni çıxartmaq olar?

62-ci Zəburdan 1-3-cü ayələri oxu. Bu ayələrdə «yalnız» sözü hansı əhəmiyyətə malikdir? Hər dəfə «mənim, mənim» sözləri qarşına çıxdıqca, vurğu ilə bu ayələri təkrarən oxu.

Korinflilərə 1-ci məktubun 3-cü fəslindən 11-ci ayəni oxu. Bu ayələrə əsasən, humanistləri hansı gələcək gözləyir?

## 42. Evdə daha yaxşıdır

Cənnətin yerdə də olması haqqında uydurma

/Qadın deyir: «Mən düşünürəm ki, cənnət — ruhun xüsusi vəziyyətidir/

Belinda Karlayl özünün «Cənnəti yerdə də tapmaq olar» xiti ilə bu yaxınlarda ən yaxşı iyirmi mahnı arasında aparıcı yeri tutmuşdu.

Pis mahnı deyil, amma teologiya ilə birlikdə çox pisdir.

O, bu mahnını oxuyan yeganə insan deyil. Ola bilsin, siz bu mahnını başqa ifalarda da eşitmisiniz.

«Bilirsən, nə düşünürəm?» (səninlə birgə avtobusda gedən qızın yanında əyləşən dəri gödəkcəli oğlana nə dediyinə diqqət yetirməlisən.) «Mən düşünürəm ki, cənnət bizim daxilimizdə yerləşir, bu, ruhun vəziyyətidir. Bəs sən necə düşünürsən?»

Bəlkə də ola bilsin, sizə valın tərs üzünə qulaq asmaq nəsib olub.

«Ey, səninləyəm. — bədəninə şəkillər döydürmüş kişi ağ önlüklü oğlana deyir. — Mən burada cəhənnəm əzabı çəkmişəm». Bu sözləri deyərək o, var gücü ilə yumruğunu dirəyə vurur. «Mənim yaşadıqlarımla heç bir cəhənnəm əzabı müqayisəyə gəlməz».

Sizə nə deyim? Bu uydurmadır.

Bəli, bəzən insanın qismətinə elə xoşbəxtlik nəsib olur ki, belə vəziyyətdə ona bundan daha yaxşısını təsəvvür etmək çətindir. Düzdür, bəzən başımıza elə hadisələr gəlir ki, onlar o qədər ağır olur ki… Düşünürük ki, sanki cəhənnəmdə də belə ola bilməz.

Bununla belə, Müqəddəs Kitabda aydın deyilir ki, real cənnət və real cəhənnəm mövcuddur.

İsa Öz ardıcıllarına demişdi: «Atamın evində çox otaqlar vardır: elə olmasaydı, sizə deyərdim. Çünki sizə yer hazırlamağa gedirəm» (Yəhya 14:2). O, insanlardan cin qovduqlarına görə sevinən şagirdlərinə «Amma ruhların sizə itaət etməsinə sevinməyin, lakin sizin adlarınızın göylərdə yazıldığına sevinin» ( Luka 10:20) deməklə açıqcasına aydınlatdı ki, cənnət — ciddi cəhd göstərməli olan bir yer, yaxud vəziyyətdir.

Həvari Yəhya isə qocalıq illərində Müqəddəs Kitabın sonuncu Vəhy kitabında cənnət və gələcək barədə gördüyü vəhydən cənnəti bizə Allahın olduğu yer kimi təsvir edir: «…ölüm mövcud olmayacaq; artıq nə kədər, nə fəryad, nə də ağrı olacaqdır», Allahın «qulları Ona xidmət edəcəklər. Onun üzünü görəcəklər… və əbədi olaraq səltənət sürəcəklər» (Vəhy 21:4; 22:3-5). Cənnətin yerdə də ola bilməsini düşünən avtobusdakı qıza Müqəddəs Kitabın sözləri ilə demək olar ki, «Siz hələ heç nə görməmisiniz!»

Lakin Allahın Kəlamında açıq aydın deyilir ki, gələcəkdə günahkarları «cəhənnəm» adlanan yerdə cəza gözləyir. İsa həmin vaxt haqqında açıqca demişdir: «O zaman solundakılara deyəcək: «Ey lənətə gəlmişlər, Mənim yanımdan iblis ilə onun mələklərinə hazırlanmış olan əbədi oda yollanın!» (Matta 25:41)

Yəhya Özünün vəhyində tövbə etməyən günahkarları gözləyən cəzalardan da bəhs edir: «Qorxaqların, imansızların, məkruhların, qatillərin, əxlaqsızların, sehrbazların, bütpərəstlərin və bütün yalançıların isə aqibəti od və kükürdlə yanan göldədir; bu, ikinci ölümdür» (Vəhy 21:8). Bu, təəssüf doğurur, lakin həmin kök kişiyə də Müqəddəs Kitabın sözləri ilə demək olar: «Siz hələ heç nə görməmisiniz!»

Əslində cəhənnəm haqqında Müqəddəs Kitabda çox deyilib, onun tutqun təsvirinə dəfələrlə rast gəlmək olar. Bu xəbərdarlıq tormozları

tutmayan və dik enişlə üzüaşağıya doğru iti sürətlə gedən yük maşınının verdiyi qulaqbatırıcı siqnal səsinə bənzəyir.

Təəssüf ki, haqlı olaraq cəhənnəmə düşəcək olanlar Müqəddəs Kitabın bu xəbərdarlığına lazımi diqqətlə yanaşmır. Cənnət barədə verilən vədi hamı nəzərə almır. Lakin İbranilərə məktubda deyildiyi kimi: «Buna görə biz eşitdiklərimizə daha çox diqqətlə qulaq asmalıyıq ki, axın bizi onlardan ayırmasın. Çünki əgər mələklər vasitəsilə deyilən söz sabit oldusa, hər cür cinayət və itaətsizlik haqlı əvəz aldısa, bu dərəcədə böyük qurtuluşa etinasızlıq göstərsək, biz necə yaxa qurtararıq?...» (İbranilərə 2:1-3)

### Özün əmin ol

Cənnəti yerdə də tapmaq olar uydurmasının cəfəngliyinə əmin olmaq üçün növbəti tapşırığı yerinə yetir.

Kəlamdan aşağıdakı yerləri oxu və xüsusi çəkilmiş sətirlərdə cənnət haqqında dörd natiqin və ya yazıçının adlarını yaz:

1. Matta 6:20

______________________________

2. 2 Korinflilərə 5:1

______________________________

3. 2 Peter 3:13

______________________________

4. Vəhy 19:11

______________________________

İndi isə cəhənnəm haqqında deyənlərin adlarını yaz:

5. Matta 23:33

6. 2 Peter 2:4

7. Vəhy 20:13-15

(*Cavablar*: 1. İsa; 2. Paul; 3. Peter; 4. Yəhya; 5. İsa; 6. Peter; 7. Yəhya).